# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 211 (8527) ÇƏRŞƏNBƏ, 14 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Azərbaycan Ordusunun xilaskarlıq missiyası

### Ali Baş Komandanımızın rəhbərliyi ilə Silahlı Qüvvələrimizin Qarabağda həyata keçirdiyi əks-hücum əməliyyatları erməni xalqını da 30 ildir yaşadığı səfalətdən, rəzalətdən qurtaracaq

Ermənistanın sentyabrın 27-də cəbhə xəttində törətdiyi növbəti təxribatın nəticəsi olaraq başlanan hərbi əməliyyatlar işğal altındakı torpaqlarımızın bir qisminin azad edilməsi ilə nəticələndi. Tərtər, Cəbrayıl, Füzuli rayonlarının 30 ilə yaxındır ki, işğal altında olan yaşayış məntəqələri, Hadrut qəsəbəsi düşməndən azad edildi.

### İşğalçının Qarabağdakı hərbi gücü məhv edilib

Hərbi əməliyyatlar isə dayanmayıb. Çünki humaninar atəşkəs barədə razılığa gəlinsə də, ilk dəqiqələrdən Ermənistan buna əməl etmədi. Bu baxımdan düşmənin razılaşmalara və şərtlərə əməl etməyəcəyi təqdirdə Azərbaycan Ordusunun növbəti yaşayış məntəqələrini işğaldan azad edəcəyi istisna deyil. Bundan sonra baş verəcək döyüş əməliyyatlarında isə Azərbaycan Ordusunun irəliləməsi daha sürətlə baş verəcək. Builk növbədə ordusunun əsas hissəsini işğal olunmuş Dağlıq Qarabağda yerləşdirmiş Ermənistanın hərbi imkanlarının böyük hissəsinin 10 gün ərzində məhv edilməsi ilə bağlıdır. Belə ki, son 3 günü də nəzərə alsaq işğalçı ordunun bu döyüşlərdə 16 komanda məntəqəsi, 210-dan artıq tankı, 40-dan artıq BM-21, 1 "Uraqan", 13 özüyeriyən artilleriya qurğusu, 36 PDM-i, 24 artilleriya batareyası, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 4 radiolokasiya stansiyası və daha neçə-neçə hərbi texnikası məhv edilib.

Onu da qeyd edək ki, iki həftə ərzində Ermənistan ordusu Qarabağdakı hava hücumundan müdafiə sistemlərinin 80 faizini itirib. Xüsusilə qeyd edilməlidir ki, ermənilərin S-300 komplekslərinin yerləşmə rayonları uğurla müəyyənləşdirilərək məhv edilib. Bu da Azərbaycana həmin regionda praktiki olaraq öz aviasiyasını zərbə altına atmaqdan ehtiyat etmədən sərbəst hərəkət etmək imkanı verir. Məhz bu səbəbdən ordumuzun pilotsuz uçan aparatları Qarabağdakı düşmən qüvvələrinin mövqelərinə rahat zərbələr endirə bilir.

Ardı 7-ci səh.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Bu günlərdə Sizin barədə çox düşünürük və bəzi fikirlərimizi Sizinlə bölüşmək istərdik. Siz ölkənizin əsas milli maraqlarının son dərəcə təhlükəli şəraitdə qorunub saxlanılması kimi böyük bir çağırışla üz-üzəsiniz. Təcrübəmizdən də bilirik ki, Sizə olan bütün təzyiqlərə tab gətirəcəksiniz.

Son iki onillikdə əldə etdiyiniz uğurları, eləcə də şəxsi və milli nailiyyətləri, beynəlxalq aləmdə qazandığınız nüfuzu, həmçinin Sizin fikirlərinizi dünyaya çatdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəyərli fəaliyyətini dünyada heç nə ilə müqayisə etmək olmaz.

Geosiyasətdə zaman hər şeyi həll edir. ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən, habelə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin 30 ilə yaxındır ki, yerinə yetirilməməsindən xəbərdarıq.

Ancaq Siz yüksək idarəetmə bacarığı və strateji baxımdan səbirli yanaşma nümayiş etdirmisiniz. Biz bu məsələni Birləşmiş Millətlər Təşkilatının diqqətinə çatdırmalı və beynəlxalq qurumları bununla bağlı lazımi təzyiq göstərməyə cəlb etməliyik.

Siz daha güclü və daha nüfuzlusunuz.

Həmsədrlərimiz Vayra Vike-Freyberqa, İsmail Serageldin və baş katibimizlə birgə işləyərək üzvlərimizin fəal dəstək vermələrini koordinasiya edirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq. Dualarımız Sizinlədir.

*Hörmətlə,*

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin Xarici İşlər naziri***

***Turki Al FAYSAL,***
***Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, Kral Faysal Fondunun Araşdırma və İslami Çalışmalar Mərkəzinin İdarə Şurasının sədri***

Hörmətli cənab Prezident.

Dağlıq Qarabağda baş verən son gərginliklərlə bağlı xəbərlərdən çox narahatam. Nizami Gəncəvinin vətəni olan, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsasının qoyulduğu Gəncə şəhərinə edilən hücuma, uşaqların qətlə yetirilməsinə və şəhərlərin dağıdılmasına heç nə bəraət qazandıra bilməz.

BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri yerinə yetirilməli, ölkələrin suverenliyinə hörmət edilməlidir.

Cənab Prezident, həmsədrlərimiz Vayra Vike-Freyberqanın və İsmail Serageldinin davamlı dəstəyi ilə bir ailə kimi işimizi koordinasiya etdiyimiz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Hamımız inanırıq ki, tezliklə bu vəziyyətdən çıxış yolu tapılacaq.

***Yan FİŞER,***
***2009-2010-cu illərdə Çexiya Respublikasının Baş Naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Zati-aliləri.

Nizami Gəncəvinin vətəni olan Azərbaycanın Gəncə şəhərində mülki şəxslərin həlak olması ilə əlaqədar Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvləri adından dərin hüznlə başsağlığımızı bildiririk.

Biz də beynəlxalq ictimaiyyətin bir parçası kimi, 1994-cü ildə əldə olunmuş atəşkəs razılaşmasının son günlərdə pozulması ilə bağlı narahatlığımızı və kədərimizi ifadə edirik. Hazırkı vəziyyətin davam etməsi bütün bölgənin sabitliyi üçün təhdiddir və üçüncü tərəflərin münaqişəyə cəlb edilməsi daim bir təhlükə olaraq qalmaqdadır.

BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin icrasına dəstək məqsədilə ehtiyac yaranarsa və faydalı olarsa, məsələnin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində davamlı və sülh yolu ilə həlli üçün birgə təcrübəmizlə kömək göstərməyə hazırıq.

Biz həmsədrlərimiz və Baş katibimizlə koordinasiyalı şəkildə işləyərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzində bu məsələ ilə bağlı beynəlxalq aləmdə təbliğat aparmaq üçün həftəlik videokonfranslar təşkil edirik.

Cənab Prezident, kədər hisslərimizlə yanaşı, xahiş edirik, Sizə olan dərin hörmət və ehtiramımızı da qəbul edəsiniz.

*Hörmətlə,*

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini, 2008-ci ildə Xarici İşlər naziri***

Zati-aliləri.

Bu çətin dövrdə Sizə dəstəyimizi ifadə edir və xalqlarımız arasındakı möhkəm dostluq əlaqələrini bir daha vurğulayıram.

Son günlərdə mülki insanların qətlə yetirilməsi ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə şəfa tapmasını diləyirəm. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməlidir.

Hazırda gözəl ölkəniz yeni çağırışla üz-üzədir. Ancaq təcrübəmiz bizə inanmağı və heç vaxt qorxmamağı öyrədib. Əminəm ki, uğurlu rəhbərliyiniz və müdrikliyiniz sayəsində Siz xalqınızı doğru yolla irəliyə aparacaq, bununla da hamı üçün sülhü və firavanlığı təmin edəcəksiniz.

Hörmətli cənab Prezident, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin uğurlu fəaliyyətini vurğulamaq istərdim. Mərkəzimiz nüfuzlu həmsədrləri, fəal və yaradıcı baş katibi ilə birlikdə hər zaman tolerantlığı, dialoqu, anlaşmanı və birgəyaşayışı təşviq edən qabaqcıl quruma çevrilməyə çalışır. Biz mərkəzdə bu məsələ ilə bağlı fikirlərimizi bölüşmək üçün mütəmadi görüşlər keçiririk.

*Hörmətlə,*

***Dalia İTZİK,***
***2007-ci ildə İsrailin Prezidenti, 2006-2009-cu illərdə Knessetin sədri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# Gəncənin yeni ziyarətgahı

### Ermənistandan atılan raketin dağıtdığı yaşayış binalarının ərazisinə hər gün yüzlərlə adam gələrək həlak olanların xatirəsinə ehtiram göstərir

Oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistandan atılan raket nəticəsində Gəncədə dağılmış yaşayış binaları indi ziyarətgaha çevrilib. Hər gün səhərdən axşama kimi bura insanla dolu olur.



Onlar ermənilər tərəfindən törədilən və insanlığa sığmayan terror aktı nəticəsində həlak olanların ruhu qarşısında baş əyir, əraziyə çoxlu sayda tər qərənfillər və uşaq oyuncaqları düzürlər.

Ardı 6-cı səh.

# Onlar valideynlərini itirsələr də, kimsəsiz qalmadılar



Bir körpə düşünün… Gecə anasının ətrinə sığınıb, onun qoynunda dərin, şipşirin yuxuya dalan... Dünyanın ən təhlükəsiz, ən qorxusuz yerini məhz ana qucağı sayan fidan...

Bir körpə düşünün... Bəlkə heç ana südündən də tam kəsilmədiyi halda isti ana qucağından ayrı düşməyə məcbur qalan məsum qızcığaz...

Bir körpə düşünün... Ata-ana qayğısına, sevgisinə ən çox ehtiyac duyduğu çağında valideynlərini itirən, kimsəsiz qalan balaca uşaq...

Ardı 6-cı səh.

# Dünyanı mat qoyan siyasət

Ermənistan terrorçu dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi. Rusiyanın təşəbbüsü ilə Moskvada humanitar atəşkəsin əldə olunmasından heç bir neçə saat keçməmiş Mingəçevir və Gəncə şəhərləri Ermənistan ərazisindən gecəyarı ballistik raketlərlə atəşə tutuldu.

Cənubi Qafqazın əsas enerji infrastruktur mərkəzi olan Mingəçevir SES-i hədəf almış raketlər havada zərərsizləşdirilsə də, Gəncəyə atılmış raket, əfsus ki, böyük dağıntılar törətdi, günahsız insanların həyatına son qoydu. Terroru təcavüzkar xislətinə uyğun olaraq özünün əsas dövlət siyasətinə çevirmiş Ermənistan 1992-ci ilin 26 fevral gecəsi Xocalıda törətdiyi vandalizm aktını bu dəfə də Gəncədə təkrarladı. 350 minə yaxın əhalisi olan, müxtəlif xalqların nümayəndələrinin əsrlərlə mehriban şəraitdə yaşadıqları Gəncə şəhərinə vurulan raket zərbəsi nəticəsində 9 mülki vətəndaşımız həlak oldu. Aralarında azyaşlı körpələr, qadınlar da olmaqla 34 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Gəncəyə raket hücumunun Ermənistanın Vardenis rayonundan həyata keçirildiyi artıq dəqiqdir.

Ardı 4-cü səh.

# "Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda atdığınız məğrur və müdrik addımları alqışlayırıq"

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin və digər ölkələrin vətəndaşlarından Prezident İlham Əliyevə məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin Antalya şəhərindən **Hasan Demirtaş** yazır: "Hörmətli cənab Prezident, vəzifəmin icrası ilə əlaqədar 3 il Azərbaycanda yaşamışam. İki qardaş ölkənin iqtisadiyyatı, məhsulu və xidmət keyfiyyətinin digər ölkələrlə rəqabət etməsi və üstün olması üçün çox çalışmışam. Bu müddət ərzində Azərbaycanla bağlı çoxlu xoş xatirələrim var, eyni zamanda, sadiq dostlar da qazanmışam. Bu gün biz işğalçı Ermənistanla haqlı mübarizədə Sizin və bütün Azərbaycan xalqının yanındayıq. Lazım gələrsə, verəcəyiniz hər bir tapşırığa da hazır olduğumu bildirirəm. Arzum Azərbaycana növbəti səfərimdə Qarabağda dalğalanan üçrəngli şanlı bayrağımızın kölgəsi altında durmaqdır. Sizə, komandanıza, Azərbaycanın igid əsgərinə və bütün azərbaycanlı qardaşlarıma ehtiramımı bildirirəm".

Ardı 2-ci səh.

# Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir

AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda atdığınız məğrur və müdrik addımları alqışlayırıq"

*Əvvəli 1-ci səh.*

Türkiyənin Kocaeli şəhərindən **Birol Özer:** "Hörmətli Prezidentimiz İlham Əliyev, mən Türkiyədə, Kocaeli şəhərində yaşayıram. Burak adlı bir oğlum var. Mən və oğlum hər zaman erməni işğalına qarşı Sizin və bütün Azərbaycanın yanındayıq. Azərbaycan dost və qardaş ölkədir. Biz iki dövlət, bir millətik. Sizin dostunuz bizim dostumuz, düşməniniz düşmənimizdir. Buna görə Sizin sıralarınızda olmaq bizim üçün şərəfdir. Bizlər üçün şəhadət ən böyük mükafatdır. Azərbaycanlı qardaşlarımızla çiyin-çiyinə dayanmaq üçün Sizin əmrinizi gözləyirik. Allaha əmanət olun. Rəbbimiz yar və yardımçınız olsun!"

Misirin paytaxtı Qahirədən **Seymur Nəsirov** yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun qələbələri münasibətilə Sizi və xalqımızı ürəkdən təbrik edirik. İşğalçı Ermənistana qarşı həyata keçirdiyiniz ədalət müharibəsində Sizi tam dəstəklədiyimizi bildiririk. Biz harada yaşamağımızdan asılı olmayaraq, hər zaman Vətənə bağlıyıq, Sizin müdrik rəhbərliyinizlə doğma Azərbaycanımızda baş verən hadisələri diqqətlə izləyirik. Bir vətəndaş kimi bütün qüvvələrimizi səfərbər etmişik. İnformasiya müharibəsində aktiv iştirak edirik. Misir ictimaiyyətinin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılması istiqamətində səylərimizi əsirgəmirik. Vətənimiz qarşısında müqəddəs borcumuzu yerinə yetirməyə hər an hazırıq. Sizin və şanlı ordumuzun yanındayıq. İnanırıq ki, Sizin komandanlığınızla tezliklə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edəcək və Vətənimizin ərazi bütövlüyü təmin olunacaq. Bu şanlı yolda Uca Allah yardımçınız olsun. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

İordaniyanın Əmman şəhərindən **Eyhəm Əbu Annəb**, **Təhsin əl-Muflih** və **Ziyad əl-Xarabşeh** yazırlar: "Möhtərəm cənab Prezident, biz İordaniya Azərbaycan Məzunları Klubunun İdarə heyətinin üzvləri olaraq, Zati-alinizi salamlamaqdan, Sizə və qardaş Azərbaycan xalqına möhkəm cansağlığı arzulamaqdan şərəf hissi duyuruq. Eyni zamanda, Zati-aliniz vasitəsilə böyük Azərbaycan xalqına daha çox sabitlik, tərəqqi və firavanlıq diləməkdən sevinc hissi keçiririk. Hazırkı məktub haqq işinizə inamımızdan irəli gəlir. Rəşadətli Azərbaycan Silahlı Qüvvələri təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi məqsədilə hərbi əməliyyatlar həyata keçirir. Şübhəsiz ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarının 20 faizini işğal edib, bununla da beynəlxalq hüququn prinsip və normalarını pozub, BMT-nin 822, 853, 874 və 884 saylı qərarlarına məhəl qoymamağa davam etməkdədir. Beynəlxalq birlik həmin qərarlar vasitəsilə işğalçı qüvvələrin işğal olunmuş bütün Azərbaycan torpaqlarından tam çıxmasını tələb edir. Biz Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərini dəstəklədiyimizi Zati-alinizə təsdiqləmək istəyirik. Bizim üçün əziz və dəyərli Azərbaycan Respublikasının Sizin müdrik rəhbərliyinizlə 30 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində danışıqları davam etdirdiyini görürük. Lakin hazırkı Ermənistan rəhbərliyinin qeyri-konstruktiv və sülh əleyhinə mövqeyi səbəbindən danışıqlar istənilən nəticəyə gəlib çıxmayıb. Zati-aliləri, biz çox yaxşı bilirik ki, erməni təcavüzkarları işğal olunmuş Azərbaycan ərazilərində mövcud infrastruktura böyük zərər yetirmiş, Xocalı soyqırımı kimi qətliamı törətmiş, Azərbaycan xalqına məxsus tarixi abidələri dağıtmış və oradakı məscidləri donuz və mal-qara tövlələrinə çevirmişlər. Bu da bütün islam dünyası üçün təhqirdir. Yekunda cəsarətli Azərbaycan Silahlı Qüvvələrinin Sizin rəhbərliyinizlə və Sizin əzmkarlığınızdan ilham alaraq, Cənubi Qafqaz regionunda sülh naminə işğal olunmuş Azərbaycan torpaqlarını və oradakı insanları azad etmək, eləcə də ölkənin beynəlxalq tanınmış sərhədləri daxilində əmin-amanlıq və sabitlik yaratmaq kimi müqəddəs vəzifəni yerinə yetirməkdə uğur qazanacağına əminliyimizi ifadə edirik. Zati-aliləri, Sizin işiniz haqq işidir, inşallah, zəfər Sizin olacaqdır. Uca və Qüdrətli Allahdan Zati-alinizi, Azərbaycan Respublikasını və qardaş Azərbaycan xalqını qorumağı rica edirik".

Ukraynadan **Zakir Cabbarov** yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin Azərbaycan üçün etdikləriniz sayəsində xalqımız bütün dünyada başını uca tutur. Allah da daim Sizi uca etsin. Siz gecə-gündüz xalqa xidmət edirsiniz. Gün o gün olsun ki, Sizi Kəlbəcərdə öz evimizdə qonaq edək. Heç olmasa, biz də bir günlük Sizin qulluğunuzda duraq. Bütün işlərinizdə Allah Sizin köməyiniz olsun. Allah Sizi qorusun, inşallah".

İmişli rayonunun sakini **Nicat Rüstəmov** yazır: "Cənab Ali Baş Komandanımız, mənim yaşım az olduğuna görə hələlik cəbhəyə yollana bilmirəm. Amma bütün qərarlarınızı ürəkdən dəstəkləyirəm. Əminəm ki, tezliklə işğal altında olan torpaqlarımızı düşməndən azad edəcək, həmçinin Azərbaycanın siyasi mövqeyini möhkəmləndirəcəksiniz. Mən də Sizə söz verirəm ki, igid əsgər kimi daim Vətənimi şərəflə qoruyacaq, onun adını uca tutmaq üçün layiqli, savadlı övlad olacağam".



Şəmkirdən **Xəlil İsgəndərov:** "Əziz və hörmətli Prezidentimiz, Siz Ulu Öndər Heydər Əliyev siyasətinin davamçısı olmaqla müstəqil Azərbaycanımızın sürətli inkişafına və dünya miqyasında tanınmasına nail olmusunuz. Sizin rəhbərliyinizlə Azərbaycan müasir inkişafın zirvəsinə yüksəlmişdir, dünya birliyində özünə layiqli yer tutmuşdur. Mən onu deyə bilərəm ki, Azərbaycan Respublikası heç vaxt indiki kimi güclü olmamışdır. İndi bizim güclü ordumuz və müasir silahlarımız var, həmin ordunun gücü ilə erməni təcavüzkarları tərəfindən işğal edilmiş torpaqlarımızı azad edə bilərik. Sizin göstərişinizlə biz Azərbaycan xalqı olaraq hər zaman hər şeyə hazırıq. Mən Sizin daxili və xarici siyasətinizi həmişə dəstəkləyirəm, qələbə bizimlədir. Arzu edirəm ki, müharibə tezliklə qurtarsın, köçkünlərimiz doğma yurd-yuvalarına qayıtsın. Xalq Sizi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görür. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Allah Sizi, əsgərlərimizi və Azərbaycan xalqını qorusun. Vətən uğrunda canından keçən şəhidlərimizə Allah rəhmət eləsin. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz və ordumuzun igid, cəsur əsgərləri var. Şəhidlərimizin qanı heç vaxt yerdə qalmayacaq, qisası alınacaq! Bu şüar daim səslənəcək: İlhamla daim irəli! Qarabağ Azərbaycandır!"

Şəki sakini **Könül Qasımova:** "Hörmətli cənab Prezident, son zamanlar qazandığımız bütün uğurlu əməliyyatlara, aldığımız bütün şad xəbərlərə görə Sizə və güclü, rəşadətli ordumuza təşəkkür edirəm və bu haqq yolunda daha böyük uğurlar arzulayıram. Biz həmişə Sizin arxanızdayıq, Sizinləyik. İnanırıq ki, Azərbaycan Ordusu tezliklə böyük zəfər çalacaq".

Salyan rayon sakini **Tahir Gülnəzərov:** "Cənab Ali Baş Komandan, çoxdan bəri gözlədiyimiz "İrəli!" əmrini verdiyiniz üçün Sizə minnətdarıq. Çünki bu əmrə əsasən düşmən təxribatına layiqli cavabı verilir. Torpaqlarımız işğaldan tədricən azad olunur. Bu savaş naminə hər birimiz müsəlləh əsgər kimi Sizin əmrinizə müntəzirik. Biz ordumuzla fəxr edirik və inanırıq ki, Sizin komandanlığınızla torpaqlarımız işğaldan tezliklə azad ediləcək. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!"

Salyan sakini **Əliağa Yunusov:** "Hörmətli cənab Prezident, artıq 30 ildir ki, xalqımızın gözlədiyi gün Sizin qətiyyətli mövqeyiniz, siyasi bacarığınız və cəsarətli addımlarınız hesabına gəlib çatmışdır. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunun formalaşmasını və nüfuzunun artmasını təmin etmişdir. Aşağı Muğan Meliorativ Sistemlərin İstismarı İdarəsinin kollektivi Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin başladığı uğurlu əks-hücum əməliyyatını dəstəkləyir, Ordumuzun uğurlarını hər bir azərbaycanlı kimi biz də sevinc və qürur hissi ilə alqışlayırıq. Yaşasın Ali Baş Komandanımız və rəşadətli Ordumuz!"

Qazax rayon sakini **Vələd Məmmədov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi öz adımdan, Qarabağ döyüşlərində iştirak etmiş veteranlar adından, çalışdığım Qazax rayon suvarma sistemlərinin çoxsaylı işçiləri adından, yaşadığım Kosalar kəndinin ağsaqqalları adından salamlayır, Sizə uzun ömür, cansağlığı və bu böyük, şərəfli işinizdə nailiyyətlər arzulayırıq. Allah Sizə yar olsun. Biz Sizin haqq işinizi həmişə dəstəkləyir və bəyənirik. Apardığınız daxili və xarici siyasəti ürəkdən alqışlayırıq. Yaxşı ki, varsınız. İnanırıq ki, Sizin komandanlığınız altında mətin ordumuz tezliklə qələbə çalacaq, erməni faşistləri tərəfindən zəbt olunmuş torpaqlarımız qısa müddət ərzində azad olunacaq və üçrəngli bayrağımız iftixarla doğma Qarabağda dalğalanacaq. Hamımız səbirsizliklə o günü gözləyirik. Torpaqlarımızın azadlığı uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Hörmətli Prezident, ürəyimiz xoş arzularla doludur, sadalamaqla bitməz. Siz Qarabağ Qələbəsi ilə öz adınızı tarixə qızıl hərflərlə həkk etmiş olacaqsınız. Allah Sizə və müzəffər Ordumuza yar olsun!"

Gəncə şəhər sakini **Ramiz Məhərrəmov:** "Möhtərəm cənab Prezident, son günlər Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatı və hərbi əməliyyatları pisləyir, Sizin əmrinizlə düşmənə qarşı keçirilən əks-hücum əməliyyatlarını dəstəkləyirik. Bir Qarabağ müharibəsi veteranı kimi hər çıxışınızı diqqətlə dinləyib Sizinlə fəxr edirik. Bütün veteranlar siyasətinizi dəstəkləyir, Sizə inanırlar. İnanırıq ki, komandanlığınızla rəşadətli əsgərlərimizin döyüşlərdə qazandığı uğurlar böyük qələbə ilə nəticələnəcək və üçrəngli bayrağımız işğal altından azad edilmiş bütün torpaqlarımızda dalğalanacaq. Allah Sizi, ailənizi və Ordumuzu qorusun! Biz həmişə yanınızdayıq! Fəxr edirik ki, Sizin kimi Prezidentimiz, Ali Baş Komandanımız var!"

Tovuz rayonunun sakini **Ədalət Abdullayev:** "Hörmətli cənab Ali Baş Komandan, son günlər Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun cəbhə bölgəsində torpaqlarımızın azad olunması uğrunda göstərdiyi şücaətlər bütöv Azərbaycan xalqı olaraq bizləri hədsiz sevindirir və qürurlandırır. Ermənilərin törətdiyi təxribata qarşı şanlı ordumuza əks-hücum əməliyyatlarına başlamaq əmri verməyiniz bizim uzun illərdir ki, qəlbimizdə bəslədiyimiz arzularımızın gerçəkləşməsinə səbəb oldu. Sizin böyük siyasi iradə göstərib torpaqlarımızın erməni faşizmindən azad olunmasında və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda atdığınız məğrur və müdrik addımlarınızı alqışlayaraq, Siz başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq".

İsmayıllı rayonunun sakini **Şəhriyar Maxsudov:** "Cənab Ali Baş Komandan, mən ehtiyatda olan əsgər kimi hər zaman vətənimizin bütövlüyü uğrunda qəhrəmancasına döyüşməyə hazıram. Erməni silahlı qüvvələrinin ölkəmizə qarşı təxribatına cavab olaraq əks-hücuma keçən ordumuzun cəbhədəki uğurları məni də ruhlandırır və igid əsgərlərimizlə birlikdə olmağa sövq edir. Hörmətli Prezident, fəxr edirəm ki, Sizin kimi rəhbərimiz var. Sizin qətiyyətli, ardıcıl və uğurlu siyasətiniz nəticəsində uğur qazanacağımıza inanıram. İnşallah, tezliklə bütün Azərbaycana qələbə xəbəri verəcəyinizə ümid edirəm. Yaşasın Azərbaycanın Ali Baş Komandanı! Qarabağ Azərbaycandır!"

## "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası

### Nazirlər Kabinetinin Qərarı

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarına aşağıdakı məzmunda 1.1.2-1-ci yarımbənd əlavə edilsin:

"1.1.2-1. Operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Sabirabad şəhərinə, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndlərinə, Şəki şəhərinə və Kiş kəndinə giriş-çıxışın dayandırılması;".

2. Bu Qərar 2020-ci il 14 oktyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

*Bakı şəhəri, 13 oktyabr 2020-ci il*

# Milli Məclisin Sədri ilə Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri arasında telefon danışığı olub

Oktyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko arasında telefon danışığı olub.



Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sahibə Qafarova bölgədəki son gərginlik, xüsusilə Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturunun məqsədli şəkildə hədəfə alınması barədə Federasiya Şurasının Sədrinə məlumat verib.

Bildirilib ki, oktyabrın 11-də Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb və bu hücum nəticəsində 10 mülki şəxs həlak olub, o cümlədən aralarında azyaşlı uşaqlar da olmaqla 30-dan çox vətəndaşımız yaralanıb. Vurğulanıb ki, Ermənistanın mülki əhalini və mülki obyektləri hədəfə alan bu hücumları müharibə cinayətidir, beynəlxalq hüququn, o cümlədən 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyasının tələblərinin kobud şəkildə pozulması deməkdir.

Oktyabrın 10-da Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin Rusiyanın vasitəçiliyi ilə Moskvada keçirilən görüşündə humanitar atəşkəs barədə razılaşma əldə olunmasından sonra da Ermənistan tərəfinin mülki şəxsləri və mülki obyektləri qəsdən atəşə tutması Federasiya Şurasının Sədrinin diqqətinə çatdırılıb.

Milli Məclisin Sədri Ermənistanın Gəncə ilə yanaşı, sənaye infrastrukturunun və Cənubi Qafqazın ən böyük elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini və digər yaşayış məntəqələrini də ağır artilleriya, həmçinin raket atəşinə tutduğunu qeyd edib.

Sahibə Qafarova hazırda regionda yaranmış gərgin vəziyyətə görə tam məsuliyyətin Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərində olduğunu bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko yaranmış vəziyyətdən narahatlığını bildirib və atəşkəsin təmin edilməsinin vacibliyini vurğulayıb.

# Ermənistanın beynəlxalq humanitar hüquq normalarını pozmasına dair faktlar BQXK-nın nümayəndəsinə təqdim edilib

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev oktyabrın 12-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Arian Bauer ilə görüşüb.

Dövlət komissiyasının sədri Əli Nağıyev Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində beynəlxalq humanitar hüquq normalarının ciddi pozulduğunu, Ermənistan tərəfdən mülki vətəndaşların milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən öldürüldüyünü, habelə əhalinin əmlakının bilərəkdən məhv edilməsi cinayətlərinin törədildiyini diqqətə çatdırıb.

Komissiyadan AZƏRTAC-a bildiriblər ki, Əli Nağıyev Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Moskvadakı görüşünün nəticəsində 2020-ci il oktyabrın 10-u saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması barədə razılığın əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bu razılığı kobud şəkildə pozmaqda davam etdiyini vurğulayıb. Qeyd olunub ki, işğaldan azad edilmiş Suqovuşan ərazisində sanitar maşınının atəşkəsin müəyyən olunduğu vaxtdan bir neçə saat sonra Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir nəfər tibb xidməti qulluqçusu ağır yaralanıb. Həmçinin oktyabrın 11-də gecə saatlarında cəbhə bölgəsindən xeyli kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Nəticədə 5-i qadın olmaqla 10 nəfər dinc sakin həlak olub, 10 qadın və 5 azyaşlı uşaq, ümumilikdə 34 nəfər yaralanıb. Vurğulanıb ki, cari il sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə və müharibə zonasından kənarda yerləşən yaşayış məntəqələrinə ağır artilleriya və raket zərbələri nəticəsində 41 mülki şəxs həlak olub, 211 nəfər yaralanıb, 1200-dən artıq şəxsi ev və mülki obyekt dağıdılıb.

Həmçinin Dövlət komissiyasının sədri Əli Nağıyev bildirib ki, Ermənistan hərbçilərinin qətlə yetirilmiş Azərbaycan hərbçilərinin meyitləri üzərində təhqiramiz hərəkətlər etməklə törətdikləri cinayət əməllərinə dair sosial şəbəkələrdə paylaşılan videolar 1-ci Cenevrə Konvensiyasının 16-cı və 17-ci maddələrinin ciddi pozulduğunun sübutudur. Ermənistanın beynəlxalq humanitar hüquq normalarının, insan hüquqlarının, həmçinin özünün də qoşulduğu 1949-cu il tarixli Cenevrə Konvensiyalarının öhdəliklərinə məhəl qoymamasına baxmayaraq, meyitlərin dəyişdirilməsi, əsir və girovların azad edilməsi daim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir və dövlətimizin başçısı tərəfindən zəruri göstəriş və tapşırıqlar verilib.

Sonda komissiya sədri Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq normalarının pozulmasına dair faktları xanım Arian Bauerə təqdim edib, BQXK-nı Ermənistanın humanitar hüquq normalarını pozması faktlarına obyektiv qiymət verməyə çağırıb.

Xanım Arian Bauer BQXK-nın və Dövlət komissiyasının qarşılıqlı fəaliyyətinin ümumən konstruktiv olduğunu və konkret nəticələr verdiyini vurğulayaraq səmərəli əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# XİN: "Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti hücum gərginliyin artırılması üçün həyata keçirilən dağıdıcı siyasətin növbəti təzahürüdür"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti departamenti Ermənistan xarici işlər nazirinin Moskvadakı brifinq zamanı verdiyi açıqlamanı şərh edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti departamentindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyanın Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində verdiyi açıqlamada ənənəvi olaraq həqiqətə uyğun olmayan bir sıra məqamlar əksini tapır. Bu məqamlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyəti yanlış təqdim etmək və beləliklə, beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədini güdür.

Bununla əlaqədar olaraq Azərbaycan XİN-i xatırladır ki, Ermənistanın hazırkı siyasi-hərbi rəhbərliyi son 2 ildə münaqişə ətrafında vəziyyəti gərginləşdirmək üçün məqsədyönlü şəkildə addımlar atır. Bu addımlar danışıqlar prosesinə ciddi xələl gətirən və onu çıxılmaz vəziyyətə salan təxribat xarakterli bəyanatlardan və digər tədbirlərdən ibarətdir. Onların arasında Ermənistanın Azərbaycana qarşı təcavüzünün qanunsuz nəticələrini və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin davamlı hərbi işğalını möhkəmləndirmək üçün çoxsaylı praktik addımlar yer alır. Bunun ən bariz nümunələri "Qarabağ Ermənistandır, nöqtə" ifadəsi, "yeni ərazilər üçün yeni müharibə" hərbi konsepsiyası, 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hərbi təxribat, işğal olunmuş ərazilərdə Livan ermənilərinin məskunlaşdırılması fəaliyyətidir.

Ermənistanın silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycana qarşı növbəti hücum gərginliyin artırılması üçün həyata keçirilən dağıdıcı siyasətin növbəti təzahürüdür. Suveren dövlət olaraq Azərbaycan Respublikası BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, özünümüdafiə hüququ çərçivəsində müvafiq addımlar atıb. Nəticədə bir sıra Azərbaycan əraziləri Ermənistanın işğalından azad edilib. Təəssüf ki, erməni tərəfi ənənəvi olaraq terror taktikasına əl ataraq münaqişə zonasından uzaq məsafədə yerləşən məntəqələr və insanlar da daxil olmaqla, Azərbaycanın dinc əhalisini və mülki infrastrukturunu intensiv atəşə tutur. Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində 42 azərbaycanlı mülki şəxs həlak olub və 206 nəfər yaralanıb, 1479 ev, 66 çoxmənzilli yaşayış binası və 241 infrastruktur obyekti dağıdılıb.

Xoşməramlı niyyətini nümayiş etdirən Azərbaycan tərəfi Rusiya Federasiyasının müraciətlərinə müsbət reaksiya göstərdi, 3 nazirin Moskva görüşünə qatıldı və orada konstruktiv şəkildə danışıqlar apardı. Azərbaycan tərəfi iclasda razılaşdırılmış humanitar atəşkəsə sadiqliyini elan etdi və silahlı qüvvələrinə müvafiq təlimat verdi.

Lakin Ermənistan tərəfi çox fərqli bir yol seçdi. Onun silahlı qüvvələri Azərbaycanın Tərtər rayonu, Suqovuşan ərazisi yaxınlığında erməni hərbçilərinin cəsədlərini toplayan Azərbaycan həkim qrupuna minaatandan atəş açdı. Nəticədə Azərbaycanın bir tibb işçisi ağır yaralandı. Bundan əlavə, oktyabrın 11-i gecə saat 2-də Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raket atdı. Raket çoxmərtəbəli yaşayış binasını yerlə yeksan etdi, 10 mülki şəxs həyatını itirdi və uşaqlar da daxil olmaqla çox sayda xəsarət alanlar oldu.

Ermənistanın Moskva görüşündən sonrakı diplomatik hərəkətləri də göz qarşısındadır. Moskva görüşünün yekun bəyanatı mövcud danışıqlar formatına sadiqliyi bir daha təsdiqləyir və təməl prinsiplər əsasında mahiyyət üzrə danışıqların başlanılmasını ehtiva edir. Azərbaycan tərəfi ən qısa zamanda danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Ermənistan tərəfi öz növbəsində dərhal Moskva görüşünün bəyanatını birtərəfli və qeyri-dəqiq təfsir edən, öz müqəddəratını təyinetmə və Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qanunsuz rejimin tanınması şüarlarını əks etdirən bəyanatlar verməyə başladı.

Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsiplərinin, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in qərarlarının, eləcə də Moskva görüşünün bəyanatının müddəalarını pozduğu üçün bu cür yanaşmanı tamamilə qeyri-konstruktiv hesab edir.

# Gəncədə Ermənistan silahlı qüvvələrinin raket atəşləri nəticəsində dağılmış binalara baxış keçirilib



Oktyabrın 13-də Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket atması nəticəsində dağılmış binalara baxış keçirib.

AZƏRTAC xəbər verir ki, nazir Ermənistan ordusunun beynəlxalq hüququn norma və prinsiplərini, habelə humanitar atəşkəs rejimini kobudcasına pozaraq raket zərbələri endirdiyi ərazilərə baxış keçirib, hərbi cinayət nəticəsində dağılmış mülki obyektlər və yaşayış binalarının vəziyyəti ilə tanış olub.

Sakinlərlə görüşən K.Heydərov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hər zaman Azərbaycan vətəndaşının yanında olduğunu diqqətə çatdıraraq əhalinin təhlükəsizliyinin təmin edilməsi və mövcud problemlərin aradan qaldırılması ilə bağlı bütün tədbirlərin görüldüyünü bildirib.

## Müdafiə Sənayesi Nazirliyi əməkdaşlıq etdiyi ölkələrin 90-dan çox şirkətinə Ermənistanın təxribatları haqqında müraciət ünvanlayıb

Müdafiə Sənayesi Nazirliyi (MSN) əməkdaşlıq etdiyi Türkiyə, Pakistan, İsrail, İordaniya, Koreya, İran, Gürcüstan, Qazaxıstan, Serbiya, Polşa, Bolqarıstan, Çexiya, Ukrayna, Rusiya, ABŞ, Özbəkistanı, Avstriya, İsveçrə, Səudiyyə Ərəbistanı, Ruanda, Hindistan, İngiltərə, İtaliya, Latviya, Cənubi Afrika Respublikası, İspaniya, Çin və bir sıra başqa ölkələrin 90-dan çox şirkətinə müraciət ünvanlayıb, Ermənistanın son təxribatları haqqında geniş məlumatları onların diqqətinə çatdırıb.

MSN-dən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə qeyd edilib ki, sentyabrın 27-dən bugünədək erməni işğalçıları Azərbaycanın mülki əhalisinə qarşı terror hücumları təşkil edib. Ermənistan ordusunun Tərtər, Mingəçevir, Ağcabədi, Beyləqan, Gəncə şəhərlərini və bir sıra kənd və qəsəbələri müxtəlif silah növlərindən istifadə edərək atəşə tutmaları nəticəsində 42 mülki şəxs həlak olub, 206 nəfər yaralanıb, 241 mülki obyekt və 1479 yaşayış evi, 66 çoxmərtəbəli yaşayış binası yararsız hala düşüb.

Həmçinin qeyd olunub ki, Ermənistanın hücumlarının qarşısı şanlı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınmaqdadır və hərb meydanında düşmənə yetərli cavab verilir. Döyüşlər zamanı qəhrəman əsgər və zabitlərimizin cavab tədbirləri nəticəsində düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur edilib.

# BBC Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb: bu, açıq-aşkar mülki əhalinin hədəfə alınmasıdır

BBC telekanalı Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Ermənistanla Azərbaycan arasında əldə edilmiş razılaşmanın ilk 24 saatda pozulduğu qeyd edilir. Diqqətə çatdırılır ki, Gəncə şəhərində yaşayış binasına atəş açıldıqdan sonra Azərbaycan Ermənistanın müharibə cinayəti törətdiyini bildirir.









Reportajda Ermənistanın raket hücumu nəticəsində dağılmış evlərin, yaxınlarını itirmiş insanların görüntüləri təqdim edilir. BBC-nin hadisə yerində olan müxbiri dağıntıları göstərərək "Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə bu insanların yaşadığı yerlərdən görün geriyə nə qalıb", - deyə qeyd edir. Vurğulanır ki, bu, açıq-aşkar mülki əhalinin hədəfə alınmasıdır. Bu dağılmış binalarda, mənzillərdə insanlar yaşayırdılar. Dağıntılar arasında yataqlar, yorğan-döşək görmək mümkündür. Hücum yerli vaxtla gecə saat 2-də baş verib.

Atəşkəs olmalı idi, lakin bu, əsl müharibənin əlamətləridir. Bəs indi nə olacaq? Atəşkəs artıq bitdimi? Bu suallarla Prezidentin köməkçisi Hikmət Hacıyevə müraciət etdik. Hikmət Hacıyev dedi ki, əgər Ermənistan azərbaycanlı mülki əhaliyə hücumu davam etdirsə, Azərbaycan Ermənistanın hərbi hədəflərinə qarşı lazımi tədbirləri görmək məcburiyyətindədir. "Siz deyirsiniz ki, onlar sizə atəş açıb və sizin buna cavab vermək hüququnuz var. Bunlardan hansı olacaq? Siz atəşkəsə davam edirsiniz, yoxsa bu hücuma cavab verəcəksiniz?" sualına cavabında Prezidentin köməkçisi deyib: "Hazırda biz atəşkəs rejiminə sadiq qalmışıq. Ancaq ermənilər Azərbaycanın mülki əhalisinə hücum etməyə davam eləsələr, dünyadakı bütün dövlətlər kimi, bizim də özünümüdafiə hüququmuz var".

Jurnalist raket hücumu nəticəsində dağılmış evlərdən birinin içərisindən də görüntüləri təqdim edir və dağıntılar arasındakı yorğan-döşəyi göstərərək "evin sakininin nəvələri bu yataqda yatırdılar, xoşbəxtlikdən onlar sağ qala biliblər", - deyir.

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Teleqram" kanalı və "Instagram" hesabı açılıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Teleqram" kanalı və "Instagram" hesabı açılıb.

Bununla əlaqədar Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin saxta kanala (https://t.me/azerbaycan_mudafie_nazirliyi) və hesaba (https://www.instagram.com/mudafie.nazirliyi) istinad etməməyə çağırırıq. Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi "Teleqram" kanalı və "Instagram" hesabı bu linklərdədir: https://t.me/Azerbaijan_MOD, https://www.instagram.com/azerbaijan_mod.

## *Polkovnik Vaqif DƏRGAHLI:* "Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə əməl edir"



Azərbaycan Ordusunun bölmələri heç bir atəş açmır və hücum həyata keçirmir.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib: Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə əməl edir.

# Milli Məclisin Elm və təhsil komitəsi iki qanun layihəsini plenar iclasa tövsiyə edib



Oktyabrın 13-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitənin sədri Bəxtiyar Əliyev əvvəlcə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində təmas xəttində vəziyyət barədə danışıb. Qeyd edilib ki, Ermənistanın təxribatları regionda təhlükə yaradır. İşğalçının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələri lazımi addımlar atır. Lakin Ermənistandan fərqli olaraq, Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur. Sentyabrın 27-dən bugünədək bütün baş verənlər Ermənistanın faşist mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Son hadisələr bir daha göstərdi ki, Ermənistan işğalçı dövlətdir. Azərbaycan isə yalnız özünü müdafiə etmək üçün əks-hücum əməliyyatları həyata keçirir. Komitə sədri öz çıxışında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinə də toxunub, fikirlərini söyləyib.

Bildirilib ki, oktyabrın 9-da Moskvada Azərbaycan, Ermənistan və Rusiya Xarici İşlər nazirlərinin iştirakı ilə danışıqlar zamanı Dağlıq Qarabağda təmas xəttində humanitar atəşkəs elan edilməsi barədə razılıq əldə olunmasına baxmayaraq, Ermənistan növbəti dəfə riyakarlıq göstərərək oktyabrın 11-nə keçən gecə Azərbaycanın döyüş bölgəsindən uzaqda yerləşən, ölkənin ikinci ən böyük şəhəri olan Gəncəni raket hücumuna tutub, nəticədə mülki əhali arasında ölənlər və yaralananlar var. Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi rayonlarının ərazilərini atəşə tutub. Biz bunu qəti şəkildə pisləyirik. Dünya birliyi də bu məsələdə Azərbaycanı dəstəkləyir.

Sonra Bəxtiyar Əliyev gündəliyə "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə sənədlərin birinci oxunuşda müzakirəsinin daxil edildiyini bildirib.

"Təhsil haqqında" qanun layihəsinə dəyişikliklə bağlı bildirilib ki, təklif olunan düzəlişlər qanunun bəzi müddəalarının təkmilləşdirilməsini nəzərdə tutur. Belə ki, qanunun müvafiq maddələrində "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası" anlayışının daxil edilməsi, eləcə də "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" ifadəsinin "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" ifadəsi ilə əvəz edilməsi təklif olunur. Bildirilib ki, bununla da ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdiriləcək, tanınan sənədlərin əhatə dairəsi genişləndiriləcək, ali təhsilə aid olan və ya ali təhsilə qəbul olunmaq imkanı verən subbakalavr diplomlarının da tanınma imkanı və proseduru yaradılacaq.

Komitə sədri deyib ki, xarici ölkələrin səlahiyyətli orqanları tərəfindən verilmiş subbakalavr diplomlarının tanınması ilə xaricdə bu təhsili almış vətəndaşlarımızın, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə təhsillərini növbəti pillələrdə davam etdirmək imkanları yaranacaq.

Müzakirəyə çıxarılan "Peşə təhsili haqqında" qanun layihəsi "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb və terminologiyanın eyniləşdirilməsi məqsədi daşıyır. Qeyd edilib ki, həmin qanunda kvalifikasiya anlayışı belə verilir: "kvalifikasiya - şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunun dövlət təhsil sənədi ilə təsdiq edilməsidir".

Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, deputatlar İsa Həbibbəyli, Etibar Əliyev, Ceyhun Məmmədov, Şahin Seyidzadə, Müşfiq Məmmədli, Aqiyə Naxçıvanlı, Eldar Quliyev, Tamam Cəfərova, Afət Həsənova, Anar İsgəndərov, Fatma Yıldırım, Kamilə Əliyeva sənədlərlə bağlı fikirlərini söyləyiblər, təkliflərini bildiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Dünyanın bir sıra ölkələrinin siyasi partiyaları və parlament üzvləri Azərbaycana dəstək bəyanatları yayıblar

Dünyanın bir sıra ölkələrinin siyasi partiyaları, parlament üzvləri və beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, bu günlərdə dünyanın bir sıra ölkələrinin parlamentlərində təmsil olunan siyasi partiyalar, parlament üzvləri və beynəlxalq parlament təşkilatlarının nümayəndələri Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlarla bağlı bəyanatlarla çıxış ediblər.

Türkiyə Böyük Millət Məclisində təmsil olunan Ədalət və İnkişaf Partiyası (AKP), Cümhuriyyət Xalq Partiyası (CHP), Milliyyətçi Hərəkat Partiyası (MHP), İyi Partiyası (İP), İtaliyanın "5 ulduz Hərəkatı" partiyasından senatorlar Vito Petroçelli, Canluka Ferra, İtaliyanın "Liqa" partiyasından senator Stefano Lucidi və deputat Rossana Boldi, "İrəli İtaliya" siyasi qrupunun sədr müavini, senator Maria Rizzotti, "Yaşasın İtaliya" partiyasının üzvü, senator Mauro Marino, Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani, Hollandiyanın DENK partiyasının sədri Tunahan Kuzu, Bosniya və Herseqovinanın Demokratik Hərəkat Partiyasının sədri Bakir İzetbekoviç və sədr müavini Şefik Djaferoviç, İsrailin "Yisrael Beiteinu" partiyasının sədri Aviqdor Liberman, Almaniya Bundestaqının Solçular fraksiyasının üzvü Helin Evrim Sommer, Almaniya Bundestaqının hakim Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının deputatları Nikolas Löbel, Eberhard Qinqer, Ukrayna Ali Radasının sədrinin birinci müavini Ruslan Stefançuk və deputatlar Vladimir Kreydenko, Lyudmila Marçenko, Hollandiya parlamentinin deputatı Joram van Klavere, Almaniya Bundestaqının deputatı Barbara Hendriks, Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Sven Sester, İndoneziya parlamentində Milli Oyanış Partiyası fraksiyasının nümayəndəsi Anqqia Erma Rini, İran parlamentinin Urmiyadan nümayəndəsi Ruhullah Həzrətpur, Britaniya-Azərbaycan Parlament Qrupunun sədri Bob Bləkmən, Malayziya parlamentinin Nümayəndələr Palatasında Malayziya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Datuk Rozman Bin Datuk Haji İsli, Kolumbiya Senatının Xarici əlaqələr daimi komissiyası və Kolumbiya-Azərbaycan dostluq qrupu, Latviya Seyminin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Romans Naudinş, Latviya Seyminin deputatı Aleksandr Kirşteyns, Moldova parlamentinin deputatları Serjiu Sırbu və Dimitru Diacov, Çili Nümayəndələr Palatasının üzvləri, Əfqanıstan Milli Şurasının Yuxarı və Aşağı Palataları, Xorvatiya parlamentinin deputatı Veljko Kajtazi, AŞ PA-nın vitse-prezidenti Oleksandr Merejko, Avropa Parlamentinin deputatları Sandra Kalniete, Marton Gyöngyösi, Andris Ameriks, Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Məcidi, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Muhammed Xurayçi Niyas Azərbaycana dəstək bəyanatları yayıblar. Bu bəyanatlarda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur, həmçinin Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təcavüz və təxribatlar pislənilir.

# İtaliyalı deputatlar Ermənistanın Gəncəyə raket hücumlarını pisləyiblər

İtaliyalı deputatlar Ermənistanın Azərbaycanın Gəncə şəhərinə raket hücumlarını pisləyiblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, İtaliyanın "Liqa" partiyasından senator və deputat, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun sədri, Senatın Xarici əlaqələr komissiyasının üzvü Stefano Lucidi, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri Rossana Boldi və senator, "İrəli İtaliya" siyasi qrupunun sədr müavini, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədr müavini Maria Rizzotti kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozaraq Azərbaycanın müxtəlif yaşayış məntəqələrini çoxsaylı mülki şəxslərin həlak olması və yaralanması ilə nəticələnmiş raket atəşinə tutmasını qəti şəkildə pisləyən bəyanat yayıblar.

Senator Stefano Lucidi bu mövzu ilə bağlı açıqlamasında İtaliya hökumətinin Moskvada əldə olunan atəşkəsin Ermənistan tərəfindən pozulmasını qəti şəkildə pisləməli olduğunu deyib. Senator bu bölgədə sabitliyin təmin olmasının istər əhalinin təhlükəsizliyi, istərsə də İtaliyanın maraqları baxımdan çox vacib olduğunu vurğulayıb.

Senator Maria Rizotti bəyanatında bildirib ki, Azərbaycan hərbi təcavüzə məruz qalmış ölkə olmasına baxmayaraq, beynəlxalq ictimaiyyətin atəşkəslə bağlı çağırışlarını qəbul edib. Son 24 saat ərazində baş verənlər Ermənistanın atəşkəsi kobud şəkildə pozaraq gərginliyi artırmasına növbəti bir sübutdur. Ermənistanın raket hücumları nəticəsində 10 mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanıb.

İtalyan senator qeyd edib ki, Azərbaycan əhalisinə qarşı soyqırımı və müharibə cinayətləri törədən Ermənistan silahlı qüvvələrini dərhal dayandırmaq mənəvi öhdəlikdir.

Senator bəyanatının sonunda beynəlxalq ictimaiyyəti və İtaliya hökumətini Azərbaycan xalqına qarşı bu vəhşi hərəkətləri qəti şəkildə pisləməyə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Ermənistandan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmağı tələb etməyə çağırış edib.

# Bundestaqın deputatı: "Gəncəyə hücum - atəşkəsin pozulmasının kulminasiya nöqtəsidir"

Azərbaycanın Gəncə şəhərinə hücum nəticəsində mülki əhali arasında çoxsaylı insan tələfatı son günlər sülhün pozulmasının kədərli kulminasiya nöqtəsi oldu. AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının Xristian-Sosial Partiyasından olan deputatı Nikolas Löbel bu sözləri özünün "Twitter" mikrobloqunda yazıb.

Deputat "Moskvadakı danışıqların regiona daha çox sakitlik gətirməli olduğunu" vurğulayıb.

N.Löbel bu şərhini "Taggeschau.de" nəşrinin onlayn-versiyasında çıxmış "Azərbaycan şəhərinə hücum" sərlövhəli məqaləsi ilə bərabər öz mikrobloqunda yerləşdirib.

## Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədrləri Ermənistanın beynəlxalq hüququ pozmasını pisləyiblər

Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun həmsədrləri Valeri Kolyux və Vladimir Kreydenko Azərbaycan Respublikasının Milli Məclisinə Gəncə şəhərində baş verən hadisələrdən və atəşkəs rejiminin pozulmasından dərindən narahatlıq ifadə edən məktub ünvanlayıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda ukraynalı deputatlar mülki əhalinin hərbi əməliyyatların tərəfi olmadığını vurğulayaraq, Ermənistan tərəfindən beynəlxalq hüququ pozma cəhdlərini qətiyyətlə pisləyiblər.

Ukraynalı deputatlar mülki əhali arasında yeni itkilərə səbəb ola biləcək münaqişənin daha da genişlənməsinin qəbuledilməz olduğunu və Ukraynanın əvvəlki kimi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını qeyd ediblər.

# Gəncənin vətəndaş cəmiyyəti təsisatları Ermənistanın dinc azərbaycanlı əhalini hədəf almasını pisləyən bəyanat qəbul ediblər

Gəncə şəhərinin vətəndaş cəmiyyəti təsisatları Ermənistanın dinc azərbaycanlı əhalini hədəfə almasını pisləyən bəyanat qəbul ediblər. Bununla bağlı AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"Cəbhə zonasından 70 kilometr aralıda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan və əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinin oktyabrın 11-də gecə saat iki radələrində Ermənistan ərazisindən növbəti dəfə raket atəşinə tutulması ilə əlaqədar bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistanın növbəti hərbi təcavüzü nəticəsində içərisində uşaq, qadın, ahıl insanların da yaşadığı çoxmənzilli binalarda 5-i qadın olmaqla 10 nəfər həlak olub, 10-u qadın, 9-u uşaq olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən artıq mülki obyektə ziyan dəyib.

Bununla da Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, xüsusilə Gəncə şəhərinin yaşayış məntəqələrini raketlərlə ("Toçka-U", "Smerç", "Skad") atəşə tutmağı davam etdirib.

Oktyabrın 12-də Azərbaycan Respublikasındakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Gəncəyə səfər edərək Ermənistan tərəfindən Gəncə şəhərinin günahsız mülki əhalisinə qarşı həyata keçirilən məsuliyyətsiz raket hücumlarının səbəb olduğu hərbi cinayət səhnələri ilə yerindəcə tanış olublar. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə qəsdən törədilmiş, Azərbaycanın Gəncə şəhərinin və digər yaşayış sahələrinin mülki əhalisinin qətlə yetirilməsi və yaralanması ilə nəticələnən terror aktlarını törətməkdə davam edən işğalçı Ermənistandan insanlıq əleyhinə yönəlmiş müharibə cinayətlərinə təcili olaraq son qoymağa və BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrini yerinə yetirməyə çağırırıq.

Təcavüzkar Ermənistan bu terror hərəkətləri ilə Gəncə sakinlərinin mübarizə əzmini qətiyyən azalda bilməyəcəklər, əksinə, gəncəlilərin mübarizə əzmi daha da möhkəmlənəcək. Ermənistan tərəfindən Gəncəni atəşə tutanlar hərbi cinayətkarlardır və biz inanırıq ki, əvvəl-axır onlar mühakimə olunacaqlar. Həmçinin Xocalı qatilləri, Xocalıda soyqırımı törədənlər də ədalət məhkəməsi qarşısında cavab verəcəklər".

# Vətən müharibəsi zəfərlə başa çatacaq!

## Dünyanı mat qoyan siyasət

*Əvvəli 1-ci səh.*

Düşmən törətdiyi bu beynəlxalq cinayətin cavabını təbii ki, artıqlaması ilə alacaq. Ermənistanın hərbi siyasi rəhbərliyi Gəncədə həlak olan, sağlamlığını itirən o insanların şəxsində, ümumiyyətlə, bəşəriyyətə qarşı törətdiyi cinayət əməllərinin məsuliyyətindən qaça bilməyəcək. Çünki güclü havadarları da onun dünyada tanınmış məkrli, hiyləgər, qaniçən simasını ört-basdır etmək imkanında deyillər.

### Erməni faşizminin növbəti təzahürü

İşğalçı Ermənistanın təxribatlarına qarşı müzəffər ordumuzun əkshücum əməliyyatları həyata keçirərək torpaqlarımızın bir hissəsini azad etdiyi əvvəlki günlərdə də düşmən Gəncəni və çoxsaylı mülki vətəndaşlarımızın olduğu başqa yaşayış məntəqələrimizi artilleriya zərbələrinə məruz qoyub. Nəticədə təkcə son bir neçə gün ərzində 41 nəfər mülki vətəndaşımız həyatını itirib. 200 nəfərdən çox mülki şəxs isə yaralanıb. Şəhərlərimizdə, o cümlədən Gəncə şəhərində çoxsaylı obyektlərə güclü ziyan dəyib.

Gəncəyə insan itkiləri ilə nəticələnən son raket hücumunun humanitar atəşkəs haqqında Moskva razılaşmasından az sonra baş verməsi isə bütün dünyada xüsusilə böyük hiddət doğurdu. Bu, Ermənistan rəsmilərinin beynəlxalq hüquq normaları, Rusiyanın vasitəçilik təşəbbüslərinə uyğun öz imzalarına da hörmət etmədiklərini göstərir. Bu, bizim nə qədər həyasız, azğın bir düşmənlə mübarizə apardığımızın mənzərəsini müəyyənləşdirir.

Azərbaycan Respublikasının Prezidenti Ermənistanın bu azğınlığını erməni faşizminin daha bir təzahürü kimi qiymətləndirib: "Ermənistanın Gəncəyə raket hücumu Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür. Bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!" Bütün bunlar bir daha sübut edir ki, işğalçı ölkənin rəhbəri qan tökmək hərisliyi ilə xalqını, çoxu muzdlulardan ibarət ordusunu məhv olmaq faciəsindən xilas etmək istəyən Rusiyanın imicini, bütün dünyada qəbul edilmiş müharibə qanunlarını ayağı altına alıb pozaraq heç bir şeyin fərqinə varmadan, qəddarlıq və dəlilik səviyyəsinə çatmış adi bir ermənidir.

### "Sözümüz də imzamız qədər keçərlidir"

Azərbaycan hər zaman fərqindədir ki, hərbi əməliyyatların da öz qayda-qanunları, normaları var. Ordumuz düşmən təxribatlarına cavablarında, həyata keçirdiyi bütün hərbi əməliyyatlarda bu normalara riayət etdiyini sübuta yetirib. Azərbaycan öz sözünə, imzasına hər zaman sadiqdir. "Bizim sözümüz də imzamız qədər keçərlidir" deyir cənab İlham Əliyev. Onun ürəkdən gələn qətiyyətlə dediyi hər kəlməsi xalqının ürəyindən tikanlar çıxarır, qələbəyə sarsılmaz əminlik yaradır.

Dövlət rəhbərimiz hətta imzasız, sənədsiz verilən sözlərə, əldə edilmiş razılaşmalara da sadiqlik nümayiş etdirir. Qarşısındakılardan da bunu gözləyir, verdikləri sözlərlə, sənədlərə qoyduqları imzalarla necə davranacaqlarını təmkinlə izləyərək onlara şans verir. Bununla göstərir ki, "siyasətdə məqsəd vasitəyə haqq qazandırır" deyənlər əslində siyasəti çirkaba bulayan haqsız və cılız adamlardır. Comərdlik, verilən sözü axıra qədər tutmaq, inam əslində adi insani münasibətlərdəki qədər siyasətdə də ən ali dəyərlərdir. Amma bu dəyərləri də ancaq güclü, qətiyyətli liderlər, öz xalqına arxalanan, riyakarların cılız əməllərindən çəkinməyən, bu riyakarlıqların cəzasını vermək iqtidarında olan bütöv şəxsiyyətlər qoruya bilərlər. İlham Əliyevi dünya siyasətinin parlaq, nüfuzlu liderlərindən biri edən, ona hər kəsin sevgi və rəğbətini qazandıran, bu siyasətə dünyanı mat qoyan da elə peşəkarlığı ilə yanaşı, həm də malik olduğu dəyərlərdir. Comərdliyidir, verdiyi sözü tutmasıdır, sözünə də, imzasına da hörmətlə, ehtiramla yanaşmasıdır, sözü ilə əməlinin vəhdətidir.

### Döyüş meydanında məğlub olmuş Ermənistan mülki əhalini hədəf seçib

Əfsuslar olsun ki, biz şəxsiyyət etibarilə bu dəyərlərin tamam əksinə sahib olan, tarix boyu qol qoyduqları mənəviyyatsızlıqlarla həyatın dibinə enmiş bir düşmənlə üzüzəyik. Erməni rəsmiləri oxşar riyakarlıqları, xəyanətləri, əldə edilmiş razılaşmaları pozmaq xislətini indiyə qədər təkrar-təkrar göstəriblər. Ona görə də Moskva razılaşmasından, humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan sonra Azərbaycanın bir sıra rayonlarına 548-dən çox mərminin (axı bu silahları öz vəsaiti ilə əldə etsəydi, "bu qədər səxavətli" olmazdı) atılması faktı əsla təəccüblü deyil. Düşmən yaşayış məntəqələrimizin atəşə tutulmasını humanitar atəşkəs boyu davam etdirib və hazırda da eyni təxribatları davam etdirməkdədir. Bu da Ermənistanın rəşadətindən deyil, acizliyindən irəli gəlir. İşğalçı ölkənin özünə yer tapa bilməməsi şanlı ordumuzun vurduğu yaraların dərinliyindəndir. Ermənistan illərdir işğal altında saxladığı torpaqlarımızın bir qismindən qovulması, ordumuzun hətta Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan Hadrut qəsəbəsini düşməndən təmizləməsi reallığını sinirə bilmir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə düçar olması ilə barışmaq istəmir.

Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Ermənistanın Gəncəyə sonuncu raket hücumu ilə bağlı vətəndaşlarımıza müraciətində düşmən ölkənin bu vəhşiliklərinin dəqiq anlamı verilib: *"Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir. Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.*

*Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər".*

*"Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır"*, - yazır Mehriban xanım.

Müraciətdə də göstərildiyi kimi, Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik, etinasızlıq nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün rüsvayçı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Azərbaycan Prezidenti Rusiyanın RBK kanalına müsahibəsində Ermənistanın öz azğın davranışlarını humanitar atəşkəs dövründə də davam etdirməsinin işğalçı ölkənin danışıqlar masasındakı itkilərindən irəli gəldiyini dolayısı ilə diqqətə çatdırdı: *"Erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir".*

### Yalançını mənzilinədək qovmalı

Nəticə etibarilə Ermənistan bu antihumanist addımları ilə öz acınacaqlı aqibətini daha da yaxınlaşdırır. Döyüş meydanlarında Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında mövqelərini əldən verib qaçdığı kimi, diplomatik meydanda da geri çəkilməyə məcbur olur. Ermənistandan gəlmiş hərbçiləri əzəli və əbədi torpaqlarımızdan iti qovan kimi qovan (bu adı özü qazanıb-red) Azərbaycan dövləti diplomatik arenada da Ermənistanın yalançı, riyakar rəhbərliyinin qoparağını götürür. Bir el misalımızda deyildiyi sayaq, "yalançını mənzilinədək qovarlar".

Moskva görüşündə masa arxasında əyləşmək, Ermənistana sonuncu şans vermək Azərbaycana məhz bunun üçün lazım idi. Azərbaycan bununla münaqişənin sülh danışıqları ilə, ölkəmizin ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində həllinə sadiqliyini növbəti dəfə nümayiş etdirdi.





Humanitar atəşkəsə Azərbaycanın birtərəfli qaydada "yox" deməsi Ermənistanın mövqeyini gücləndirmiş olardı. Bu baxımdan rəsmi Bakının Moskva görüşünü qəbul etməsi və gərgin danışıqlarda iştirakı doğru addımdır. Görüşün dörd bəndlik yekun razılaşma sənədində atəşkəsin Azərbaycanın istəyi ilə sırf humanitar məzmun daşıması isə o deməkdir ki, ölkəmiz Ermənistanın davranışlarını nəzərə alaraq istənilən an hərbi əməliyyatları bərpa edə bilər. Bundan başqa, sənədə əsasən Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayırlar. Bu da Azərbaycanın diktə etdiyi daha bir şərt və əldə etdiyi daha bir diplomatik uğurdur.

### İndi şərtləri Azərbaycan diktə edir

Cənab İlham Əliyevin RBK kanalına müsahibəsində verdiyi izahlardan da gördük ki, yekun sənəddə Azərbaycan bütün prinsipial şərtlərini qəbul etdirə bilib. Daha doğrusu, tərəflər Azərbaycanın öz prinsipial mövqeyindən geri çəkilmədiyini görərək şərtləri qəbul etməli olublar. Çünki Ermənistanın yeni rəhbərliyi mövcud status-kvonu saxlamaqdan ötrü danışıqların formatını dəyişməyə cəhd göstərir, aparılan danışıqların Azərbaycan Respublikası ilə Dağlıq Qarabağdakı qondarma rejimlə keçirilməli olması barədə sərsəm bəyanatlar verirdi. Ordumuzun cəbhədəki parlaq qələbələrindən, uzun illərdir davam edən status-kvonu pozmasından sonra isə indi şərtləri haqlı olaraq məhz Azərbaycan diktə edir.

Azərbaycan Ordusunun bu illər ərzində düşmənin qorumağa çalışdığı status-kvonu pozub işğalçıların əsas gücünü əlindən almasından sonra yaranmış yeni reallıqlara siyasi və diplomatik müstəvidə baxılması normal bir haldır. Hərbi əməliyyatlar danışıqlar prosesində də Azərbaycanın mövqeyini xeyli möhkəmləndirdi. Qeyd etdiyimiz kimi, artıq danışıqların gedişində şərtləri Azərbaycan müəyyənləşdirir və ölkəmizə qarşı hər hansı şərtlərin irəli sürülməsinin qəbuledilməzliyini hamı aydın dərk edir.

Bütün bu nəticələr Azərbaycana qarşı yönələn güclü təzyiqlər qarşısında əldə olunur. Prezident İlham Əliyev siyasi təzyiqlərə sinə gərərək məharətli və vaxtında atılan diplomatik addımları ilə Azərbaycana qarşı görülən bu təzyiqləri dəf edir. Dövlət rəhbərimizin qətiyyətli mövqeyi, diplomatik məharəti Ermənistan və onun havadarlarının bir araya gəlib Azərbaycana qarşı vahid diplomatik cəbhə formalaşdırmasına imkan vermir. Ölkəmiz hərb meydanında olduğu kimi, danışıqlar masasında da haqlı tərəf kimi görünür, öz ədalətli mövqeyini qoruyub qətiyyətlə saxlayır.

### Artıq təmas xətti deyilən anlayış yoxdur

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyi həmişə ondan ibarət olub ki, ciddi mahiyyətli danışıqlar aparılmalı və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan plan hazırlanmalıdır. Ermənistan öz təcavüzkar mövqeyindən geri çəkilməzsə, münaqişə sülh yolu ilə həllini tapmazsa, torpaqlarımızın hərb yolu ilə azad ediləcəyini bütün dünyanın şahidliyi ilə Azərbaycan hər zaman bəyan edirdi. Bu dəfə isə belə bir bəyanat reallıqda öz ifadəsini tapdı. Azərbaycan öz hərbi zəfərləri ilə "münaqişənin hərbi həlli yoxdur" tezisini tez-tez təkrarlayan Ermənistan və onun havadarlarının bu tezisini darmadağın etdi. Artıq təmas xətti deyilən anlayış yoxdur. Azərbaycan bununla bütün dünyaya göstərdi ki, münaqişəni birdəfəlik həll edə bilmək qüdrətindədir. Biz istər sülh, istərsə də müharibə olsun, ədaləti təmin edən hər iki varianta hazırıq.

Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyan Prezident İlham Əliyev bu maraqların onun üçün ən ali dəyər olduğunu hər zamankı kimi bir daha sübuta yetirdi. Eyni zamanda uzun illərdir danışıqlar prosesində ciddi bir nəticə ortaya qoya bilməyən ATƏT-in Minsk qrupunu da yeni bir vəziyyət qarşısında qoydu. Etiraf edək ki, münaqişənin öz həllini tapmamasında və işğala əsaslanan status-kvonun qorunmasında Ermənistana xaricdən ciddi dəstək göstərilir, danışıqlar prosesi heç bir nəticə vermədən sadəcə danışıqlar xatirinə aparılırdı. Məqsəd isə tədricən işğalı Azərbaycan cəmiyyətinə unutdurmaq və torpaqlarımızın Ermənistan tərəfindən ilhaqına nail olmaq idi. Prezident İlham Əliyev isə xalqın gücünə, milli həmrəyliyimizə, ordumuzun qüdrətinə arxalanaraq qəti siyasi iradə nümayiş etdirməklə 30 illik bu riyakar oyunu pozdu. Azərbaycanın işğalla heç zaman barışmayacağını sübut etdi. ATƏT-in Minsk qrupu heyətinə mövcud reallıqları nəzərə alaraq yenidən baxılması, regionda sabitliyin, inkişafın əsas qarantlarından olan qardaş Türkiyənin də danışıqlar prosesində fəal mövqe tutması tələbini aktuallaşdırdı.

ATƏT-in Minsk qrupunun fəaliyyətinə artıq yenidən baxılmalıdır. Bu qrupda həmsədr statusunda çıxış edən Fransanın erməniپərəst mövqeyi, Azərbaycana qarşı qərəzli münasibəti hər kəsə bəllidir. Bu münasibət son hərbi əməliyyatlar zamanı daha aydın şəkildə üzə çıxdı.

Həmsədrlərin medianın son olaylara qeyri-obyektiv münasibəti, münaqişə ilə bağlı müzakirələrdə əməlli-başlı tərəf tutması Azərbaycana münasibətin əfsuslar ki, birmənalı olmadığını göstərdi. Azərbaycan cəmiyyətində Rusiyaya olan xoş münasibətə, iki ölkə arasındakı böyük bir dövrün dostluq münasibətlərinə yaraşmayan və zidd olan bu yanaşmanın aradan qaldırılması üçün Rusiya da müəyyən ədalətli addımlar atmalıdır.

### Azərbaycan Prezidenti regionun geosiyasi mənzərəsini dəyişir

Son olaylar bir daha göstərdi ki, ölkəmizin təşəbbüskarı olduğu qlobal layihələrlə regionun sosial-iqtisadi mənzərəsini dəyişən Azərbaycan Prezidenti İlham Əliyev bu gün məntiqli diplomatik gedişləri ilə də regionun geosiyasi mənzərəsini də dəyişməkdədir. Biz hansısa gözləntilərimizdə tələsə bilmərik, nəticənin daha tez əldə olunmasını istəyə bilərik. Amma nəzərə almalıyıq ki, hansı addımın nə zaman atılacağını dövlətimiz, ölkə rəhbərimiz hamıdan yaxşı bilir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi: "Nəyi, nə vaxt, necə etmək lazımdır, bunu mən bilirəm!"

Dövlət rəhbərinin bu sözlərini bu günədək aparılan siyasət, atılan addımların qazandırdığı nəticələr sübuta yetirir. Bizim isə missiyamız xalq olaraq daim dövlətimizin, Prezidentimizin yanında olmaq, milli həmrəyliyimizi qorumaq, obyektiv həqiqətlərimizi düzgün şəkildə cəmiyyətə və dünyaya çatdırmaq, informasiya müharibəsində də Azərbaycanın üstünlüyünü təmin etməkdir.

Mehriban xanım Əliyevanın xalqa müraciətində qeyd etdiyi kimi: "Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq!"

Haqq davasında qələbə gec-tez haqlı tərəfin olur. Bu davada haqlı olan bizik!

Qarabağ Azərbaycandır! Buna heç kimin şübhəsi olmasın.

***Nurlana ƏLİYEVA,***
***BSU-nun rektoru,***
***YAP Qadınlar Şurasının sədri,***
***professor***

## XXI əsrin faşizminə birlikdə qalib gəlirik

İnsanın taleyində,
mənsub olduğu xalqın,
ölkənin həyatında elə
anlar yaşanır, elə hadisələr baş verir ki, onu
yazmaq, sözlə ifadə etmək çətin, bəzən də
mümkünsüz olur. Bu
anlar o anlar, bu günlər
o günlərdi. Bu, həsrətində olduğumuz
QƏLƏBƏ sorağıdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin təbirincə desək, bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Xalqımız bu günlər tarixinin ən şərəfli səhifələrini yazır. Onun qəhrəman ordusu öz qüdrətli, yenilməz SƏRKƏRDƏSİnin rəhbərliyi altında tarixi ədalətsizliyə, 30 illik həsrətə, bəlkə də bir neçə əsrlik ağrı-acıya son verir. Bu xalqın uşaqdan-böyüyəcən, kürdündən-ləzgisinə, talışından-avarına, yəhudisindən-kumıkına, tatına qədər hər bir fərdi yumruq olub iyirmi birinci yüzilliyin faşizmini, şovinist irqçi rejimini, millətçi vandalizmi əzir, müqəddəs Vətən torpaqlarından, Qarabağımızdan süpürüb-atır.

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi əzəli Azərbaycan torpaqlarında - süni şəkildə yaradılmış indiki Ermənistan Respublikasının ərazisində yaşayan azərbaycanlıları, o cümlədən digər milli azlıqların, azsaylı xalqların və etnik qrupların nümayəndələrini öz dogma yurdlarından qovmaqla həmin ərazilərdə monoetnik Ermənistan dövlətinin qurulmasıdır.

Bədnam qonşumuzda yaxın tarixdə nə baş verib? Çox da uzaq olmayan dövrə nəzər salaq. AMEA-nın müxbir üzvü, professor M.Qasımlı qeyd edir ki, o zamankı Ararat Respublikasının 1918-ci ildə vur-tut 1 milyondan azacıq çox əhalisi vardı. 1920-ci ilin sonlarında sovetləşdiriləndə bunun yalnız 770 mini qalmışdı. Daşnaksütyunun hakimiyyəti illərində Ermənistanda əhali 35,5 faiz azalmışdı. Türklər 77 faiz, kürdlər 98 faiz, yezidi kürdlər 40 faiz azalmışdı. Əgər 1918-ci ildə Ermənistanda türklər 260 min nəfər idilərsə, 1920-ci ildə 60 min olmuş və ya 77 faiz azalmışdı. Kürdlər 1918-ci ildə 25 min nəfər idilərsə, 1920-ci ildə 0,5 min nəfər olmuş və ya 98 faiz azalmışdı. Yezidilər bu illərdə 8 min nəfər idilərsə, 1920-ci ildə 5 min nəfər olmuş və 40 faiz azalmışdı. Ruslar isə 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7 faiz azalmışdı. Digər millətlərin sayı 7 mindən 4 minə düşərək 43 faiz azalmışdır.

Ermənistanın etnik ayrı-seçkilik siyasəti dövlət səviyyəsində uzun illər davam etdirilmiş, insanlar milli mənsubiyyətlərinə görə təqib olunmuş, işgəncələrə məruz qalmış, zaman-zaman doğma yurd-yuvalarından zorakılıqla qovulmuşlar. Beləliklə də, milli mənsubiyyətinə görə təqib edilən, soyqırıma məruz qalan təkcə azərbaycanlı əhali olmamış, kürdlər, o cümlədən yezidilər, bu coğrafiyada tarixən yaşayan digər xalqların nümayəndələri, hətta ruslar belə erməni şovinizminin qurbanlarına çevrilmişlər. Bu azmış kimi, onların tarixi kimliyini, milli-mənəvi dəyərlərini yaşadan abidələri, məscidləri, digər dini ibadətgahları dağıdıb yerlə-yeksan etmiş, toponimləri özününküləşdirmiş, tarixi açıq-aşkar, həyasızcasına saxtalaşdırmışlar.

Həm də bunun on illər ərzində mərhələli şəkildə həyata keçirildiyi barədə kifayət qədər faktlar vardır. Məsələn, 1937-ci ildə Ermənistan ərazisində yaşayan 50 min müsəlman kürdü zorla Orta Asiya və Qazaxıstan çöllərinə sürgün olundular. 20 ilə yaxın qaçqınlıq həyatı keçirən kürdlər, nəhayət, Stalinin ölümündən sonra bəraət aldılar. Repressiya dəhşətlərinə məruz qalan tək-tük insanlara və millətlərə bəraət verilsə də, kürdlər buna sevinə bilmədilər. Onların öz vətənlərinə - Ermənistana dönməsinə rəsmi razılıq olsa da, faktiki olaraq ermənilər bu razılığın qarşısına sipər çəkdilər. Qatarlara doldurulmuş ailələr, nəsillər Azərbaycandan keçib öz ata-baba yurdlarına gedərkən Ermənistandan gələn nümayəndələr köçlərin qarşısını kəsib qətiyyən buna imkan verməyəcəklərini bildirdilər.

Beləcə, sürgündən qayıdan kürdlər Azərbaycan ərazisində - Yevlax, Goranboy, Göygöl, Samux və digər rayonlarda məskunlaşmalı oldular. Ermənistan ərazisində son etnik təmizləmə başlayandan sonra ölkəmizə 250 mindən çox azərbaycanlı soydaşlarımızla yanaşı, minlərlə müsəlman kürd də gəldi. Dağlıq Qarabağın ətrafındakı rayonların işğalından sonra isə bütün yerli kürdlər məcburi köçkün vəziyyətinə düşdülər. Onların qismən yaşadıqları bölgələr işğalçılar tərəfindən zəbt olundu, yüzlərlə qadın, uşaq, yaşlı insan əsir götürüldü. Köçkün kürdlər hazırda respublikamızın 55 rayonunda məskunlaşıblar.

Müasir Ermənistan monoetnik ölkədir, onu idarə edən rejim şovinist millətçilik siyasətini pik həddə çatdırmışdır. Faktiki olaraq Ermənistan Respublikasının idarəçiliyi iki ideya əsasında formalaşır - Millətçilik və Terror!

Öz xalqını bu qatı millətçilik, dini, etnik dözümsüzlük ideyaları, "Böyük Ermənistan" xülyaları ilə zəhərləyən rejim uzun illərdir ki, Azərbaycan ərazisində əhali arasında etnik və dini zəmində çaxnaşma, ədavət, düşmənçilik yaratmağa çalışır. Azərbaycanı etnik münaqişə girdabına çəkmək və regionun liderinə çevrilmiş bir dövlətin varlığına son qoymaq məqsədi güdən Ermənistan dəfələrlə Azərbaycanda yaşayan milli azlıqların, azsaylı xalqların, etnik qrupların (ləzgilər, talışlar, kürdlər, tatlar, avarlar, saxurlar və s.) bəzi nümayəndələri arasında separatçılıq əhval-ruhiyyəsini qızışdırmağa cəhdlər göstərmiş, onların "liderləri"ni maliyyələşdirməklə Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətə yönəltmişdir. İrəvan Universitetində "talış dilinin öyrənilməsi və təbligi" adı altında tez-tez keçirilən "konfranslar", talış dilində kitabların nəşri, Şuşada talış dilində radionun fəaliyyəti Ermənistanın Azərbaycanı parçalamaq və burada yaşayan xalqlardan heç olmazsa birini öz müttəfiqinə çevirmək üçün etdiyi uğursuz cəhdlərin yalnız az bir qismidir.

Azərbaycanda vəziyyət necədir? On illər boyu erməni separatizmindən, şovinizmdən əziyyət çəkən, təkcə son 30 ildə yüz minlərlə insanı doğma ata-baba ocaqlarından qovulan, övladları qaçqın, köçkün düşən, torpaqlarının beşdə biri işğal olunan, bu gün belə təcavüzə, işğalçı hücumlara məruz qalan ölkə ümumbəşəri dəyərlərə sadiq qalır, mülki şəxslərə, konkret halda isə erməni millətindən olan vətəndaşlarına sülh, əmin-amanlıq vəd edir, multikultural dəyərlərə sadiqliyini ən yüksək səviyyədə ifadə edir.

Bu fikirlər Azərbaycan Prezidenti cənab İlham Əliyevə məxsusdur: "Mən bir neçə gün bundan öncə bizim yaralı əsgərlərimizin yanına getdim, hərbi hospitalda onlarla görüşdüm. Onlara təşəkkürümü bildirdim və eyni zamanda onlarla görüş əsnasında erməni xalqına müraciət etdim. Anlayırdım ki, onların yanında bunu demək o qədər də asan deyil, çünki onlar ermənilər tərəfindən vurulub. Amma dedim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Erməni xalqı öz hökumətini məsuliyyətə cəlb etməlidir. Öz hökumətinin yarıtmaz, çirkin siyasətinin nəticəsində bu döyüşlər baş verdi. Bizim mövqeyimiz dəyişməzdir. Torpaqlarımız azad olunandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar bir yerdə yaşayacaqlar. İki toplum çərçivəsində, bir ölkə ərazisində. Bu gün Azərbaycanda minlərlə erməni var..."



Ermənistandan fərqli olaraq, multikulturalizm, milli və dini dözümlülük Azərbaycan cəmiyyətinin həyat tərzinə çevrilmişdir. Vətənimiz dünyanın nadir ölkələrindəndir ki, burada yaşayan ən müxtəlif millətlərdən və dinlərdən olan insanlar öz milli mədəniyyətlərini, milli adət-ənənələrini nəinki yaşadır, həm də inkişaf etdirir.

Milli ideoloji sistemin, ümumilikdə, ümummilli təhlükəsizliyin, ictimai-siyasi sabitliyin, sosial birliyin qorunmasında bu amilin çox mühüm rolu vardır. Etnik, dini və digər mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin ərazisində məskunlaşan hər bir vətəndaş Azərbaycanın sərvətidir, uğurla həyata keçirilən daxili və xarici siyasət nəticəsində yaradılmış güclü iqtisadi potensial onların rifahına xidmət edir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müdrik dövlət siyasəti dövlət başçısı möhtərəm İlham Əliyev tərəfindən yüksək ustalıqla həyata keçirilir, elə Vətən müharibəsinin zəfər dolu, qələbələrlə zəngin olan bu günlərində də öz bəhrəsini, töhfələrini verir.

İşğal olunmuş ərazilərin azad edilməsi üçün Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatları nəticəsində Qarabağda vəziyyətin gərginləşməsi fonunda erməni millətçiləri, Ermənistanın, separatçı rejimin rəhbərliyi ayrı-ayrı informasiya resurslarında, o cümlədən sosial şəbəkələrdə onlara züy tutan bəzi xarici KİV-də ölkəmizdə yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların nümayəndələrinə dövlətimizə, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətə qarşı çıxmaq haqqında çağırışlar edirlər. Lakin Azərbaycanda yüksək milli və dini dözümlülüyün, qarşılıqlı hörmət və etimad mühitinin mövcudluğu, azərbaycançılıq ideologiyasının hər kəs tərəfindən razılıqla qəbul olunması istər etnik, istərsə də dini bölücü meyillərdən qat-qat güclü olması, qətiyyəti bu məkrli planlarının da reallaşmasına imkan vermir.

Bunu da fəxrlə demək olar ki, hazırda düşmənin başına od yağdıran şanlı ordumuzun sıralarında Vətənimiz Azərbaycan uğrunda müxtəlif xalqların, milli azlıqların onlarca, yüzlərlə qəhrəman övladı şərəflə vuruşur, işğal olunmuş torpaqlarımızı düşməndən qarış-qarış təmizləyir, bizə, ən əvvəl isə özünə layiq olduğu və çoxdan gözlədiyimiz QƏLƏBƏ sevincini bəxş edir.

Zəfərlərin bol olsun, Azərbaycan Ordusu!

Sizdən yeni-yeni QƏLƏBƏ müjdələri gözləyirik, cənab Ali Baş Komandan!!!

Xalqımız Sizinlə fəxr edir, SƏRKƏRDƏ adınız Azərbaycanın üstündə ƏBƏDİ olsun!!!

***Cavid XASPOLADOV,***
***Azərbaycan Respublikasının***
***Təhlükəsizlik Şurası katibinin***
***Xidmətinin əməkdaşı***

# Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!

## Xalqımızın iradəsini sarsıtmaq mümkün deyil

### Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızda tarix yazır

Azərbaycan dünyada özünəməxsus yeri olan ölkədir. Onun iqtisadi imkanları artır, siyasi müstəvidə uğurlar qazanır, regionda çox mühüm layihələrin müəllifi və tərəfdaşıdır. Azərbaycan gücləndikcə, öz ərazi bütövlüyünü bərpa etmək sahəsində müstəqil qərar vermək hüququnu daha da möhkəmləndirmişdir.

30 ilə yaxındır ki, torpaqlarımızın sülh yolu ilə qaytarılmasını və nəhayət, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin real olaraq tətbiq olunacağını gözləyirik. Lakin Azərbaycandan fərqli olaraq, Ermənistan rəhbərliyi konstruktiv mövqedən qat-qat uzaqdır və bilərəkdən danışıqları ləngidir. Əvəzində isə Azərbaycanın tarixi irsi dağıdılır, bizim mədəni, dini abidələrimiz məhv edilir, toponimlərimiz, rayonlarımızın inzibati sərhədləri, dağların, çayların və şəhərlərin adları dəyişdirilir. Qanunsuz məskunlaşma həyata keçirilir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Ermənistan işğal etdiyi Dağlıq Qarabağda ermənilərin sayını süni şəkildə artırmaq üçün uzun illərdir iki yoldan istifadə edir: birincisi, Ermənistanın müxtəlif yerlərindən ailələri, xüsusilə işə və evə ehtiyacı olan gənc cütlükləri sosial dəstəklə bağlı müxtəlif vədlər qarşılığında işğal olunmuş ərazilərə köçürür; ikincisi, Yaxın Şərq ölkələrindən - Suriyadan, Livandan - erməniləri bu ərazilərə gətirir, hətta onlara sonradan yerinə yetirilməyən müxtəlif vədlər də verirlər. Bu gün isə həmin ermənilər qaçırlar.

Son bir ildə artıq Ermənistanın rəhbərliyi Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməyə başladı. Bu ilin iyulunda Tovuzda hərbi təxribat törədildi, avqust ayında xüsusi diversiya qrupu göndərildi, lakin bizim ordumuzun sayıqlığı nəticəsində bu, baş vermədi. Nəhayət, sentyabrın 27-dən başlayaraq ermənilər dinc əhaliyə artilleriya, raket zərbələri endirməyə başladılar. Və Azərbaycan haqlı olaraq öz vətəndaşını, ərazisini qorumaq və düşmənə layiqli cəza vermək üçün cəbhəboyu uğurlu əks-hücum əməliyyatları keçirdi. Hər gün bizi tam qələbəyə yaxınlaşdıran xəbərlər eşidirik. Ordumuz ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sistemli, planlı şəkildə irəli gedir. Füzuli, Cəbrayıl, Ağdərə və Tərtər rayonlarının bir neçə kəndlərinin, yaşayış məntəqələrinin, mühüm strateji ərazi və yüksəkliklərinin, həmçinin Cəbrayıl şəhərinin, Hadrut qəsəbəsinin azad olması xəbəri bizi sevindirdi. Hamımız ürəkdən inanırıq ki, Qarabağ həsrətimizin bitməsinə az qalıb. Xalqımızın əhvali-ruhiyyəsi yüksəkdir və bizim qələbə əzmimizi heç nə sarsıda bilməz!

### İndi sınaq anıdır

Bu çətin tarixi günlərdə Azərbaycan bir daha öz dostlarını və ona qarşı qərəzli münasibətdə olanları yaxından tanımaqdadır. Əslində, bəzi məsələlər əvvəldən aydın idi. Məsələn, Azərbaycan - Türkiyə münasibətləri. Bizi bir çox hadisələr bir-birimizə daha da yaxınlaşdırıb. 102 il bundan əvvəl sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakını erməni-bolşevik işğalçılarından azad etmişdir. Və 1918-ci il sentyabrın 15-i bizim üçün dönüş günü oldu. 1915-ci ildə Çanaqqala döyüşlərində minlərlə azərbaycanlı Türkiyəyə, öz doğma qardaşlarına yardımını əsirgəməmişdi. Bu faktlar onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə bir-birinin yanındadır. Pakistan, Əfqanıstan, Ukrayna, Gürcüstan, İtaliya, Litva, Bosniya və Herseqovina və digər ölkələr Azərbaycanın ərazi bütövlüyünü təmin etdiyi bu əks-hücum əməliyyatlarını haqlı sayırlar. Eləcə də bir sıra beynəlxalq təşkilatlar da bizim haqlı olduğumuzu təsdiqləyən bəyanatlarla çıxış edirlər. 27 ildir ki, BMT-nin qətnamələri kağız üzərində qalıb. Bizim sülhsevər xalqımız ötən müddət ərzində aparılan danışıqlara inanır və səbr göstərirdi ki, torpaqlarımız sülh yolu ilə geri qaytarılacaq. Lakin Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" deməsi danışıqların dayanmasına səbəb oldu. Xüsusilə də həmsədr ölkələrdən bəzisinin açıq-aşkar işğalçının tərəfində durması, haqsız olduğu halda onu müdafiə etməsi, əlbəttə ki, məsələnin konstruktiv həll ediləcəyinə inamı daha da azaldır. Bunların hamısı ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, işğalçı ilə işğala məruz qalmış tərəfə eyni münasibətin göstərilməsinin nəticəsidir.

ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın Prezidenti Makronun bəyanatı bir daha göstərdi ki, onların münasibəti vasitəçilik missiyasına uyğun deyil. Qərəzli və birtərəfli mövqe nümayiş etdirən Fransanın ATƏT-in Minsk qrupunun həmsədrliyindən çıxarılması məsələsi müzakirə edilməlidir. Vasitəçi ədalətli və neytral olmalıdır. Azərbaycan öz torpaqlarını işğalçılardan azad etmək üçün beynəlxalq hüquq və prinsiplərə əsaslanır. Azərbaycan Prezidenti ABŞ, Rusiya, Fransa və bir sıra beynəlxalq təşkilatların nəzərinə çatdırırdı ki, Paşinyan hökuməti danışıqlardan qaçır, imtina edir. Nəticədə biz nəyi müşahidə etdik? Biz gördük ki, bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı. Çünki vasitəçilik mandatı tərəf saxlamaq, qərəzli münasibət bəsləmək deyil. Onların mandatı həll yolunu tapmaq üçün şərait yaratmaqdır.

Əlbəttə ki, Azərbaycanın Minsk qrupunun həmsədri olan hər üç ölkə ilə münasibətlərimiz bir çox sahələrdə uğurla inkişaf edir. Elə Fransa ilə də iqtisadi-mədəni istiqamətlərdə əməkdaşlığımız var. Fransa xalqı Prezidenti Makron kimi fikirləşmir. Bu gün baş verən hadisələrlə bağlı Fransa mətbuatında obyektiv münasibəti müşahidə etmək mümkündür. Makron və Fransanın siyasi qurumları seçkilərdə qalib gəlmək üçün orada çox güclü olan erməni lobbisinin dəstəyinə ehtiyac duyur. Ona görə də bu dəstəkdən məhrum olmamaq üçün belə bir bəyanat səsləndirildi.

Burada bir məsələni xatırlatmaq yerinə düşər ki, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş QareginTer-Arutyunyandan fərqli olaraq, azərbaycanlılar II Dünya müharibəsi zamanı Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş, göstərdikləri qəhrəmanlığa görə Fransa dövlətinin orden və medallarına layiq görülmüşlər. Onlardan biri Fransa Müqavimət Hərəkatının iştirakçısı Əhmədiyyə Cəbrayılovun bu yaxınlarda 100 illiyi keçirildi.

### Düşmən sivil vətəndaşlarımızı atəşə tutur

Düşmən şəhər və kəndlərimizi atəşə tutmaqla münaqişənin gedişini dəyişmək, onu daha da genişləndirmək istəyir. Ermənistan silahlı qüvvələri Azərbaycanın Gəncə, Bərdə, Beyləqan, Ağcabədi, Horadiz, Mingəçevir, Xızı, Abşeron və digər şəhər və rayonlarında mülki insanların sıx məskunlaşdığı ərazilərə raketlərlə hücum edir. Bu, barbarlıq və vandalizm aktı, həm də Ermənistanın siyasi-hərbi rəhbərliyinin zəifliyini və təşvişdə olduqlarını göstərir. Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində sentyabrın 27-dən indiyə qədər 41 nəfər mülki şəxs həyatını itirib. 207 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarəti alıb. Onların sırasında uşaq, qadın və yaşlılar var. Bundan başqa, 148 mülki obyekt, 1185 yaşayış evi və 57 çoxmənzilli yaşayış binası yararsız hala düşüb.

Ermənistanın bu təhrikedici və məsuliyyətsiz hərəkətləri beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Bunu nəzərə alaraq, Milli Məclisin rəhbərliyinin dəstəyi ilə Ailə, qadın və uşaq məsələləri komitəsi adından bir sıra müvafiq beynəlxalq təşkilatlara, o cümlədən Azərbaycan-İsveçrə parlamentlərarası dostluq qrupunun rəhbərinə müraciət ünvanlanmışdır.

### Ölkədə vətənpərvərlik hissi olduqca yüksək səviyyədədir

Bu gün ölkəmizdə həqiqətən də vahid bir mövqe var: Xalq-Dövlət-Ordu birliyi. Bu gün hər kəs yaşından, cinsindən, milli, siyasi, dini mənsubiyyətindən asılı olmayaraq, Prezidentin ətrafında sıx birləşib. Hətta ölkədən kənarda yaşayan həmvətənlərimiz, həqiqətin, ədalətin tərəfdarı olan digər ölkələrin tanınmış mütəxəssisləri, politoloqları, tarixçiləri, adi vətəndaşlar da bizi dəstəkləyirlər. Xüsusilə gənclərimiz sosial məkanda aktivdirlər, lakin biz bu fəallığı daha da artırmalıyıq. Baxın, cəbhə bölgəsindən çox uzaqda yerləşən şəhərlərimiz, rayonlarımız, kəndlərimiz gecə-gündüz atəşə tutulur, raket zərbələri nəticəsində dinc əhali həlak olur, yaralanır, evlər, mülki obyektlər dağıdılır. Lakin bu, insanlarımızı qorxutmur, mübarizə əhvali-ruhiyyəsinə mənfi təsir göstərmir. Bu o deməkdir ki, düşmən bizi ruhdan sala, psixoloji təsir göstərə bilməz. Əksinə, düşmən narahat olmağa başlayır, "hardandır, bu güc" -deyə fikirləşir və sarsılır. Cavab çox sadədir: Biz bu gücü, bu inamı cənab Prezident, Ali Baş Komandan İlham Əliyevdən, Birinci vitse-prezident Mehriban Əliyevadan, bütövlükdə dövlətimizdən, ordumuzdan, qəhrəman əsgərlərimizdən, vətən sevgisindən, birliyimizdən alırıq! Əlbəttə ki, bununla bərabər diqqətli olmalıyıq, hər birimiz öz hərəkət və davranışlarımıza, fikirlərimizə məsuliyyətlə yanaşmalıyıq. Ancaq rəsmi məlumatlara inanmalıyıq. Məlumdur ki, ermənilər sosial şəbəkələrdə saxta profillərlə kəşfiyyat-təxribat fəaliyyəti aparırlar. Ona görə də maksimum ehtiyatlı olmalıyıq, feyk xəbərləri fərqləndirməliyik, inanmamalıyıq, paylaşmamalıyıq! Bu informasiya məkanında aparılan müharibədir.





### Azərbaycan müxtəlif xalqların mehriban şəraitdə yaşadığı multikultural ölkədir

Azərbaycanda müxtəlif millətlər yaşayır. Hətta Ermənistan Silahlı Qüvvələri Gəncəyə raket zərbələri endirəndə xəsarət alan mülki şəxslərin arasında erməni əsilli Azərbaycan vətəndaşı da var idi. Bu nəyi göstərir? Cənab Prezidentin də dəfələrlə dediyi kimi, "Azərbaycanda yaşayan hər bir xalqın, milli etnikin nümayəndəsi yaşayır və onlar bu ölkənin vətəndaşıdırlar". Ermənilərin Şuşadakı kilsəyə raket zərbəsi endirməklə xristian-müsəlman münasibətlərini qabardıb öz çirkin niyyətlərinə nail olmaq cəhdləri də baş tutmadı. Bu gün ölkəmizdə yaşayan müxtəlif millətləin, etnik qrupların, azsaylı xalqların nümayəndələri vətənləri Azərbaycan uğrunda mübarizə aparır, canlarını qurban verməyə belə hazırdırlar.

Ermənistan silahlı qüvvələrindən fərqli olaraq, Azərbaycan Ordusu tarixi, mədəni, xüsusilə də dini tikililəri və abidələri hədəfə almır. Hətta Bakı şəhərindəki erməni kilsəsi bir məbəd olaraq qalır və indiyədək ona heç bir xələl gəlməmişdir. Bütün dünya bilir ki, ölkəmiz tarixən milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur.

### Ermənilərin itirdikləri şans

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verərkən qeyd etmişdir ki, "Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi. Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz". Bəli, bizimlə bu tonda danışmağın cavabı döyüş meydanında layiqincə verildi. Ermənistanın təcavüzkar rəhbərliyi erməni analarının göz yaşlarına, cəbhəyə göndərdikləri Ermənistanın günahsız gənc vətəndaşlarının ölümünə görə məsuliyyət daşıyır.

Lakin biz hər zaman sülh tərəfdarı olmuşuq və bu gün də bu yolu əsas götürürük. Biz müharibənin, itkilərin əleyhinə olmuşuq, ona görə neçə ildir gözləyirik ki, sülh yolu ilə problem həll olunacaq. Bu gün də məqsədimiz sülhə nail olmaqdır. Buna görə də Rusiya Federasiyasının çağırışlarına müsbət reaksiya verildi.

Rusiya tərəfinin təşəbbüsü əsasında bu ilin 9-10 oktyabr tarixlərində Moskva şəhərində keçirilən və 11 saat gərgin müzakirələrlə davam edən görüş nəticəsində Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri tərəfindən humanitar atəşkəslə bağlı bəyanat qəbul edilmişdir. Lakin humanitar məqsəd daşıyan bu bəyanatdan sonra Ermənistan silahlı qüvvələri razılaşmanı kobudcasına pozur və Azərbaycana hücumları davam etməkdədir. Həmçinin humanitar yük daşınması adı altında müxtəlif ölkələrdən qaçaq yolla qanunsuz silah daşıyır. Həmin silahlarla dinc əhalini, mülki obyektləri, strateji əhəmiyyət daşıyan binaları hədəfə alır. Ona görə Azərbaycan Ordusu da özünümüdafiə prinsipi əsasında düşmənə adekvat cavab verir.

Biz növbəti dəfə Ermənistanın və onun isterik rəhbəri Paşinyanın riyakar siyasət həyata keçirdiyinin şahidi olduq. Düşmən bir daha göstərdi ki, o münaqişənin həll edilməsində maraqlı deyil. Ermənistanın məqsədi sülh deyil. Azərbaycan bütün hallarda beynəlxalq norma və prinsiplərə öz sadiqliyini nümayiş etdirdiyi halda, düşmən tam əksinə olaraq prosesi ləngitməkdə maraqlıdır.

Oktyabrın 11-də də Azərbaycanın mülki əhalisini atəşə tutması, o cümlədən Gəncə və Mingəçevir şəhərlərinə raket zərbələri endirməsi düşmənin faşizm xislətini və cinayətkar mahiyyətini bir daha ortaya qoyur. Düşmənin silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri Gəncədə yaşayış binalarına raket hücumu təşkil edib, 9 mülki vətəndaş həlak olub, 34 nəfər xəsarət alıb. Həlak olanlara Allahdan rəhmət, yaralılara isə şəfa diləyirik. Qəhrəman Gəncə sakinləri ruhdan düşmür, Ali Baş Komandana, dövlətimizə, ordumuza inanır. Biz növbəti dəfə erməni terror aktı ilə üzləşdik. Nə üçün dünya ölkələri, həmsədr ölkələri susur? Nə üçün bu mənfur, cinayətkar erməni rəhbərliyinə yerini göstərmirlər? Gəncədə erməni terrorunun qurbanı olan bu dinc insanların, uşaq və qadınların, yaşlıların günahı nədir? İşğalçı Ermənistan bu cinayət əməlləri ilə bir daha təsdiq etdi ki, onun üçün beynəlxalq hüququn heç bir norma və prinsipləri əsas deyil və əməl etmək niyyəti də yoxdur.

Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Gəncədə baş verən terrorla bağlı dünya birliyini bu hadisəyə laqeyd qalmamağa çağıraraq qeyd edib ki, "Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər". Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verərkən bir daha bildirdi ki, Azərbaycan verdiyi bütün bəyanatlarına sadiqdir. Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. "Mən həmişə demişəm ki, bizim imzamız da sözümüz kimi əhəmiyyətlidir".

### Biz o torpaqlara qayıdacağıq

İşğaldan azad edilmiş ərazilərimizin görüntülərinə baxırıq, darmadağın edilib. Sual yaranır ki, əgər ermənilər bu torpaqları öz torpaqları hesab edirdilərsə, niyə o əraziləri xarabalığa çeviriblər? Niyə vandalizm törədiblər? Dağıda bilmədiklərini isə, oğurlayıblar. Deməli, onlar da dərk edirlər ki, bu torpaqlarda müvəqqətidirlər. Onun əsl sahibi var - o da Azərbaycan xalqıdır!

Bu gün biz hamımız Qarabağlıyıq, Azərbaycanlıyıq! Hər qarış torpaq bizim üçün müqəddəsdir. Artıq bizim yolumuzu digər işğaldan azad olunmuş kəndlərimiz, qəsəbələrimiz, rayonlarımız gözləyir. Qarabağa qayıdacağıq!

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

## *Aleksandr ŞAROVSKİ:* "Bizim savaşımız haqq savaşıdır"

Azərbaycan torpaqlarının uzun illərdir Ermənistanın işğalı altında qalmasına və düşmənin ardı-arası kəsilməyən təxribatlarına son qoymaq üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Silahlı Qüvvələrimiz əks-hücum əməliyyatına başlamışdır. Artıq onlarla yaşayış məntəqəsi azad edilmişdir.



Bu günlərdə Rusiya paytaxtında əldə olunmuş humanitar atəşkəsə zidd olaraq Ermənistan yenidən mövqelərimizi, habelə şəhər və kəndlərimizi atəşə tutur. Ən dəhşətlisi isə odur ki, erməni vandalları ağır silahları dinc əhaliyə tuşlayırlar, nəticədə dinc sakinlər, o cümlədən qocalar, qadınlar və uşaqlar həlak olur, yaralanırlar.

Vəhşiləşmiş ermənilərin insanlığa sığmayan hərəkətlərinə etinasız qalmaq mümkün deyil. Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Aleksandr Şarovski hesab edir ki, erməni təcavüzünə son qoymağın vaxtı çoxdan gəlib çatmışdı:

- Bəri başdan deyim ki, qələbə bizim olacaq. Azərbaycanın qüdrətli ordusu, ən müasir silahları var. Biz həm də haqq savaşı aparırıq. Ona görə də düşməni diz çökdürməkdən başqa yol yoxdur. Prezidentimizin hər çıxışı bizə böyük ruh yüksəkliyi verir. 30 il idi ki, münaqişənin tənzimlənməsində vasitəçilik edən qurumların nağıllarına qulaq asırdıq. Artıq bütün dünyaya cəsarətimizi və gücümüzü göstərdik.

Mən Azərbaycanda anadan olmuşam. Bura mənim vətənimdir və Azərbaycanda nə baş verirsə, bizlərə də aiddir. Yeri gəlmişkən, mənim həyat yoldaşım rusdur və onun üçün də bu torpaq doğmadır.

Tarixi ədalət əvvəl-axır bərpa olunmalı idi. Torpaqlarımız tezliklə işğalçılardan, dinc əhalimizi bombalayan erməni faşistlərindən və muzdlu quldurlardan təmizlənməlidir. Bu gün xalqımız yumruq kimi birləşib. Azərbaycanın hər bir vətəndaşı milli və dini mənsubiyyətindən asılı olmayaraq, Vətən müharibəsi aparır.

İcmanın sədri hesab edir ki, vaxtilə yəhudilərin Azərbaycanda sığınacaq tapması onlar üçün xoşbəxtlikdir: "Yəhudilər bütün çətin sınaqlara baxmayaraq, Azərbaycanda sığınacaq tapmış, ev-eşiyə yiyələnmiş, övlad sahibi olmuş, karyera qurmuşlar. Onlar bu gözəl məmləkətdə firavan, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşayırlar və harayasa köçmək fikrində deyillər".

Azərbaycanın hərb tarixinə bir çox xalqların və millətlərin nümayəndələrinin adları qızıl hərflərlə yazılmışdır. Onların arasında Şəhidlər xiyabanında uyuyan, milliyyətcə yəhudi olan Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov da var. Aleksandr Şarovski əmindir ki, xalqımız Azərbaycan bayrağını qeyrətlə daşıyan Aqarunov kimi qəhrəmanları yenə görəcək. Tezliklə Azərbaycan bayrağı işğal olunmuş torpaqların hər yerində, o cümlədən Xankəndidə, Şuşada dalğalanacaq!

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

## Rusiyalı jurnalist Ermənistandan qovuldu

### İrəvan rejimi həqiqəti yazanı görmək istəmir

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü başlayandan bəri hadisələrin mətbuatda işıqlandırılması məsələsi həmişə çoxlu suallar doğurub. Dünya KİV-i, bir qayda olaraq, işğalçı tərəfin törətdiyi hərbi cinayətlərin üstündən sükutla keçib, ən yaxşı halda təcavüzkarla təcavüz qurbanını bir-birinə bərabər tutub - guya ki, münaqişə iştirakçılarının hər ikisində günah var.

Media nümayəndələrinin "nəzərindən qaçıb" ki, suveren dövlətin ərazisinə silahlı təcavüz faktı ortadadır, beynəlxalq hüququn elementar normaları ayaq altına atılır, Dağlıq Qarabağ və bitişik rayonlarda etnik təmizləmə aparılır, yüz minlərlə günahsız insan yurd-yuvasından didərgin salınır, onların ev-eşikləri viran edilir, başqa sözlə, Azərbyacan xalqına qarşı, sözün həqiqi mənasında, soyqırımı törədilir.

Mətbuatın özünü bu qədər kor göstərməsinin səbəbini axtarmağa dəyməz. Ermənistana havadarlıq edib onu özgə torpağına təcavüz etməyə həvəsləndirən dövlətlərin özləri də dünya mediasına nəzarət edir, Ermənistanın işğalçılıq siyasətini, ekspansionist planlarını ört-basdır etmək üçün dəridən-qabıqdan çıxırlar. Üstəlik, erməni əsilli jurnalistlər aparıcı mətbuat orqanlarına soxulub Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatmasını əngəlləyirlər.

Bununla belə, az da olsa, vicdanı oyaq qalmış jurnalistlər də var. Onların hər hansı çıxışı dərhal ərköyünləşmiş ermənilərin qəzəbinə tuş gəlir, belələrini sıradan çıxarmaq üçün bütün mümkün vasitələr işə salınır. Bu sıradan son qurban Rusiyanın "Novaya qazeta" nəşrinin müxbiri İlya Azardır. Rusiyalı jurnalistin "günah"ı ondan ibarətdir ki, o, son günlər Dağlıq Qarabağda baş verən hadisələr, Ermənistan ordusunda müşahidə olunan problemlər barədə yerli əhaliyə və hərbçilərə istinadən reportaj hazırlayıb qəzetində dərc etdirmişdir.

Ermənistan Xarici İşlər Nazirliyi "xoşagəlməz" hadisəyə dərhal münasibət bildirib Azarın akkreditasiyasını geri çağırmış, üstəlik, onun Ermənistanda jurnalist kimi fəaliyyət göstərməsini qadağan etmişdir. Azarın öz Facebook səhifəsindən verdiyi məlumata görə, reportaj Ermənistan rəhbərliyinin xoşuna gəlməmişdir, çünki yazı "ermənilərin vətənpərvərlik hisslərinə toxunmuş, azərbaycanlılarda rəğbət doğurmuşdur". Mətbuat işçisinin peşə fəaliyyətinə son qoyulmasına səbəb kimi guya akkreditasiya prosedurunun dəyişməsi göstərilmişdir. Azar qeyd etmişdir ki, hadisələr başlayandan bəri Xarici İşlər Nazirliyi var qüvvəsi ilə jurnalistlərin Qarabağa gedişinin qarşısını almağa çalışmışdır. Jurnalist etiraf etmişdir ki, hazırladığı reportajı Ermənistan və Rusiyada bəzi dostları da bəyənməmişdir: "Halbuki məqalədə yalan yoxdur. Rəsmi şəxslərin fikirləri də orada yer almışdır. İnsanların fikirləri fakt kimi göstərilməmişdir. Hərbi münaqişələrdə jurnalist tərəflərdən hansınısa dəstəkləməməlidir. Reportajda isə oxucunun qulağı və gözü olmalıdır. Reportajın ermənilərin vətənpərvərlik hisslərinə toxunmasını, azərbaycanlıların xoşuna gəlməsini başa düşürəm. Amma bir daha deyirəm ki, bu, sadəcə, reportajdır. Orada insanlar var və onlar fərqli fikirlərini ifadə edirlər".

Söz azadlığının boğulması "demokratik" Ermənistanda adi haldır. Ona görə də rusiyalı jurnalistin başına gəlmiş hadisə gözlənilən idi. Ermənilər öyrəşiblər ki, hamı, o cümlədən media onların çaldığı hava ilə oynamalıdır. Başqa biri fərqli havaya oynayanda isə çığırbağır, hay-küy qopur ki, gəl görəsən.

Əslində Azarı azərbaycanpərəst hesab etmək mümkün deyil. O, illər əvvəl Dağlıq Qarabağa qanunsuz olaraq səfər etdiyinə görə Bakının "qara siyahı"sına düşmüşdür. Sözügedən reportajda azərbaycanlılara rəğbətdən əsər-əlamət yoxdur. Bəs nəyə görə jurnalist sıxma-boğmaya məruz qalır?

Azar Dağlıq Qarabağdan hazırladığı reportajda münaqişə tərəflərinin heç birinə münasibət bildirmir, sadəcə olaraq, gördüklərini yazır. Azərbaycan Ordusunun Xankəndi və Şuşada hərbi təyinatlı obyektləri bombalamasından gen-bol söhbət açır, dağılmış obyektlərin şəkillərini çəkib qəzetdə dərc etdirir, yerli sakinlərin fikirlərini öyrənir, qanunsuz hakimiyyət orqanlarının və silahlı birləşmələrin nümayəndələrinə müraciət edib məlumat alır. Təbii ki, müsahiblər arabir qarşılaşdıqları və müşahidə etdikləri çətinlikləri dilə gətirirlər.

İlk baxışdan elə görünə bilər ki, burada qeyri-adi nəsə axtarmağa dəyməz. Azərbaycan Silahlı Qüvvələrinin düşmən mövqelərini vurması təbiidir. Bombardman nəticəsində erməni hərbçilərinin ölməsi, separatçı-terrorçu rejimin təşviş içində qalması da təbiidir. Güclü Azərbaycan Ordusu qarşısında düşmənin geriləyib mövqelərini əldən verməsi tamamilə məntiqlidir. Müharibənin davam etdiyi bir vaxtda erməni əsgərlərinin silah-sursat təchizatının pisləşməsində, işğalçı qoşunların pərən-pərən düşməsi nəticəsində idarəetmənin zəifləməsində də qeyri-adi heç nə yoxdur.

Hazırda Dağlıq Qarabağda yaranmış vəziyyəti oraya getmədən də təsəvvür etmək mümkündür. Hər iki tərəf döyüşlərin gedişi barədə müntəzəm olaraq rəsmi məlumat verir (hərçənd Ermənistan dezinformasiyanı üstün tutaraq itirdiklərini az göstərir, guya cəbhə xəttində vəziyyəti əsasən nəzarət altında saxladığını iddia edir), üstəlik, sosial şəbəkələrin istifadəçiləri gördüklərini, eşitdiklərini dayanmadan təqdim edir, müvafiq fotoşəkilləri və videogörüntüləri paylaşırlar. Bütün bunları nəzərə alaraq hərbi əməliyyatların gedişini, tərəflərdən hansının irəlilədiyini, hansının gerilədiyini öyrənmək mümkündür.

Odur ki, İrəvan rejiminin jurnalisti cəzalandırması üçün elə bir tutarlı əsas görünmür. Amma tarixi təcrübə də var. Ermənistan rəhbərləri xarici media orqanlarında həmişə "təcavüzkar" Azərbaycan üzündən əzab-əziyyətə düçar olmuş "əzabkeş" erməni xalqının obrazını görüblər. Onlar hesab edirlər ki, rusiyalı jurnalist yazılarında, əvvəllər olduğu kimi, Dağlıq Qarabağda yalnız separatçı-terrorçu rejiminin nümayəndələrinin hədyanlarına yer verməli, Azərbaycanı yıxıb-sürüməli idi. Başqa sözlə, Azar Dağlıq Qarabağda vəziyyəti "Novaya qazeta"nın oxucularına təhrif olunmuş şəkildə, işğalçı ölkənin rəhbərlərinin istədiyi kimi təqdim etməli idi. Amma rusiyalı jurnalist neyləsin ki, Azərbaycanın işğal olunmuş torpaqlarında gözü ilə gördüyünə, qulağı ilə eşitdiyinə inanır, yazı yazanda isə heç kimin yox, yalnız vicdanının səsinə qulaq asır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Humanitar atəşkəsin antihumanist qatilləri





## Gəncənin yeni ziyarətgahı

### Ermənistandan atılan raketin dağıtdığı yaşayış binalarının ərazisinə hər gün yüzlərlə adam gələrək həlak olanların xatirəsinə ehtiram göstərir

*Əvvəli 1-ci səh.*

Xəbər verildiyi kimi, baş verən terror aktı ilə əlaqədar oktyabrın 12-də Milli Məclisin üzvləri ilə birlikdə ölkəmizdə təmsil olunan xarici ölkələrin diplomatik korpusunun nümayəndələri, eləcə də bir çox xarici təşkilatların təmsilçiləri hadisə yerinə baxış keçirmişlər. Onlar burada bir daha erməni vandalizminin şahidi olmuş və əmin olmuşlar ki, Ermənistanın hərbi siyasi rəhbərliyi mülki insanlara qarşı müharibə aparır. Xarici ölkələrin səfirləri bir daha yəqin etmişlər ki, bu vandalizm və barbarlığı heç nə ilə izah etmək mümkün deyil.

Əraziyə faciədə həlak olan 10 nəfərin adlarını və təvəllüdlərini əks etdirən lövhə vurulmuşdur. Siyahıda bir ailədən üç nəfərin - Ceyhun Ələsgərovun, Təranə Ələsgərovanın və Ülvi Ələsgərovun adları var. Başqa bir ailədən isə ata və ana həyatlarını itirmiş və nəticədə onların iki körpə balası valideynsiz qalmışdır.

Terror aktı nəticəsində xəsarət alan 34 nəfərin müalicəsi hazırda davam edir. Gəncə şəhər təcili tibbi yardım xəstəxanasından aldığımız məlumata görə, xəsarət alanların vəziyyəti sabitdir. 30 nəfər ambulator, 4 nəfər stasionar şəraitdə müalicə olunur.

Hazırda gəncəlilər baş verən faciəyə görə narahatlıq keçirsələr də, nikbindirlər. Bunu onlardan aldığımız müsahibələrdə də hiss etmək mümkündür. Söhbət zamanı dedilər ki, ermənilərin həyata keçirdikləri vandalizm aktı onları qətiyyən təəccübləndirmir. Çünki düşmənin nə qədər aciz, qəddar və vəhşi olduğu hər kəsə yaxşı məlumdur. Hadisə şahidlərinin sözlərinə görə, həmin gecə onlar doğrudan da, vahimə yaşayıblar. Faciə şahidi Şərqiyyə Daşdəmirova deyir ki, elə bil yerlə göy birləşmişdi: "İlk anda heç kim nə baş verdiyini anlamadı. Sonra hər şey məlum oldu. Mənim evim də uçmuşdu. Şükür etdim ki, ailə üzvlərim arasında həlak olan yoxdur".





Törədilən terror zamanı yaxınlıqdakı ticarət və iaşə obyektlərinə də ziyan dəyib. Mağaza sahibi Aynurə Əliyeva ilə söhbət zamanı məlum oldu ki, onun da obyektinin bir hissəsi uçub. Deyir ki, düşmənin nə qədər qaniçən, vəhşi olduğunu yaxşı bilirik. Elə insanların sıx yaşadığı əraziyə raket atmaları bu vəhşiliyin növbəti təsdiqidir.

Hadisə zamanı ziyan çəkənlərdən biri də Çimnaz Həsənovanın ailəsidir. Onun mənzili raketin düşdüyü yerdən bir qədər aralı olsa da, evi dağılıb. O, baş verən faciəni belə xatırlayır: "Yenicə yatmaq istəyirdik. Qəflətən yer-göy lərzəyə gəldi. Evimizdə olan bütün əşyalar yerə töküldü. Sonra qışqırtılar eşitdik. İnsanlar vahimə içərisində idi. Yerimizdə donub qalmışdıq. Nə edəcəyimizi bilmirdik. Özümüzə gəldikdən sonra küçəyə çıxdıq və gördük ki, hər tərəf dağılıb".

Bu ərazidə yaşayan Akifə Bayramova isə deyir ki, yaxınlıqda "Qələbə parkı" yerləşir. İnsanlar boş vaxtlarında orada istirahət edirlər. Xoşbəxtlikdən hadisə gecə vaxtlarında olduğundan parkdakı dağıntılar zamanı xəsarət alan olmayıb.

Namiq Yusifov da bu ərazidə yaşayır: "Ağlımıza da gətirməzdik ki, humanitar atəşkəsə imza atan ermənilər bu vəhşiliyi törədərlər. Lakin biz qətiyyən qorxmuruq. Prezidentimizə və ordumuza arxalanaraq möhkəm dayanmışıq. Heç bir terror aktı bizi sarsıda bilməz. Lazım gəlsə, bütün Azərbaycan ayağa qalxıb düşmənə layiqli cavab verə bilər. Biz inanırıq ki, tezliklə Qarabağ işğaldan azad olunacaq".

Mərmi düşən yerlə üzbəüz yerləşən stomatoloji kabinetə də ciddi ziyan dəyib. Burada olan bütün avadanlıqlar hamısı sıradan çıxıb. Öyrəndik ki, burada işləyən həkim ciddi xəsarət almış, həyat yoldaşı isə həlak olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Onlar valideynlərini itirsələr də, kimsəsiz qalmadılar





*Əvvəli 1-ci səh.*

Bir körpə düşünün  Erməni raketilə partladılmış evinin dağıntıları arasından xilas edilən, xəsarət alan, qorxu və ağrıdan, çığırmaqdan, ağlamaqdan ürəyi quş kimi çırpınan körpə... Xəstəxanada gözü ata-anasını, nənəsini axtarır, onlara sığınıb təskinlik tapmaq, anasının qoynuna girib sakitləşmək, özünü güvəndə hiss etmək istəyir. Amma yanında doğmalarından heç kimi görmür. Qalıb tək-tənha...

Bu qızcığazın adı Nilaydır. Oktyabrın 11-də Ermənistandan Gəncəyə atılan raket zərbəsindən dağılan binada yaşayırdı. Atası Adil Əliyev və nənəsi elə bu terror aktı baş verən gecə həlak oldu. Anası Günay Əliyeva isə cəmi bir gün xəstəxanada ölümlə həyat arasında mücadilə apara bildi. 28 yaşlı qadın reanimasiyada bircə gecə dözdü və oktyabrın 12-də əbədiyyətə qovuşdu... Beləcə, erməni raketinin atasız qoyduğu körpə həm də anasız qaldı...

❖ ❖ ❖

Bir şəkil təsəvvür edin... Erməni vəhşilərinin Gəncədə törətdikləri soyqırımın, dinc əhaliyə qarşı törətdikləri qətliamın, terror aktının acı və real mənzərəsi, xain düşmənin içüzü...

Bir şəkil təsəvvür edin... Öndə ata-anasının qara çərçivəyə salınmış fotosunu aparan çarəsiz yeniyetmə qızın və bu ağır itkiyə dözməyib ağlayan azyaşlı oğlanın şəkli...

Bir şəkil təsəvvür edin... Gecə yatdıqları yerdə düşmən zərbəsilə qətlə yetirilən valideynlərini son mənzilə yola salan övladların kədərli görüntüsü...

16 yaşlı Sevil ilə 8 yaşlı qardaşı Hüseynin valideynləri Anar və Nurçin Əliyevlər erməni faşistlərinin Gəncəyə atdıqları raket hücumu nəticəsində həlak olublar. Xain düşmən zərbəsilə daha bir ailə yarım qalıb, daha bir ocaq sönüb. Bu uşaqlar tək valideynlərini yox, həm də bu həyatda ən böyük arxa-dayaqlarını, güvən yerlərini, qayğısız uşaqlıqlarını, atalı-analı arzularını, xəyallarını da itiriblər...

"Gəncəyə olunan raket hücumu nəticəsində hər iki valideynini itirmiş bu məsum uşaqların gözlərində çox böyük bir acı var". Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev öz "Twitter" hesabında Gəncənin işğalçı Ermənistan tərəfindən bombalanması zamanı ata-anasını itirən və onları son mənzilə yola salan bu uşaqlarla bağlı paylaşımında qeyd edib.

Bəli, bu uşaqların gözlərində acı, kədər, çarəsizlik gizlənib. Bu uşaqların üzlərində müharibəyə, mənfur düşmənə nifrət yazılıb. Amma bu uşaqların simasında həm də dözüm, əyilməzlik, məğrurluq var. Çünki bilirlər - ata-analarının, şəhidlərin qanı yerdə qalmayacaq, Azərbaycan Ordusu yeni-yeni qələbələrlə düşməndən qisas alacaq. İnanırlar ki, valideynlərini itirsələr də, xalq onları tək qoymayacaq, sahib çıxacaq.

Erməni faşistləri hər zaman olduğu kimi, bu dəfə də "güclərini" günahsız insanlara göstərməyə çalışdılar. Mülki əhaliyə qarşı terror aktı törətməklə xalqın gözünü qorxutmağa, inamını sarsıtmağa, döyüş, qələbə əzmini qırmağa, ruh düşkünlüyü yaratmağa cəhd etdilər. Amma hesaba almadılar ki, bu xain zərbələr aramıza nifaq salmaq əvəzinə, əksinə, xalqı bir-birinə daha da yaxın edir, bağlayır. Bəli, o uşaqlar valideynlərini itirdilər, amma kimsəsiz qalmadılar. Bir ata-ana itirib, yüzlərlə ata-ana, bacı-qardaş qazandılar. Bir neçə gündə ailə durumundan, maddi vəziyyətindən asılı olmayaraq onlarca insan körpə Nilayı, Sevil və Hüseyni öz himayəsinə götürmək arzusunu dilə gətirdi.

Bax, budur Azərbaycan xalqının siması, ürəyi, ruhu...

Budur bizim milli kimliyimiz, həmrəyliyimiz, birliyimiz...

Budur bizim qələbəmiz, zəfərimiz...

Düşmən sevinməsin qoy. Biz bir ölsək də, min dirilirik!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Tərtərdə 100-dən çox ev dağılıb, 500-dək evə ziyan dəyib





Azərbaycan Ordusunun həmlələri qarşısında aciz qalan düşmən cəbhəboyu ərazilərdəki yaşayış məntəqələrini, mülki insanları ağır artilleriyadan atəşə tutmaqda davam edir. Ermənistan yaşayış məntəqələrini atəşə tutmaqla müharibə cinayəti törədir, mülki insanlara qarşı terror vasitələrindən istifadə etdiyini və beynəlxalq humanitar hüququ kobudcasına pozduğunu nümayiş etdirir.

AZƏRTAC xəbər verir ki, ilkin məlumata görə, sentyabrın 27-dən bəri Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində sakinlərə məxsus 100-dən çox ev dağılıb, 500-dək evə, 51 çoxmənzilli yaşayış binasına, 60 yardımçı tikiliyə, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Mülki şəxslər arasında ölən və yaralananlar var.

Erməni vəhşiliyinin izlərini fotolarda təqdim edirik.











## Ağcabədidə böyük tələfat



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Ağcabədi rayonunun ərazisini atəşə tutur. Rayonun yaşayış məntəqələrinin ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində sakinlərə məxsus evlərə, yardımçı binalara və digər obyektlərə, elektrik və qaz təsərrüfatlarına ziyan dəyir.

AZƏRTAC xəbər verir ki, Ermənistan hərbçilərinin sentyabrın 27-dən başlayan artilleriya atəşləri nəticəsində ilkin məlumata görə, Ağcabədi rayonunun yaşayış məntəqələrində 11 ev tamamilə dağılıb, 150-yə yaxın evə, 1 uşaq bağçasına, 1 məscidə və 1 kitabxanaya ziyan dəyib.

Erməni vəhşiliyinin izlərini rayonun kəndlərindən birində çəkilmiş fotolarda təqdim edirik.







# Azərbaycan tarix yazır: yolumuz Qarabağadır

## Azərbaycan Prezidenti və Azərbaycan Ordusu 30 ilə yaxın davam edən status-kvonu 10 gündə dəyişdi

... 30 il əvvəl Qarabağdan bələkdə gəlmiş körpə oğlanlar bu gün Qarabağa əldə silah, müzəffər Ordunun xilaskar əsgəri kimi qayıdır.

... Bir ana 30 ildir yanında gəzdirdiyi boğçasını açır, titrəyən barmaqları ilə oradan bir açar çıxarıb oğlanlarına uzadır: Qarabağdakı evimizin açarıdır. Gedin, qapımızı açın.

... Kişilər ağlamaz deyirlər. Mənim yaxından tanıdığım 70 yaşlı məcburi köçkün Adil müəllim ömründə iki dəfə ağlayıb: 27 il əvvəl Cəbrayıldakı evini qoyub gələndə və 27 il sonra doğma yurdunun azad edilməsi xəbərini eşidəndə. Biri kədərdən doğan göz yaşları idi, o biri sevincdən doğan göz yaşlarıdır.

Aşağıdakı qeydlərim bu duyğusal həyat epizodlarının, Prezident İlham Əliyevin bir neçə gün əvvəl xalqa növbəti tarixi müraciətinin, "Əl-Cəzirə", "Euronyus", "CNN International", "Sky Nyus", "Əl-Ərəbiyə", "TRT Haber", "CNN Türk", "Haber Qlobal", "Rossiya-1", Rusiyanın "Pervıy kanal" və digər telekanalların müxbirlərinin suallarına məntiqli, tutarlı arqumentlərə əsaslanan cavablarının və xalqın ürəyindən xəbər verən bəyanatlarının təsiri altında yazılıb. Yəqin, oxucu bəzən emosiyaya qapılmağımı da başa düşər və bunu bağışlayar.

❖ ❖ ❖

Sentyabrın 27-dən təcavüzkar Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı və Ordumuzun sürətli əks-hücuma keçməsi barədə xəbərlərin gəldiyi ilk gündən əlim klaviaturaya uzanır, içimdə yığılıb qalmış fikir və düşüncələri, şahidi olduğum hadisələri paylaşmaq ehtiyacı duyuram. Qüdrətli ordumuzun bugünədək qazandığı uğurlara əsasən hadisələrin inkişafının ehtimal edilən ssenarilərini proqnozlaşdırmaq bizim peşənin xüsusiyyətindən irəli gəlir. Amma mən bunları bir kənara qoyub oxuculara, ilk növbədə, qəlbimdə aşıb-daşan sevinc və qürur hisslərini, emosiyalarımı çatdırmaq istərdim.

Bütün həyatını jurnalist peşəsinə həsr etmiş bir insan kimi, bəlkə də ilk dəfədir qeyri-adi vəziyyətlə üzləşmişəm: kompüterin qabağına keçib baş verənlər barədə düşüncələrimi yazmağa başlayandan bir-iki saat sonra əl saxlamalı oluram. Hadisələr o qədər sürətlə dəyişir, cəbhədən o qədər qaynar xəbərlər alırıq, teleqram kanallarının səsləri o qədər çox eşidilir ki, monitordakı sətirlər, bütöv abzaslar bir-iki saatdan sonra "köhnəlir" və hər şeyi təzədən başlamaq lazım gəlir. Bu, qırx beş illik jurnalist təcrübəmdə bəlkə də heç vaxt qarşılaşmadığım fenomendir.

Qeyri-adi günlər yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinin rəhbərliyi, rəşadətli Ordusunun iştirakı ilə şanlı tarix yazmaqdadır. Bu günlərin hər saatı, hər dəqiqəsi bir dastandır.

Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev münaqişənin sülh yolu ilə həllindən başqa yol yoxdur deyənlərin cavabını verdi: Var başqa yol, - dedi və dediyini etdi. Uzun illərdir status-kvonun qəbuledilməzliyini deyənlərə, amma heç bir iş görməyib işğalçının başına sığal çəkənlərə göstərdi ki, məsələni necə həll etmək olar. Ali Baş Komandanın əmri ilə döyüşə atılan müzəffər Ordumuz 30 ilə yaxın davam edən status-kvonu 10 günün içərisində dəyişdi. İndi nə status-kvo var, nə də təmas xətti. Bunu xalqımızın iradəsi ilə Ali Baş Komandan, Azərbaycan Ordusu döyüş meydanında etdi.

Əks-hücum əməliyyatlarının başladığı ilk gündən "atəşi dayandırın, danışıqlara başlayın" deyən supergüclərin, fövqəldövlətlərin aramsız təzyiqlərinə mərd-mərdanə sinə gərən Prezidentimiz nəyi necə və nə vaxt etmək lazım gəldiyini bilir. Bu, Qarabağ uğrunda döyüşlərin gedişində bir daha təsdiqləndi. Ali Baş Komandan İlham Əliyev təkbaşına bir ordunun işini gördü: həm savaş meydanında, həm diplomatiya və siyasi platformalarda. Bir vaxt "Qarabağ Ermənistandır" deyən, Şuşada ədəbazcasına rəqs edərək acıq verən, bizi təhqir edən paşinyanlara öz yerini göstərdi. Paşinyanı - bu riyakar, avantürist, siyasətdən uzaq küçə adamını rəzil duruma saldı. Onu yalvarmağa məcbur etdi: indi çıxıb desin, "Qarabağ Ermənistandır, görək necə deyir".

Sorosun pulları ilə hakimiyyətə yiyələnən Paşinyan erməni xalqını da özü kimi rəzil etdi, yerə vurdu, alçaltdı.

İlham Heydər oğlu öz qətiyyəti, cəsarətli və müdrik qərarları ilə dünyanın gözündə bir daha yüksəldi, özü ilə bərabər xalqımızın şərəfini, ləyaqətini də göylərə qaldırdı.

Milli maraqlarımızın müdafiəsində sonadək dayanan Prezidentimizin olması bizim böyük xoşbəxtliyimizdir, Qarabağın xilasının qarantıdır. Xalqımız öz Prezidentinə inanır. Bu inama arxalanan, nəyi necə və nə vaxt etmək lazım gəldiyini yaxşı bilən İlham Əliyev Ermənistana son şans verdi və sözünü dedi: Çıxın bizim torpaqlardan, çıxın, öhdəlik götürün, danışıqların formatına qayıdın. Biz nə desək o olacaq və onlara şans veririk ki, torpaqlarımızdan sülh yolu ilə çıxsınlar, rədd olub getsinlər. Biz nə yolla olursa-olsun, bu torpaqlara qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Son hadisələr düşmənə də, bütün dünyaya da göstərdi ki, bu şərəfli, namuslu xalqın heysiyyəti ilə oynamaq, onu təhqir etmək olmaz. Azərbaycanın Prezidenti, Azərbaycan xalqı bunu paşinyanlara bağışlaya bilməzdi və bağışlamadı.

Bu gün öz Liderinin ətrafında yumruq kimi birləşən, misli görünməmiş həmrəylik nümayiş etdirən Azərbaycan xalqı doğma torpağı uğrunda ölüm-dirim savaşına qalxıb. Bu taleyüklü məqamda 10 milyon qəlb bir ürək kimi vurur. Bu, sözün əsl mənasında, Vətən müharibəsidir. Azərbaycan əsgəri öz canı-qanı bahasına düşməni Vətən torpaqlarından qovub çıxarır. Düşmən mərmisinin evini başına uçurduğu Ana, oğlu şəhid olmuş Ana başını dik tutaraq deyir: Təki Vətən yaşasın!

Adi hallarda sağlam düşüncəli heç bir insan müharibə istəməzdi. Lakin sülhsevər Azərbaycan xalqı bu müharibəyə işğalçılıq siyasətindən əl çəkməyən Ermənistan rəhbərliyi, beynəlxalq daşnak ideoloji mərkəzləri tərəfindən zorla cəlb olunub, buna məcbur edilib. Bizi buna dünyanın biganəliyi, beynəlxalq təşkilatların, Minsk qrupu adlandırılan vasitəçilərin ötür-ötür oyunu vadar edib. Otuz ildir ki, təcavüzkarla təcavüzə məruz qalan eyni tutulur, dünya 30 ildir ki, bu ədalətsizliyi, yurdu yağmalanmış bir milyon azərbaycanlının ağrı-acısını soyuqqanlılıqla seyr edir. "Bəsdir, yetər" deyib ayağa qalxan xalqın bu savaşı tarixi ədalətin bərpasına yönəlmiş döyüşdür, beynəlxalq hüququn ona verdiyi haqdır.

Prezidentimiz beynəlxalq kürsülərdən, BMT tribunasından dönə-dönə bəyan edirdi ki, işğala son qoymaq, təcavüzkarı buna məcbur etmək lazımdır. Münaqişənin nizamlanmasına vasitəçilik edən Minsk qrupu fəaliyyət göstərdiyi ötən 26 ildə bir addım atdımı? Atmadı. Yığışdılar, danışdılar və dağılışdılar. BMT Təhlükəsizlik Şurasının 27 il əvvəl qəbul etdiyi dörd qətnamə bu gün də kağız üzərində qalır. Ermənistanın siyasi rəhbərliyinə küçədən gəlmiş birisi "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinin üstündən xətt çəkdi.

Qudurğan düşmənə "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri ilə cavab verən Prezidentimiz dünyaya səsləndi: Siz qarışmayın, öz taleyimizi özümüz həll edərik.

"Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir" - görün bunu kim deyir: münaqişənin nizamlanması üçün vasitəçilik mandatı verilmiş Minsk qrupunun üç həmsədrindən biri olan Fransanın dövlət başçısı. Görünür, Makron ya tarixdən bixəbərdir, ya da Fransadakı erməni lobbisinin çaldığı havaya oynayır. Prezidentimiz ona da öz kəskin cavabını verdi, bu əcaib sözünə görə Azərbaycandan üzr istəməyə çağırdı. Makron kimiləri tək deyil. Müharibə Ermənistanda yox, Azərbaycan torpağında gedir. Yeri gəlmişkən, Rusiya Prezidenti müsahibələrinin birində bunu xüsusi vurğuladı: müharibə Ermənistanda getmir.

Bu iki fərqli yanaşma fonunda üçüncü ölkələrdən olan, öz beyinlərini işlətmək əvəzinə ermənilərin uydurduğu "Azərbaycanın təcavüzü" barədə tezisi tez-tez təkrarlayan boşboğazlardan soruşmaq lazımdır: "Azərbaycanın Qarabağa təcavüzü" barədə danışmaq "Fransanın Marselə qarşı təcavüzü", yaxud "Almaniyanın Bavariyaya hücumu" barədə cəfəngiyata bənzəmirmi?!

❖ ❖ ❖

Münaqişə, müharibə və dünyanın buna yanaşması barədə bu müxtəsər düşüncələrdən sonra bilavasitə bağlı olduğum sahəyə qayıtmaq istərdim. Mənim üçün istinad nöqtəsi Azərbaycan Prezidentinin CNN-Türk telekanalına müsahibəsində səsləndirdiyi fikirlər oldu. Dövlətimizin başçısı uzun illərdir Azərbaycana qarşı aparılan qara təbliğatdan danışdı və bunun səbəblərini açıqladı. Xüsusən biz media işçiləri bunun bilavasitə şahidiyik. Aramsız qarayaxmalara, şər və böhtanlara tutarlı cavab veririk. Azərbaycan reallıqlarından, Qarabağ, Xocalı həqiqətlərindən bəhs edən materialları əməkdaşlıq etdiyimiz dünya KİV-ində bütün mümkün vasitələrlə yaymağa çalışırıq.

İndi, son hadisələr başlayan vaxtdan qara təbliğatın yeni dalğası baş qaldırıb. Bəzi ölkələrin bu işdə marağı olan dairələri, media orqanları Azərbaycanın imicini ləkələmək üçün olmazın yalanlar uydurur, informasiya məkanında münaqişə ilə bağlı yanlış rəy formalaşdırmağa aramsız cəhdlər edirlər. Prezidentin qeyd etdiyi kimi, bizə ünvanlanan bu ittihamlarla təkbaşına mübarizə apararaq müəyyən uğurlar əldə etmişik. Ancaq bizim də imkanlarımız məhduddur. Bir çox hallarda bizim səsimiz eşidilmir. Beynəlxalq media qurumları daha çox Ermənistanın tərəfini tutur, münaqişə ilə bağlı yalan məlumatlar yayırlar. Yaxşı ki, bu çətin gündə qardaş Türkiyə, eləcə də onun bütün KİV-i bizim yanımızdadır, səslərini bizim səsimizə qataraq dünyaya Azərbaycanın ədalətli mübarizəsi ilə bağlı həqiqətləri çatdırırlar.

Bu gün bir sıra KİV Paşinyanın hərbi əməliyyatlarda guya Türkiyə F-16-larının, türk hərbçilərinin iştirakı barədə yalanlarını tirajlayır. Azərbaycan və Türkiyə qardaş ölkə, üstəlik, yaxın qonşulardır. Ulu Öndərimiz bu qardaşlığı bir neçə sözlə belə ifadə edib: "Bir millət, iki dövlət". Türkiyənin belə ağır gündə bizə dəstək verməsi tamamilə təbii və başa düşüləndir. Amma o da təkzibolunmaz həqiqətdir ki, biz öz torpaqlarımızı özümüz azad edirik. Azərbaycan Ordusu düşmənə istənilən cavabı verməyə qadirdir və verir.

Ermənistana gəlincə, ona hər cür dəstək verən, silah ötürən çoxdur. Bu gün hamıdan artıq canfəşanlıq edən Fransanı götürək. Bəlkə ermənilər və fransızlar da "bir millət, iki dövlətdir", bəlkə qonşudurlar? Parislə İrəvan bir-birindən 4500 kilometr aralıdadır, avtomobillə azı 50 saatlıq yoldur. Türkiyədən isə Azərbaycana əl uzatsan çatar.

Bizim yaxınlığımız, türk qardaşlarımızın "Azərbaycan tək deyil" deməsi Ermənistanı həm qıcıqlandırır, həm də qorxuya salır. Türkiyə ordusu bu gün NATO-nun ən güclü iki ordusundan biridir. Türkiyə modern silahlar istehsal edir. Biz Türkiyədən də, başqa ölkələrdən - Rusiyadan, Ukraynadan, İsraildən də silahı pulla alırıq. İşğalçı Ermənistana isə silahı pulsuz verirlər. İqtisadiyyatı çökmüş, dilənçi vəziyyətinə düşmüş Ermənistanın silah almağa pulumu var? Prezidentimiz müsahibələrindən birində bu məqamı vurğulayaraq dedi: Bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, bu münaqişə çoxdan çözülərdi.

Bu gün cəbhə xətti şərti termindir. Bu gün bütün Azərbaycan cəbhədir - bütün oğlu-qızı, cavanı-yaşlısı ilə. Hərə öz sahəsində Vətən üçün, böyük Qələbəmiz naminə var qüvvə ilə çalışır. Bu taleyüklü anlarda jurnalist də bir əsgər, söz də bir silahdır. Ermənistan bizə qarşı həmişə olduğu kimi, bu dəfə də ikinci cəbhə - informasiya cəbhəsi açıb. Ermənipərəst media (belə media çox yerdə var - Fransada, Almaniyada, ABŞ-da, Rusiyada... Okeanın o tayında da, bu tayında da) olmazın yalanlar və böhtanlar tirajlayır, Azərbaycana iftiralar atır, gözgörəsi tərəfkeşlik edir. Həmişə belə olub. İndi isə xüsusi fəallıq və canfəşanlıq görürük. Qoy olsun, yalan ayaq tutsa da yeriməz.

Bu günlər Azərbaycan mediası siyasi yönümündən və mövqeyindən asılı olmayaraq, görünməmiş həmrəylik nümayiş etdirir, haqq işimizə hamılıqla informasiya dəstəyi verir. AZƏRTAC-a gəlincə, biz bütün mümkün vasitələrlə Azərbaycanın ədalətli savaşı barədə materialları dünya informasiya məkanına çıxarmağa çalışırıq. Agentliyimiz 35 ölkədən 44 agentliyi öz sıralarında birləşdirən Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidentidir, eləcə də Dünya Xəbər Agentlikləri Konqresində (NAWC) fəal təmsil olunur (yeri gəlmişkən, Bakı 2016-cı ildə hər iki mötəbər beynəlxalq təşkilatın forumlarına evsahibliyi edib). Bizim tərəfdaşlarımız sırasında Çinin Sinxua, Rusiyanın TASS, Türkiyənin Anadolu, Cənubi Koreyanın Yonhap, Yaponiyanın Kyodo, Malayziyanın Bernama kimi informasiya nəhəngləri var. Tərəfdaş KİV-dən danışarkən, dünyanın müxtəlif guşələrində 100 milyondan çox oxucusu olan ingilisdilli "Chine Daly" qəzetinin adını da xüsusi qeyd etmək istərdim.

Cəbhə xəttində əməliyyatların aktiv fazasında bu və digər mötəbər informasiya agentlikləri AZƏRTAC-a istinadla çoxsaylı xəbərlər, foto və videolar yayımladı və yayımlamaqda davam edir. Bundan əlavə, xarici ölkələrdəki müxbir məntəqələrimizin xətti ilə yerli mətbuatda Ermənistan rejiminin uydurduğu yalanlara, böhtanlara cavab olan yazılar dərc edilir. Eyni zamanda, AZƏRTAC üzvü olduğu bütün beynəlxalq və regional media qurumlarının və tərəfdaş informasiya agentliklərinin rəhbərlərinə müraciət ünvanlayaraq, onları Ermənistanın Azərbaycana təcavüzünü və regionda baş verən hadisələri obyektiv, qərəzsiz işıqlandırmağa, haqqın və ədalətin tərəfində dayanmağa çağırıb.

❖ ❖ ❖

Azərbaycan müharibə istəmirdi. Elə buna görə də Ulu Öndərimiz Heydər Əliyev də, Prezidentimiz İlham Əliyev də 30 ildir çalışırdılar ki, münaqişə danışıqlar yolu ilə, sülhlə çözülsün. Mən Ulu Öndərimizin tarixi səfərlərini əvvəldən sonadək işıqlandıran jurnalist kimi şəxsən şahidəm: Heydər Əliyev Qarabağ probleminin qan-qadasız, danışıqlar masası arxasında həll olunması üçün son dərəcə gərgin iş aparır, maksimum səylər göstərirdi. Bu, uzun söhbətin mövzusu olduğundan iki məqamı xatırlatmaqla kifayətlənməyə məcburam.

**Ki-Uest, 2001-ci il 3 aprel.** Minsk qrupu həmsədrlərinin vasitəçiliyi və dövlət katibi Kolin Pauelin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentləri tam yeni formatda danışıqlar apardılar. Ulu Öndərimiz bu görüşdə tarixi bəyanatla çıxış etdi, münaqişənin tənzimlənməsinə mane olan səbəbləri göstərdi, Dağlıq Qarabağ həqiqətlərini çatdırdı, həll yollarına dair öz mülahizələrini söylədi. Bəyanatdan kiçik bir sitat gətirmək yerinə düşər: "Bu gün dünyada bir dövlətin başqa bir dövlətin ərazisini işğal etməsi, orada etnik təmizləmə aparması kimi ikinci bir hala rast gəlmək mümkün deyil. Təəssüf ki, dünya birliyi bu faciəni sükutla seyr edir... Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticəni vermir".

Heydər Əliyevin bu sərt bəyanatı, qətiyyətli mövqeyi və haqlı iradı müəyyən canlanma yaratdı.

Xatırlayıram, Ulu Öndər Ki-Uestdən Vaşinqtona yollandı. ABŞ Prezidenti Corc Buşun burada Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Koçaryan ilə ayrı-ayrılıqda görüşləri oldu. ABŞ-ın yüksəkvəzifəli şəxslərinin Ağ evdə keçirilən brifinqdə bu görüş və danışıqların uğurundan necə ağızdolusu danışdıqları da yaxşı yadımdadır. Bundan bir ay sonra Ulu Öndərimiz Fransaya səfər etdi.

**Paris, 2001-ci il 5 mart.** Yelisey sarayında Fransa Prezidenti Jak Şirakın iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Koçaryan arasında növbəti danışıqlar oldu. Üç saatdan çox davam edən danışıqlardan sonra hər üç prezident birgə mətbuat konfransı keçirdi. Təfərrüata varmadan onu deməklə kifayətlənirəm ki, jurnalistlərin suallarını cavablandıran Fransa Prezidenti Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm irəliləyişin əsasının qoyulduğunu vurğulayaraq belə dedi: "Həqiqətən ümidvar olduğumu bildirmək istərdim ki, bu münaqişə cari ilin sonunadək həll ediləcək və onun qarşılıqlı surətdə məqbul həlli tapılacaq".

Həqiqətən də Ki-Uest və Paris danışıqları böyük ümidlər yaratmışdı. 2001-ci ilin yazında münaqişənin həllinə çox yaxınlaşılmışdı. Lakin sonradan sanki hansısa gözəgörünməz əl çarxı başqa səmtə yönəltdi.

O vaxtdan az qala 20 il keçir. Corc Buş getdi, Barak Obama gəldi, Obama getdi, Donald Tramp gəldi. Jak Şirak getdi, Nikola Sarkozi gəldi, Sarkozi getdi, Fransua Olland gəldi, Olland getdi, Emmanuel Makron gəldi. Münaqişə isə həll olunmamış qaldı...

Prezident İlham Əliyevin də münaqişəni danışıqlar yolu ilə həllinə göstərdiyi aramsız səylərin şahidiyik. Müəyyən mərhələdə həll yolu tapılmış kimi görünürdü. Məsələn, tərəflərin razılaşdığı Madrid prinsipləri işğal olunmuş Azərbaycan torpaqlarının mərhələli şəkildə qaytarılmasını nəzərdə tutur. Biz ümidlə bu prinsiplərin işə düşəcəyini gözləyirdik. Lakin Paşinyan gəldi və 30 il davam edən bütün danışıqların, eləcə də hər iki tərəf üçün məqbul olan Madrid prinsiplərinin üstündən xətt çəkərək dedi: biz Azərbaycana bir qarış da torpaq qaytarmayacağıq. Bunun ardınca Ermənistanın məlum hərbi təxribatları başlandı və Azərbaycanın silaha əl atmaqdan başqa yolu qalmadı.

Yəqin heç kəs mübahisə etməz ki, indi planetimizdə yaşayan bütün insanların şahid olduqları hadisələr həqiqətən tarixi əhəmiyyət daşıyır. Azərbaycanın lideri, Azərbaycan xalqı tarix yazmaqda davam edir - Prezidentimiz öz qətiyyəti, müdrik siyasəti və sərkərdəliyi, xalqımız möhtəşəm birliyi və qələbə əzmi, əsgərimiz öz qanı-canı və silahı ilə yazır bu tarixi. Jurnalistlərimizin, reportyorlarımızın üzərinə isə bu həqiqət anlarını salnaməmələşdirmək borcu düşür.

❖ ❖ ❖

Münaqişənin həllini bu qədər uzatmaqda hansı məqsədlər güdülürdü? Düşünürdülər ki, yaşlı nəsil dünyadan köçəcək, onları əvəz edən, bu yerləri heç vaxt görməyən yeni nəsil Qarabağı unudacaq, yaxud zaman Xocalını unutduracaq. Beləcə, hər şey özözünə sakitləşəcək. Əksinə, zaman onların bu düşüncələrində, hesablamalarında yanıldıqlarını göstərdi.

Bu yerdə Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanı yada düşür. Heç bir imperiya, heç bir işğalçı, yadelli qüvvə nə qədər ağlagəlməz üsullara əl atsa belə, xalqları manqurtlaşdırmağa nail olmayıb. Yeni nəsil Qarabağ görməyib, olsun, axı Vətən, torpaq sevgisi insana gözlə keçmir. Bu, qan yaddaşıdır, tarixi yaddaşdır və onu heç bir vəchlə silmək olmaz. Qarabağı görməyən yeni nəsil Qarabağ naminə ölümə getməyə hazırdır və gedir. Qarabağ kəlməsi hətta məktəbyaşlı uşaqların dilinin əzbəridir.

Yuxarıda bəhs etdiyimiz 30 illik mənzərə qəflətən (əslində həm də gözlənilən idi) dəyişdi. Özü də buna rəvac verən işğalçılar, status-kvonun dondurulmasında maraqlı olanların özləri oldu. Onlar hansısa başqa ölkələrdən "ev-eşiksiz qalmış yoxsul qohumlarını" gətirib Qarabağda məskunlaşdırmaq fikrinə düşdülər. Belə məlum oldu ki, vaxtilə qanuni sahibindən zorla aldıqları evi öz zövqlərinə uyğun təmir etmək, divarına "Bu mənzil bizimdir və nöqtə" sözləri yazılmış plakat asmaq istəyirlər. Bunun ardınca yeni müharibə bəyanatları səsləndirildi və Azərbaycana qarşı yeni hərbi təcavüzlər başladı...

Görünür, qanuni ev sahiblərinin səbirlərinin tükənməz olmaması barədə çoxillik xəbərdarlıqların söz olaraq qalmayacağını heç kəs gözləmirdi. Səbri həqiqətən tükənən xalq "Bu ev bizimdir və nida işarəsi" deyərək tarixi ədaləti bərpa etmək üçün öz lideri başda olmaqla, hamılıqla mübarizəyə qalxdı. Görəsən, bu haqlı savaş işğalçının havadarlarını niyə belə əndişələndirir?

Azərbaycan Prezidenti İlham Əliyev bəyanat və çıxışlarında, yerli və xarici KİV-ə çoxsaylı müsahibələrində sözünü açıq və qəti şəkildə deyir - BMT-yə də, ATƏT-ə də, Minsk qrupuna da, paşinyanlara da. Deyir ki, biz daha 30 il gözləyə bilmərik, işğalçılar torpaqlarımızdan çəkilib getməlidir.

Sentyabrın 27-də İlham Əliyevin xalqa müraciətindən sonra qəlbi inam, qürur və sevinclə dolu on minlərlə insan əllərində bayraq, dillərində "Qarabağ" kəlməsi Bakı küçələrinə axışdı! Paytaxtda misli görünməmiş mənzərə yaşanırdı! Ali Baş Komandanından əmr alan Azərbaycan Ordusu üzərinə düşən missiyanı və döyüş tapşırığını layiqincə icra etməyə başladı. Qısa müddətdə bir sıra torpaqlarımızda 30 ildən sonra üçrəngli bayrağımız yenidən dalğalanmağa başladı: Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində, Suqovuşanda, Talış kəndində və digər kəndlərimizdə. Bir cəbrayıllı kimi məndən ötrü bu, həm də şəxsi xoşbəxtlikdir, buna görə də Ali Baş Komandana, xilaskar Ordumuza, cəsur Azərbaycan əsgərinə minnətdaram!

Yazımın əvvəlində dediyim kimi, otuz il əvvəl öz analarının qucağında, baba-nənələrinin çiyinlərində qarlı aşırımlardan, sıx meşələrdən keçərək gəlmiş körpələr bu gün əcdadlarının torpaqlarına tanklar üzərində qayıdırlar. Biz xoşbəxtik ki, bu Zəfər yürüşünün canlı şahidləriyik.

❖ ❖ ❖

Müharibənin öz qanunları var. Ordu ordu ilə savaşar, əsgər əsgər ilə döyüşər - üz-üzə, mərdmərdanə. Kim güclüdürsə, o da qalib gələr. Döyüş meydanında məğlub olan Ermənistan bu qanunları da pozur, müharibə cinayətləri törədərək şəhər və kəndlərimizi, dinc əhalini atəşə tutur. Düşmənin xain hücumları nəticəsində çox sayda mülki şəxs, o cümlədən uşaqlar, qadınlar həlak olub və yaralanıb, evlər, çoxmənzilli yaşayış binaları, obyektlər dağılıb.

Oktyabrın 11-də atəşkəs razılaşmasının hələ mürəkkəbi qurumamış döyüş əməliyyatları zonasından 80 kilometr aralıda yerləşən, ərazisində heç bir hərbi obyekt olmayan Gəncəyə - Azərbaycanın ikinci böyük şəhərinə ballistik raket zərbəsi endirildi. Beşi qadın olmaqla 10 nəfər dinc sakin həlak oldu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralandı. Ermənistanın bu ağır cinayətinə beynəlxalq birliyin, xüsusən Minsk qrupu həmsədrlərinin səssiz qalması ikili standartların, özgə dərdinə, başqasının faciəsinə laqeydliyinin daha bir təəssüf doğuran təzahürüdür.

Düşmənin bu təxribatları, xain hücumları xalqımızın iradəsini qıra bilmir və bilməyəcək. Əsrlər boyu başı min bir müsibət çəkmiş, tarixə bir çox şanlı səhifələr yazmış Azərbaycan xalqının bu gün bir arzusu var - düşmən tapdağı altındakı torpaqlarını azad etmək.

Qeydlərimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hər bir azərbaycanlının qəlbində əks-səda verən duyğusal sözləri, duaları ilə tamamlamaq istərdim: Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Qarabağ Azərbaycandır!

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti***




# Azərbaycan Ordusunun xilaskarlıq missiyası

*Əvvəli 1-ci səh.*

İtirilən hərbi imkanların bərpa edilməsi isə Ermənistana baha başa gələcək. Bunun üçün həm uzun illər, həm də pul lazımdır. Bu o deməkdir ki, işğalçı siyasəti yürütməyə davam etsə, Ermənistanı gələcəkdə daha ağır iqtisadi şərait gözləyir.

### Azad edilmiş kəndlər yenidən qurulacaq

Azərbaycan Ordusu tarixi missiyasını rəşadətlə yerinə yetirir. Artıq işğaldan azad olunan yaşayış məntəqələri üzrə əhalinin sayı da açıqlanıb. Füzuli rayonunun Qərvənd, Yuxarı Əbdürrəhmanlı, Horadiz, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Yuxarı Güzdək, Gorazıllı kəndləri üzrə 13 min 743 nəfər, Cəbrayıl rayonunun Nüzgar, Böyük Mərcanlı, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Dəcəl, Şıxəli Ağalı, Sarıcalı, Məzrə, Süleymanlı, Əfəndilər, Qaracallı, Qışlaq kəndləri, o cümlədən Cəbrayıl şəhəri üzrə 43 min nəfərin doğma yurdu artıq işğal altında deyil. Yaxın vaxtlarda Cocuq Mərcanlı kimi bu yaşayış məskənləri də yenidən qurulacaq və oraların əsil sahibləri geri dönəcəklər.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə yanaşı, Dağlıq Qarabağdakı erməni əhalini də onilliklərdir qorxu içərisində saxlayır. İşğalçı dövlət özünü ermənilərin hamisi, qarantı kimi göstərsə də, əslində bu müharibə ermənilərə ağır sosial həyatdan başqa bir şey verməyib. Ermənistanın işğal olunmuş və beynəlxalq nəzarətdən kənarda qalan əraziləri cinayətkar yuvasına çevirməsi nəticəsində oradakı mülki əhali illərdir səksəkə içərisində yaşayır. Onlara Qarabağdan köçüb getməyə də imkan yaradılmır.

Azərbaycanın isə mülki ermənilərlə işi yoxdur. Bizim mübarizəmiz işğalçı dövlətlə, onun ordusu ilədir. Bu baxımdan ordumuzun uğurlu hərbi əməliyyatları həm də Dağlıq Qarabağda yaşayan erməniləri xilas edəcək. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda həyata keçirdiyi əks-hücum əməliyyatları erməniləri də 30 ildi yaşadıqları səfalətdən, rəzalətdən, qorxudan qurtaracaq.

### İlham Əliyev informasiya məkanında da düşmənə sarsıdıcı zərbə vurur

Bu günlərdə Azərbaycanla Ermənistan arasında həm də informasiya müharibəsi gedir. İşğalçı dövlət əvvəlki dövrdə olduğu kimi, erməni lobbisinin və xarici havadarlarının köməyi ilə münaqişə haqqında dünyada informasiya vakuumu yaratmağa, öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa uğursuz cəhdlər göstərir. Lakin indi ötən əsrin 90-cı illərinin əvvəlləri deyil. Bu baxımdan Azərbaycan son iki həftədə düşmənin saxta informasiya cəbhəsini də darmadağın etdi. Hətta havadarları olan dövlətlərdə belə KİV-in saxta təbliğatı nəticəsiz qalır və ictimaiyyət onların yalan informasiyalarını qəbul etmir.

Ermənistana qarşı həm informasiya mübarizəsinin, həm də düşmənin saxta təbliğatının qarşısının alınması prosesinin önündə də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev gəlir. Hərb meydanında olduğu kimi, informasiya məkanında da İlham Əliyev düşmənə sarsıdıcı zərbə vurur.

Xatırladaq ki, Azərbaycan hələ əks-hücum əməliyyatından əvvəl Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə, bütün mümkün vasitələrdən istifadə etməklə beynəlxalq arenada ifşa etməyi bacardı. Hələ 2020-ci ilin iyul təxribatından əvvəl və sonra Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda Ermənistanın işğalçı siyasətini ifşa etdi, düşmən ölkənin Azərbaycana qarşı yeni işğal planları qurduğunu faktlarla sübuta yetirdi.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində başlanan hərbi əməliyyatlar dövründə isə İlham Əliyev dünyanın nüfuzlu televiziya kanallarına müsahibələrində münaqişənin tarixi, səbəbləri, hazırkı vəziyyəti, habelə Azərbaycanın mövqeyini əsaslandıran tarixi, hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Prezident İlham Əliyev Ermənistanın mövqeyini müdafiə edən KİV-in də suallarını cavablandırdı. Bu zaman dövlət başçısı təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla Azərbaycanın haqlı mövqeyini elə əsaslandırdı ki, ondan sonra erməni lobbisinin maraqlarına xidmət edən jurnalistin əlavə sual verməyə gücü çatmadı. Bununla da Prezident İlham Əliyev erməni təbliğatına hətta düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu.

Beləliklə, Ali Baş Komandan kimi Prezident İlham Əliyev eyni vaxtda həm döyüş cəbhəsində, həm də informasiya cəbhəsində məharətli sərkərdə kimi ölkəmizin maraqlarını inamla və qətiyyətlə müdafiə edir. Dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verdi. Ən əsası, İlham Əliyev məsələlərə operativ müdaxiləsi və reaksiyası, hadisələri nəzarətə götürmək, vəziyyəti idarə etmək bacarığı ilə istənilən ağır şəraitdə, taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı şəxsi nümunə ortaya qoydu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Hünərin böyük hünəri

## O, silahdaşları ilə birgə düşmənin 7 tankını məhv edib



**Müdafiə Nazirliyi işğalçı Ermənistan ordusuna ciddi zərbələr vuran Azərbaycan əsgərlərinin şücaəti ilə bağlı məlumat yayıb.**

"Şəkildə gördüyünüz əsgər Hünər Məmmədovdur.

O, silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevin köməyilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı düşmənin 7 tankını, 1 PDM-ni, 1 silah-sursat dolu avtomobilini və 2 müşahidə məntəqəsini məhv edib.

Düşmənə layiqli cavab verən igid döyüşçülərimizə eşq olsun!"

# Qlobal layihələr, güclü iqtisadiyyat, yenilməz ordu...

## Dövlət başçısı bunların bir-biri ilə sıx bağlı olduğunu vurğulayıb

1990-cı illərin ikinci yarısından Azərbaycan iqtisadiyyatı tədricən dirçəlməyə başladı. Belə ki, ölkəmizin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində həyata keçirdiyi neft-qaz və ixrac layihələri öz bəhrəsini verdi. Əldə olunan gəlirlər getdikcə artdı. 1999-cu ilin sonunda Ulu Öndər Heydər Əliyev ARDNF-i (Azərbaycan Respublikası Dövlət Neft Fondu) yaratdı. Fondda toplanan vəsaitlər ölkənin qarşısında dayanan ən ümdə məsələlərin həllinə yönəldildi.

Neft gəlirlərindən qaçqın və məcburi köçkünlər üçün evlərin tikilməsinə, su və meliorasiya layihələrinin həyata keçirilməsinə, təhsilin inkişafına və digər sahələrə vəsaitlər ayrıldı. Əlbəttə, ən vacib problemlərdən biri ordunun güclənməsi idi. Ölkəmizin torpaqlarının 20 faizinin işğal altında olması bunu gündəmə təxirəsalınmaz bir vəzifə kimi gətirirdi. Məhz buna görə də Prezident İlham Əliyev bu sahədə də Ümummilli Liderin ənənələrini davam etdirərək ordu quruculuğuna böyük diqqət yetirdi.

"Global Firepower 2019" hesabatına görə, dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yeri tutur. Dəniz gücü üzrə ölkəmiz 67-ci yerdə qərarlaşıb. Ermənistanda isə ümumiyyətlə dəniz yoxdur. Tank gücü üzrə biz 32-ci yerdə, düşmənlərimiz 78-ci yerdədir. Bu rəqəmlər vəziyyəti elə aydın göstərir ki, şərhə heç bir ehtiyac qalmır.

Cari il yanvarın 13-də keçən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev bu barədə ətraflı bəhs edərək demişdir: "Bizim hərbi potensialımız da möhkəmləndi. Keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır və Azərbaycanda istehsal olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır".

Ordumuzun qələbələri məhz dövlət başçısının apardığı uzaqgörən siyasət, bu islahatlarla bağlıdır. 2016-cı ildə Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribata cavab olaraq ordumuz uğurlu əks-hücum əməliyyatları keçirdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Növbəti hərbi qələbə 2018-ci ildə qazanıldı. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazi azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək.

Prezidentimiz deyir: "Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Ancaq biz müharibə şəraitində yaşayırıq və eyni zamanda görürük ki, bu gün dünyada, beynəlxalq müstəvidə güc amili ön plana çıxır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq müstəvilərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir."

Azərbaycan dövləti buna uyğun addımlar atıb. Yəni real vəziyyətlə hesablaşıb. Ümumiyyətlə, beynəlxalq hüquq normalarının pozulması hər bir ölkədən öz hərbi potensialını gücləndirməyi tələb edir. Odur ki, Azərbaycan ordu quruculuğunu prioritet sayaraq həmin istiqamətdə çox işlər görüb. Məhz bunun nəticəsində indi Azərbaycan Ordusu yüksək peşəkarlığa malikdir.

Əlbəttə, bütün bunlar çox böyük vəsait tələb edir. Prezidentimiz bu barədə belə demişdir: "Bizim vəsaitlərimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev ordumuza, əsgərlərimizin, zabitlərimizin gücünə, mərdliyinə və mətanətinə inanır və onlara güvənir. Ordumuz bundan ruhlanır, güc-qüvvət alır. Odur ki, erməni faşistləri onun qarşısında dözüş gətirə bilmir, itki verir, papağını, silahını atıb qaçır. Bu il sentyabrın 27-dən başlayaraq düşmənin hücumunun qarşısının alınması məqsədi ilə həyata keçirilən əks-hücum əməliyyatları deyilənlərin əyani sübutudur. Azərbaycan Ordusu torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ən çətin və məsuliyyətli tapşırıqları yüksək döyüş əzmi və iğidliklə yerinə yetirməyə qadirdir. Qısa bir müddətdə çoxsaylı yaşayış məntəqələrini düşmən tapdağından azad edən ordu əlbəttə ki, işğalda olan bütün torpaqlarımızı geriyə ala bilər!

Prezident sentyabrın 27-də, oktyabrın 4-də və 9-da xalqa müraciətlərində, eləcə də bu dövrdə müxtəlif xarici telekanallara müsahibələrində Azərbaycan Ordusunun nəyə qadir olduğunu dönə-dönə qeyd edib.

Bu il iyunun 25-də Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında ordu quruculuğunun vacib məsələ olduğunu bir daha vurğulamışdır: "Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim Prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə digər malların alınması üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər 15.10.2020-ci il saat 10:00-a qədər qəbul olunur.
Əlaqə nömrəsi : 012 431-16-59.

Tender komissiyası

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə digər kommunal xidmətlər üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər 15.10.2020-ci il saat 10:00-a qədər qəbul olunur.
Əlaqə nömrəsi: 012 431-16-59.

Tender komissiyası

## İki canda bir ürək

# Gəncəyə xain hücum

### Ermənistanın terrorçu mahiyyətinin ifşası Türkiyə mətbuatının əsas gündəm mövzusudur

















































**Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığı ordumuzun işğal olunmuş ərazilərimizin azadlığı uğrunda həyata keçirdiyi son əməliyyatlar zamanı bir daha təsdiqini tapdı. Türkiyə ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü və onu heç zaman yalnız qoymayacağını bütün dünyaya nümayiş etdirdi.**

Ordumuzun uğurlu hərbi əməliyyatları ilə yanaşı, Ermənistanın Gəncə şəhərini ballistik raketlə vurması Türkiyə KİV-in xüsusi diqqət mərkəzində yer almaqdadır. Qardaş ölkə mediasında döyüş meydanında aldığı məğlubiyyətlə barışmayan işğalçının azğınlaşaraq günahsız insanları hədəfə aldığı diqqətə çatdırılır. Qəzetlər Ermənistanın Azərbaycana qarşı törətdiyi davamlı təxribatlarla bağlı xüsusi reportajlar təqdim edir.

İlk gündən Azərbaycan Ordusunun uğurlarına geniş yer verən "Sabah" qəzeti "Alçaqlar", "Bizi gecə yatarkən vurdular" başlıqlı xəbərləri manşetdən verib. Xəbərlərdə qeyd olunur ki, Ermənistan atəşkəsi pozub və oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri olan və təmas xəttindən uzaqda yerləşən Gəncə şəhərini raketlə vurub, nəticədə 10 nəfər mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanıb. Bunun Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti müharibə cinayəti olduğunu diqqətə çatdıran nəşr yazır ki, işğalçı ölkənin günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması bir daha onun faşizm xislətini və cinayətkar mahiyyətini göstərir.

"Yeni Şafak" qəzeti "Dünya bunu görsün" başlıqlı xəbərində yazır ki, humanitar məqsədlərlə Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da atəşkəs razılığı əldə edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri 11 oktyabr gecə saat 2-də öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni "SCUD" ballistik raketi ilə bombalayıb. Nəticədə 10 nəfər həlak olub, 17-si qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 3 bina tamamilə məhv edilib, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəyib.

Müəllif yazır ki, 27 sentyabrdan bu günədək Ermənistanın silahlı qüvvələri döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax yaşayış məntəqələrini atəşə tutaraq 13-ü qadın, 3-ü uşaq olmaqla, 41 mülki şəxsi qətlə yetirib, 206 mülki şəxsi yaralayıb. Vurğulanır ki, yaralananlar içərisində 44 qadın və 22 uşağın (onlardan 6 körpə) olması diqqət çəkir.

"Hürriyet" qəzetinin "Yuxudakı mülki əhalini raketlə vurdular", "Vacib 72 saat" başlıqlı xəbərlərində Ermənistanın atəşkəs rejiminə əməl etməməsi ilə bölgə və beynəlxalq aləmdə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid etdiyi diqqətə çatdırılır. Bildirilir ki, cəbhədəki məğlubiyyəti ilə barışmayan Ermənistan azğınlıq edərək günahsız insanları hədəfə alıb. Ermənilər dinc azərbaycanlı əhaliyə qarşı vandalizm həyata keçirirlər. Oktyabrın 11-də gecə Gəncədə yaşayış binasının hədəf alınması Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror aktıdır.

"Mülki əhaliyə ballistik raket", "72 saatda sözünü unutdu" başlıqlı xəbərləri "Milliyet" qəzetində dərc olunub. Qəzet yazır ki, Ermənistanın dövlət səviyyəsində terror siyasəti davam edir: "Ermənistanın cəzasız qalması onu daha çox müharibə cinayətlərinə sövq edir. Humanitar atəşkəsi pozan Ermənistan Gəncənin sıx məskunlaşdığı yaşayış hissəsini nizamsız atəşə tutdu, 10 nəfər mülki şəxs həyatını itirdi. Ermənistanı dayandırmaq lazımdır".

"Türkiye" qəzeti "Eyni oyun" başlıqlı xəbərini manşetdən oxuculara təqdim edib. Bildirilir ki, Ermənistan tərəfindən həyata keçirilən növbəti vandallıq aktı nəticəsində Azərbaycanın mülki vətəndaşları həlak olub, onlarca insan yaralanıb. Məqalədə xatırladılır ki, oktyabrın 10-da Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin Rusiyanın vasitəçiliyi ilə Moskvada keçirilən görüşündə humanitar atəşkəs barədə razılaşma əldə olunub. Lakin Ermənistan bu razılaşmadan irəli gələn öhdəliklərini yerinə yetirməkdən imtina edir və öz təcavüzkar siyasətini daha da genişləndirməyə çalışır.

"Sözcü" qəzetinin "Şərəfsizlik" başlıqlı məqaləsində yazılır ki, Gəncə kimi qədim tarixə malik, dünya mədəni irsində xüsusi yeri olan şəhərin hədəf seçilməsi Ermənistanın insanlıq əleyhinə yönəlmiş təhlükəli siyasətindən xəbər verir: "Bu, bir daha onu göstərir ki, Ermənistan terror və vandalizmi dövlət siyasəti səviyyəsinə qaldırıb və bu gün də həmin xətti israrla davam etdirir".

"Akşam" qəzeti "Qatil atəşi kəsmədi", "Türkiyəsiz problem çözülməz" başlıqlı xəbərlərində Ermənistan silahlı qüvvələrinin oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri olan və təmas xəttindən uzaqda yerləşən Gəncə şəhərinə raket hücumları etdiyini, nəticədə 10 nəfər mülki şəxs həlak olduğunu və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfərin yaralandığını diqqətə çatdırıb.

"Yeni akit" qəzetinin "Uşaq qatillərinə dünya susur" başlıqlı xəbərində deyilir ki, Ermənistan atəşkəs rejimindən dərhal sonra Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu edib, nəticədə 10 nəfər mülki şəxs həlak olub. Erməni faşistlərinin öz xislətlərindən əl çəkmədiklərini vurğulayan nəşr yazır ki, Azərbaycan Ordusu ilə üzbəüz döyüşdə aciz olan bu vandallar dinc əhalini, qocanı, uşağı hədəfə götürürlər.

Qəzetlərdən "Aydınlık"ın "Türkiyə artıq Qərbi dinləmir", "Diriliş postası"nın "Ermənistan müharibə cinayəti işlədir", "Milat"ın "Gəncə qan ağlayır", "Yeni Asya"nın "Ermənistan atəşkəsə rəğmən vurdu", "Anayurt"un "Ermənistan Rusiyanı müharibəyə çəkir", "Yeni mesaj"ın "Terror dövləti", "Yeniçağ"ın "Azərbaycan dayandı, Ermənistan vurdu", "Türkgün"ün "Fahişəlikdə sərhəd tanımır" və "Yeni birlik"in "Ermənistan Gəncəni vurdu", "Bizi test etməyin" başlıqlı xəbərlərində diqqətə çatdırılır ki, Gəncənin mülki əhalisini hədəf alan Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və Azərbaycana qarşı yeni hücumlar üçün fürsət və bəhanələr axtarır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Qarabağda ədaləti bərpa etmək tarixi missiyadır

**Region dövlətlərlə mehriban qonşuluq münasibətləri Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu baxımdan Gürcüstanla münasibətlərə xüsusi əhəmiyyət verilir. Məlum olduğu kimi, Azərbaycan-Gürcüstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib. İkitərəfli münasibətlər çoxşaxəli xarakterlidir. Bütün sahələrdə faydalı qarşılıqlı tərəfdaşlıq təmin edilib. Azərbaycan Respublikasının təşəbbüsçüsü və əsas iştirakçısı olduğu bütün layihələrdə Gürcüstan da yaxın tərəfdaş kimi təmsil olunur. Ermənistan isə yürütdüyü təcavüzkarlıq siyasəti nəticəsində beynəlxalq layihələrdən kənarda qalıb.**

## Azərbaycan-Gürcüstan münasibətlərini pozmaq Ermənistanın əsas hədəflərindəndir

Bütün bunlar regiondakı sabitliyə, sülhə və təhlükəsizliyə ən böyük təhdid olan Ermənistanı və erməniləri narahat edir. Bir tərəfdən, Azərbaycanın Qafqazda və dünyada öz sözünü deməsi, regionun lider dövlətinə çevrilməsi, digər tərəfdən isə Gürcüstan üzərində təsir mexanizminin olmaması Ermənistan üçün arzuolunmazdır. Bu səbəblərdən Ermənistan və dünya ölkələrinə səpələnmiş, o cümlədən Gürcüstanda yaşayan ermənilər SSRİ-nin dağılmasının ardından Cənubi Qafqaz dövlətlərinin müstəqilliklərinin bərpasından bu yana hər vəchlə Azərbaycan-Gürcüstan münasibətlərini pozmağa səy göstərirlər. Lakin Azərbaycan və Gürcüstanın dövlət rəhbərlərinin siyasi iradəsi bu cəhdlərin uğursuz olması ilə nəticələnir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu uğursuzluğun səbəbini belə açıqlayır: *"Ancaq o da həqiqətdir ki, Ermənistan və Gürcüstanda yaşayan ermənilər, eyni zamanda gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan-Azərbaycan əlaqələrinə zərbə vursunlar. Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də dünya erməniliyidir. Onların əsas məqsədi Gürcüstan-Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar. Çünki yenə də deyirəm, biz etibarlı tərəfdaşıq və bütün məsələləri açıq şəkildə müzakirə edirik. Azərbaycan hər zaman Gürcüstanın yanında olub".*

Azərbaycan-Gürcüstan münasibətləri 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın təbii ehtiyatlarının dünya bazarına çıxarılması ilə sürətli inkişaf yoluna qədəm qoydu. İqtisadi cəhətdən Azərbaycanın müstəqilliyini təmin edən bu müqavilə həm də iştirakçı və tranzit potensialına sahib ölkələrə faydalı qarşılıqlı əməkdaşlıq qurulması baxımından olduqca əhəmiyyətli idi. Ermənilər müqavilənin imzalanmaması üçün özlərinə məxsus çirkin əməllərindən çəkinmirdilər. Ermənilərin mətbu orqanlarında da bu mövzuda geniş qarayaxma kampaniyası başlamışdı. Gürcüstandakı və xaricdəki erməni təşkilatları əsas ixrac neft boru kəmərinin keçəcəyi yerlərdə guya ekologiyaya ziyan vurulacağını "əsas gətirərək" çirkin kampaniya apardılar. Lakin bu fəaliyyətlər iflasa uğradı və əsas ixrac neft boru kəməri Gürcüstandan keçdi. Bununla da Gürcüstan iqtisadiyyatı dirçəlmiş oldu, gürcü xalqının sosial rifah halı yaxşılaşdı.

Ermənistanın və Gürcüstandakı erməni təşkilatlarının Azərbaycan-Gürcüstan münasibətlərinin pozulmasına hesablanmış addımları sonrakı illərdə də zaman-zaman atıldı və indi də davam etməkdədir. Azərbaycan və Gürcüstan bir sıra beynəlxalq və regional layihələrdə uğurla əməkdaşlıq edirlər. Belə regional layihələrdən biri isə Bakı-Tbilisi-Qars dəmiryolu xəttidir. Cənubi Qafqazda sabitliyin əsas qənimi olan Ermənistan layihənin planlaşdırıldığı ilk gündən etibarən hər şəraitdən yararlanmağa çalışaraq müxtəlif mövqelər ortaya qoymağa başladı. Ermənistan ilk oncə dəmiryolu xəttinin reallaşmasının mümkünsüzlüyünü iddia edən informasiyalar yaymağa çalışdı. Həmin günlərdə Rusiya və işğalçı Ermənistanın mediasında Gürcüstanda yenicə iqtidara gələn "Gürcü Arzusu" koalisiyasının Bakı-Tbilisi-Qars dəmiryolu layihəsini dəstəkləmədiyi barədə müəyyən məlumatlar dərc olundu. Eyni zamanda müvafiq nəqliyyat xəttinin səmərəli olmadığı və Gürcüstanın iqtisadi infrastrukturu üçün risklər doğurduğu iddia edildi.

Həmin taktikanın layihənin dayandırılmasına kifayət etmədiyini görən Ermənistan daha sonra layihədən yararlanmağa çalışmaq üçün təkliflər verməyə başladı. Lakin Azərbaycanın buna imkan verməyəcəyini dəqiqləşdirəndə Gürcüstanla əlaqələri genişləndirmək üçün hərəkətə keçdi. Belə ki, 2017-ci ilin dekabrında Gürcüstana səfər etmiş Ermənistan Prezidenti Serj Sarkisyan ilə gürcü həmkarının görüşü zamanı Abxaziya dəmiryolunun açılmasının mümkünlüyünə işarə vuruldu.

Ermənistan Bakı-Tbilisi-Qars dəmiryolunun açılmasından sonra ağır vəziyyətdə olan iqtisadiyyatını xilas etmək üçün Abxaziyadan keçən dəmiryolunun açılmasına çalışır. İrəvan bir neçə ildir ki, Gürcüstan hakimiyyətindən bu dəmiryolu xəttinin açılmasını "xahiş edir." Bu cəhdlərində Ermənistan bir neçə məqsəd güdür. Hər şeydən əvvəl, bu dəmiryolu ilə Ermənistan-Rusiya nəqliyyat əlaqəsi yaranacaq və blokadası aradan qaldırılacaqdır. Bununla da Rusiyadan hərbi təyinatlı yüklərin Ermənistana dəmiryolu ilə daşınması reallaşacaqdır.

Əsas məqsədlərdən biri də Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığına zərbə endirməkdir. Lakin bu, alternativ ərazi bütövlüyü pozulan Gürcüstan üçün nə iqtisadi, nə də siyasi cəhətdən əlverişlidir. Bu şərtlər daxilində Gürcüstanın belə bir addımı atması - Abxaziya dəmiryolunun açılması rəsmi Tbilisi üçün siyasi intihar olar. Gürcüstanın Abxaziya dəmiryolunun açılmasına razılıq verməsi ölkənin ərazi bütövlüyünə qarşı ən böyük təhdidlərdən biri, separatçı Abxaziya ilə rəsmi əlaqələrin qurulması mənasına gəlir. Bu, Gürcüstanın qondarma Abxaziyanı müstəqil dövlət kimi de-fakto tanıması, ölkə ərazisinin parçalanmasına razılıq verməsi deməkdir.

Abxaziya dəmiryolunun açılmasında əsas maraqlı tərəf Ermənistan olduğundan erməni mətbuatı ölkə rəhbərliyinə dəstək verərək artıq Bakı-Tbilisi-Qars layihəsinin yararsız olduğu, Abxaziya layihəsinin isə əhəmiyyətini şişirdən informasiyalar yayırdı.

Ermənistan və erməni təşkilatları Azərbaycanın təbii ehtiyatlarının dünya bazarına nəqlinə dair ard-arda razılaşdırılan qlobal layihələrdən sonra bir tərəfdən regionda var olmaq, özünə yol axtarmaq, digər tərəfdən Azərbaycan və Gürcüstan arasındakı çoxşaxəli münasibətlərə kölgə salmaq üçün addımlar atmağa başladılar. Azərbaycanın karbohidrogen ehtiyatlarının Gürcüstan ərazisindən keçməklə ixracı Ermənistanın tranzit ölkə olma xəyalları qurmağa başlamasına səbəb oldu. Belə ki, Ermənistan İran təbii qazının öz ərazisindən keçməklə əvvəlcə Gürcüstan, daha sonra Avropa ölkələrinə nəqli ilə bağlı planlar tərtib etməyə başladı. Dəyəri 120 milyon dollar olan təbii qaz boru xətti layihəsi 1990-cı illərin əvvəllərindən planlaşdırılsa da, texniki və maliyyə problemlərinin yaşanması səbəbindən zamanında tamamlana bilmədi. Daha sonra Ermənistanın enerji problemlərinin həll edilməsində siyasi maraqları olan Avropa İttifaqının maliyyə dəstəyi ilə bu layihə həyata keçirildi. Belə ki, Avropa İttifaqı İran-Ermənistan təbii qaz boru xəttinin çəkilməsinə dair texniki və hüquqi layihəsini hazırlamaq üçün 2001-ci ildə Ermənistana 30 milyon avro verdi. 2007-ci ildən etibarən İran qazı Ermənistana ixrac olunmağa başladı.

Sonrakı illərdə Ermənistan və İran təbii qaz boru xəttini Ermənistan və Gürcüstan ərazisindən keçərək Qara dəniz sahilinə qədər uzatmaq, buradan da dənizin dibi ilə çəkilməsi planlaşdırılan boru xətti ilə təbii qazı Ukraynaya nəql etmək və son nöqtə olaraq Avropaya çıxarmaq haqqında planlar qurmağa başladı. Ermənistan bu layihənin rentabelli olduğunu sübut etmək üçün Gürcüstanın da layihədə iştirak etməsinə çalışırdı. Ermənistan İran ilə əməkdaşlığının bölgənin xeyrinə olduğunu və enerji layihələrində Gürcüstanın da iştirak edə biləcəyini vurğulayırdı.

2015-ci ildə Gürcüstanın enerji problemini alternativ mənbələrlə həll edəcəyi barədə bəyanat verməsindən sonra Ermənistan Prezidenti Serj Sarkisyanın tələsik şəkildə Gürcüstana səfər etməsi, İran təbii qazının Ermənistan üzərindən Gürcüstana nəql edilməsi məsələsini yenidən bölgə mətbuatının gündəminə gətirdi. Lakin işğalçı dövlətin cəhdi uğursuz oldu.

Ermənistan bu mövzuda növbəti gedişini 2019-cu ildə etdi. Belə ki, 2019-cu il fevralın 20-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 5-ci toplantısı keçirildi. Toplantıda Asiya İnkişaf Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Avropa İnvestisiya Bankının rəhbərləri, Böyük Britaniya, ABŞ, Türkiyə, İtaliya, Gürcüstan və başqa Avropa dövlətlərinin enerji nazirləri iştirak edirdilər. Bakıda keçirilən tədbirin ardından Ermənistan yenə həmişəki siyasətinə sadiq qaldı. Ermənistanın Enerji və Təbii Ehtiyatlar Nazirliyi açıqlama yayaraq bildirdi ki, rəsmi Yerevan İran qazının Ermənistan ərazisindən Gürcüstana, oradan da Qara dəniz vasitəsilə Avropaya ixracını müzakirə etməyə hazırdır. Bunun ardınca isə mətbuatda belə bir xəbər yayıldı ki, fevralın 27-də baş nazir Nikol Paşinyan İrana rəsmi səfər edib. Regionda həyata keçirilən bütün beynəlxalq əhəmiyyətli iqtisadi layihələrdən kənarda qalan Ermənistan yenidən düşdüyü təcrid vəziyyətindən çıxmaq üçün cəhd göstərirdi. Qeyd etmək lazımdır ki, İran və Ermənistan arasında mövcud təbii qaz xəttinin diametri kiçik olduğu üçün Gürcüstana qədər uzadıla bilməz. İrandan, Ermənistandan keçməklə Gürcüstana yeni təbii qaz boru xəttinin çəkilməsi isə olduqca bahalıdır. Gürcüstanın alternativ enerji mənbələri haqqında açıqlamaları isə Azərbaycan dövləti tərəfindən qəbuledilməzdir. Rusiya və ya İranın Gürcüstana Azərbaycandan ucuz təbii qaz satacağı ehtimalı olduqca azdır. Belə ki, bölgədə Rusiya strateji müttəfiqi olan Ermənistana qazın hər min kubmetrini 165 dollara satır. Rusiyanın və yaxud İranın (olmayan boru xətti ilə) Gürcüstana 55-65 dollara təbii qaz satacağı inandırıcı deyildir.

Azərbaycan, Gürcüstan və Türkiyənin üçtərəfli faydalı əməkdaşlığı Ermənistanı ciddi şəkildə narahat edir. Bu dövlətlərin 2019-cu ildə keçirdiyi üçtərəfli birgə hərbi təlimlər Ermənistan mətbuatında hay-küyə səbəb oldu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və Bakı-Tbilisi-Qars dəmiryolunun təhlükəsizliyini təmin etmək üçün təşkil olunmuş "Eternity-2019" hərbi təlimlərində Azərbaycan, Türkiyə və Gürcüstanın hərbçiləri iştirak edirdilər. Birgə təlim zamanı iqtisadi layihələrin müdafiəsini nəzərdə tutan tapşırıqlar yerinə yetirildi. Amma Ermənistanı daha çox Gürcüstanın təlimlərdə iştirakı narahat edirdi. Bununla əlaqədar olaraq erməni mənbələrində yazılır: "*Tbilisinin Bakı və Ankara ilə yaxınlaşması İrəvanda ciddi narahatlığa səbəb olub. Azərbaycan və Türkiyənin Ermənistana olan düşmən münasibətini nəzərə alanda bu, təbii reaksiyadır*".

Məsələyə münasibət bildirən Gürcüstanın Böyük Britaniyadakı keçmiş səfiri, Gürcüstan Strateji və Beynəlxalq Tədqiqatlar Fondunun böyük elmi işçisi Georgi Badridze Ermənistanın əsəbi reaksiyasının mənasız olduğunu, belə bir işbirliyinin Ermənistan və Rusiya arasında da mövcud olduğunu, Gürcüstanın bu mövzuda Yerevana indiyədək heç bir göstəriş vermədiyini bildirmişdi.

Gürcüstanda xeyli sayda erməni təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlar Gürcüstanda təkcə separatçılıq fəaliyyəti ilə məşğul deyillər, həm də Gürcüstanın Türkiyə və Azərbaycanla olan münasibətlərini pozmaq istiqamətində geniş iş aparırlar. Onlar illərdir ki, niyyətlərini həyata keçirmək üçün müxtəlif üsullardan istifadə edirlər. Bu təşkilatlar iddia edirlər ki, guya gürcülər azərbaycanlılarla əlbir olaraq erməniləri Samtsxe-Cavaxeti, Kvemo-Kartli (Borçalı) bölgələrindən sıxışdırmağa çalışırlar. Ozamankı Gürcüstan Prezidenti M.Saakaşvilinin müşaviri Van Bayburtyan məktubu əsassız adlandırmış və Cavaxk təşkilatı tərəfindən yazıldığını bildirmişdi. Müşavirin sözlərinə görə, həmin təşkilat Rusiya tərəfindən maliyyələşdirildiyindən bu cür addım gözlənilən idi.

Bu təşkilat Gürcüstanda türklər və azərbaycanlılar əleyhinə davamlı əks-təbliğat ilə məşğul olur. Qondarma "erməni soyqırımı"nın ildönümündə bu təşkilatın fəaliyyəti daha da aktivləşir. Belə ki, hər il qondarma "soyqırımı" ildönümü günü bu birlik tərəfindən Türkiyə səfirliyinin qarşısında aksiya həyata keçirilir. Təkcə bu təşkilatın üzvləri deyil, Gürcüstanda yaşayan əksər ermənilər hər il aprelin 23-24-də uydurma "soyqırım"ın ildönümü ilə bağlı Samtsxe-Cavaxeti bölgəsi və paytaxt Tbilisidə aksiyalar təşkil edirlər. Aksiyalarda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış separatçı qurumun bez qırığı olan üzdəniraq "bayrağı" qaldırılır. Gürcüstanın aidiyyəti qurumları yerli ermənilərin Azərbaycana qarşı təxribatının və separatçılığın təbliğinə yönəlmiş bu addımın qarşısını almaq üçün bir qayda olaraq, heç bir tədbir görmür. İşğaldan əziyyət çəkən və Azərbaycanın ərazi bütövlüyünü tanıyan Gürcüstanda belə hərkətlərin qarşısı dərhal alınmalı və təkrarlanmasına yol verilməməlidir.

Gürcüstanın erməni mənşəli vətəndaşları, təşkilat və birlikləri tərəfindən Azərbaycan-Gürcüstan münasibətlərini pozmaq üçün zaman-zaman təxribatlar törədilir, məqsədli şəkildə saxta informasiyalar yayılır.

Erməni təxribatı izləri Azərbaycan-Gürcüstan sərhədində, Keşikçidağ ərazisində də özünü göstərir. Keşikçidağ insidentinin köklərini aydınlaşdırmaq üçün tarixə nəzər yetirilməsində fayda vardır. Bu məbəd kompleksinin yerləşdiyi yüksəklik hələ sovet dövründə Azərbaycan ərazisi olub. SSRİ dağıldıqdan sonra Azərbaycan və Gürcüstan 480 kilometrlik məsafə boyunca uzanan sərhədlərinin delimitasiya və demarkasiyasına başladı. Bunun üçün hər iki ölkədə dövlət sərhədlərinin delimitasiya və demarkasiyası üzrə komissiya yaradıldı. İndiyədək bu komissiyaların 11 dəfə iclası keçirilib. Son illərdə 168 kilometrlik məsafə üzrə ekspertlərin iştirakı ilə iş aparılır.

2019-cu ildə xristianların müqəddəs bayramı - Pasxa bayramı ərəfəsində Gürcüstan sərhədçiləri Azərbaycan ərazisi olan Keşikçidağ məbəd kompleksinə keçidin asanlaşdırılması üçün azərbaycanlı həmkarlarına rəsmən müraciət etdilər və Azərbaycan-Gürcüstan münasibətlərinə uyğun olaraq onlara müsbət cavab verildi. Növbəti həftədə eyni məzmunlu müraciəti Azərbaycan tərəfi anlayışla cavablandırdı. Qeyd etmək lazımdır ki, sözügedən qədim dini obyekt uzun illər gürcülər üçün o qədər də ciddi əhəmiyyətə malik olmayıb. Amma nə qədər qəribə olsa da, birdən-birə bu məbədə diqqət artırıldı, ziyarətçilərin sayı çoxaldı, din adamlarının maraq nöqtəsinə çevrildi. Bu fəallaşmanın fonunda isə xüsusi adamlar meydana çıxaraq qarşıdurma yaratmağa çalışdılar. Bütün bunların təsadüfi olduğu inandırıcı deyildir. Azərbaycanlıların Keşikçidağ, gürcülərin David Qareçi adlandırdığı məbədin ətrafında qurulan oyuna dini don geyindirmək iyrənc məqsədli adamlar üçün ayrı-ayrı dinə mənsub olan iki xalq arasında nifaq yaratmağın ən yaxşı üsulu idi. Çünki Azərbaycan və Gürcüstan dövlətlərinin qarşılıqlı münasibətləri yüksək səviyyədədir. Sıravi vətəndaşlar arasında da ciddi narazılıqdan söhbət gedə bilməz. Dini-etnik istiqamət isə qarşıdurmanın yaradılması üçün ideal iyrənc plan hesab oluna bilər. Əgər Azərbaycan əsgərləri üzərinə hücum edən insanları uzaqlaşdırmaq üçün silahdan istifadə etsə, bu, yaralanma və ya ölümlə nəticələnsəydi, Azərbaycan-Gürcüstan münasibətləri köklü şəkildə pozula bilərdi. Həmçinin Azərbaycana dünya ölkələrinin gözündə silahsız xristianlara silah çəkən radikal və "vəhşi" müsəlman ölkəsi kimi damğa vurula bilərdi. Azərbaycan əsgərinin soyuqqanlığı və ayıq-sayıqlığı, ölkə rəhbərliyinin uzaqgörənliyi gələcəkdə böyük problemlərə yol aça biləcək məkrli təxribatın qarşısını aldı, dini don geyindirilmiş planın həyata keçirilməsinə mane oldu. Hadisələrin ardıcıllığına fikir verdikdə aydın olur ki, Azərbaycan, Gürcüstan və digər ölkələr arasındakı çoxşaxəli münasibət müəyyən qüvvələrin hədəfindədir və bu, iki ölkəyə qarşı törədilən təxribat xarakterli əməllərdən biridir.

Qeyd etmək lazımdır ki, təkcə Gürcüstanın Azərbaycan sərhədi deyil, Gürcüstan-Ermənistan sərhədləri də delimitasiya və demarkasiya edilməyib. Gürcüstan-Azərbaycan sərhədi regionun, bəlkə də dünyanın ən sabit və təhlükəsiz sərhədidir. Gürcüstan-Ermənistan sərhədinin delimitasiya olunmaması isə problem yaradan məsələdir.

Diqqət yetirilməli digər məsələ ondan ibarətdir ki, SSRİ-nin dağılmasından sonrakı illər ərzində Ermənistan sərhədçiləri qanunsuz olaraq Gürcüstan-Ermənistan sərhədini Gürcüstan tərəfə "sürüşdürür"lər. Ermənistan hakimiyyəti Gürcüstanın onlarca kvadrat kilometr ərazisinə qanunsuz olaraq "sahiblik" edir. Bu, təkcə Gürcüstan və sərhəd bölgələrinin əhalisi üçün zərərli deyil, həm də sülh və təhlükəsizliyə təhdid də ola bilər. Ermənistan sərhədçiləri Gürcüstan-Türkiyə və Gürcüstan-Azərbaycan sərhədlərinə bitişik əraziləri də qeyri-qanuni olaraq "sürüşdürür". Nəticədə bu ərazilərin Gürcüstan ərazisindəki "kəsişən" sərhəd əraziləri Ermənistan tərəfindən özbaşına irəli çəkilib. Üstəlik, Gürcüstan-Ermənistan və Gürcüstan-Azərbaycan sərhədlərinin qovşağında Ermənistan tərəfi Gürcüstan ərazisinə qanunsuz olaraq hərbi bölmələrini daxil edib. Yəni Ermənistan təcavüzkar kimi özbaşına sərhədi "sürüşdürməklə" yanaşı, həm də qoşunlarını "qanunsuz" şəkildə o əraziyə yerləşdirib. Və əslində bu, Gürcüstan ərazisində hərbi əməliyyatları təhrik etməyə başlayıb. Azərbaycanın qonşusu olan Gürcüstanın ərazilərinin Ermənistan tərəfindən qanunsuz işğalı Azərbaycanın sərhədçilərinin Qazax rayonunda Ermənistanla sərhəddə bir sıra strateji yüksəklikləri ələ keçirməsi ilə başa çatmış oldu. Belə ki, Gürcüstan ərazilərini qanunsuz işğal edən erməni qoşunları Azərbaycan sərhədçilərinin yeni mövqeləri ilə Gürcüstanın işğal edilməyən əraziləri arasında "sıxışdırıldı". Nəticədə erməni işğalçıları sərhəd qovşağına bitişik gürcü torpaqlarını qismən təmizləməyə məcbur oldular. Erməni təxribatçıları bu uğursuzluqdan belə dividend çıxartmağa, eyni zamanda Gürcüstanla Azərbaycan arasındakı münasibətləri pisləşdirməyə çalışdılar. Məsələn, millətçi bir erməni nəşri olan "panarmenian.net" saytında təxribat xarakterli bir yazı yerləşdirildi: "Bellingcat: Azərbaycan Gürcüstan ərazisinə daxil olmağa çalışır. Azərbaycan Babakər dağının Gürcüstan hissəsindəki yeni yüksəkliklərdə mövqeyini möhkəmləndirib".

Babakər dağı Ermənistan, Gürcüstan və Azərbaycanın dövlət sərhədlərinin qovuşduğu bir nöqtədir. Reallıq isə ondan ibarətdir ki, Azərbaycan sərhədçiləri 2019-cu il avqustun 16-da Ermənistan-Azərbaycan sərhədində strateji yüksəklikləri ələ keçirdikdə və Gürcüstan tərəfə baxan Babakər dağının yamacında yerləşən erməni qoşunları Azərbaycan Ordusunun "silahının altında" görünən kimi tez bir zamanda Gürcüstan ərazisini tərk etdilər. Azərbaycan sərhədçiləri Gürcüstanın beynəlxalq səviyyədə tanınan sərhədlərini heç vaxt pozmayıb və Gürcüstan ərazisinə bir metr də olsun daxil olmayıblar. Lakin buna baxmayaraq, erməni saxta informasiya maşını xarici mediada təxribat xarakterli məqalələrlə "hay-küy" salmağa çalışır.

Tarix boyu ermənilərin əsas ideologiya mərkəzləri erməni kilsələri olub. Bu kilsələr digər dini qurumlardan fərqli olaraq sülhə, əmin-amanlığa deyil, işğalçılığı təbliğ etməyə və ölkələr arasına nifaq salmağa köklənibləar. 2017-ci ilin noyabrında Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycana qarşı təxribat xarakterli növbəti tədbir təşkil edildi. Gürcüstandakı erməni apostol kilsəsinin Tbilisidəki Ayartun mərkəzində qondarma "Dağlıq Qarabağ Respublikası"ndan olan yeddi gənc rəssamın əsərlərindən ibarət "Dirçəliş" adlı sərgi açıldı. Ermənilərin bu addımı gürcü alimi Quram Marxuliya tərəfindən də qəti şəkildə pislənildi və munasibətlərə zərər vuran təxribat olduğu vurğulandı.

Erməni kilsəsinin bu səpkili tədbirləri davamlı xarakter daşıyır. Belə təxribatlardan biri də Azərbaycan mətbəxinə qarşı yönəldilib. 2019-cu ildə Tbilisidəki Gevorg kilsəsinin həyətində Azərbaycan dolmasını milli yeməkləri kimi təqdim edib "Tolma-2019" adlı festival təşkil etdilər. Göründüyü kimi, ermənilər yalnız Ermənistanda deyil, dünyanın müxtəlif ölkələrindəki kilsələrin köməyi ilə nüfuzundan öz yalanlarını yaymaq məqsədi ilə istifadə edirlər.

Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin 2019-cu il hesabatına görə, ölkədəki ermənilər və ermənipərəst qüvvələr Gürcüstanın qonşuları ilə, ilk növbədə, Azərbaycanla münasibətlərini pozmağa cəhd edirlər. Həmin hesabatda yazıldığı kimi, xarici ölkələrin xüsusi xidmət orqanları informasiya müharibəsindən, yalan məlumatlardan və təbliğat kampaniyasından istifadə edirlər. Ermənistan Respublikası Gürcüstandakı ermənipərəst diasporu və ermənipərəst qüvvələr vasitəsi ilə öz səylərini bu sahədə birləşdirir.

Gürcüstanda milli azlıqların nümayəndələrinin problemləri ilə məşğul olmaq üçün Prezident, Tbilisi merliyi, Ombudsman yanında Milli azlıqlar məsələləri üzrə şuralar fəaliyyət göstərir. Lakin bu şuraların etnik tərkibi eynidir. Burada etnik ermənilər və gürcüləşmiş ermənilər (gürcü soyadını qəbul edərək öz mənşəyini gizlədənlər), həmin şuraların rəhbərlərinin 95 faizini, onun tərkibinin 50 faizdən artığını təşkil edirlər. Bununla da onlar səs çoxluğu ilə istədikləri məsələləri öz xeyirlərinə həll etmək iqtidarındadırlar. Gürcüstan Elm və Təhsil Nazirliyində də müxtəlif vəzifələr tutan erməniəsilli məmurlar orta məktəb tarix dərsliklərində Gürcüstan-Azərbaycan və Gürcüstan-Türkiyə münasibətlərinə xələl gətirə biləcək "fakt" və "materialları" yerləşdirirlər. Şagirdlərin gələcəkdə dövlət adamı, siyasətçi, ictimai xadim, yazıçı, jurnalist, alim və digər peşə sahibləri olacaqları nəzərdən qaçırılmasa, bu fəaliyyətin Gürcüstanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin soyuqlaşdırılmasına yönəldiyi aydın olur. Deməli, Gürcüstanda gürcü soyadları ilə dövlət və hakimiyyət qurumlarında işləyən ermənilərin fəaliyyətləri də dövlətlərarası münasibətlər üçün təhdiddir.

Fakt və materiallar göstərir ki, Azərbaycan-Gürcüstan münasibətlərinin pozulması üçün çalışan qüvvələr aşağıdakılardır: Ermənistan dövlət və hökumət nümayəndələri, Ermənistan informasiya vasitələri, erməni diaspor təşkilatları, xaricdə yaşayan ermənipərəst siyasətçilər və elm adamları, xaricdəki ermənipərəst media nümayəndələri, Gürcüstandakı Ermənistan səfirliyi, Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları, Gürcüstanın erməni mənşəli əhalisi, Gürcüstanda fəaliyyət göstərən erməni mənşəli informasiya mənbələri, Gürcüstanda fəaliyyət göstərən erməni kilsəsi.

Ermənilərdən fərqli olaraq Gürcüstanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar ən çətin və mürəkkəb zamanlarda gürcülərə köməyə gəlib, Gürcüstanı yadelli qüvvələrdən qorumaqda fədakarlıq ediblər. 1918-1920-ci illərdə Daşnak Ermənistanı Gürcüstana qarşı hərbi təcavüz edərkən azərbaycanlılar silaha sarılaraq gürcülərlə çiyin-çiyinə döyüşüblər. Bu fədakarlıq dövlət müstəqilliyi bərpa edildikdən sonra Abxaziyada separatçılığa qarşı döyüşlərdə də özünü göstərib.

Münasibətlərin qorunması və yüksələn xətlə inkişafı hər iki dövlət üçün olduqca əhəmiyyətlidir. Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı regionda sabitliyin, iqtisadi inkişafın zəmanətidir. Azərbaycan dövləti Gürcüstanın iqtisadi inkişafının hərəkətverici qüvvəsidir. Gürcüstan öz növbəsində tranzit ölkə kimi Azərbaycan üçün olduqca vacib tərəfdaşdır. Qədim tarixi tellərlə bir-birinə sıx bağlı olan hər iki dövlətin inkişafı münasibətlərin səviyyəsi ilə birbaşa əlaqəlidir. İki dövlət bütün sahələrdə - diplomatik-siyasi, iqtisadi, nəqliyyat, enerji, humanitar, mədəni və s. sahələrdə tərəfdaşdır, birlikdə iri regional layihələr həyata keçirirlər.

*Münasibətlərin pozulması Azərbaycana və Gürcüstana heç nə qazandırmaz, hər iki dövlətə ziyan verər. Qazanan tərəf isə işğalçı Ermənistan olar. Bu səbəblərdən Azərbaycan-Gürcüstan münasibətlərinin indiki vəziyyəti qorunub-saxlanılmalı, daha da inkişaf etdirilməli və təxribatların qarşısı qətiyyətlə alınmalıdır.*

***Samirə HƏBİBBƏYLİ,***
***AMEA Qafqazşünaslıq İnstitutunun əməkdaşı***

# Sorosun sonbeşiyi

Qafqazın siyasi dumanları seyrəldikcə müəmmalar aydınlaşır və necə deyərlər, kimin kim olduğu görünür. Paşinyan Yerevanda demokratiya carçısı kimi peyda olsa da, bircə ilin içində bilindi ki, onun əsas vəzifəsi Sorosun zurnası altında dingildəməkdir. Ermənistan tarixində hakimiyyətə dırmaşan ən qaranlıq və müəmmalı fiqurlardan biri kimi bu adamın nə Ermənistana, nə də Qafqazda cərəyan edən demokratik proseslərə dəxli var.

İnsanın xarakterini anlamaq üçün gərək onun hərəkətlərinə və dediklərinə adi vaxtlarda yox, gərgin məqamlarda, kritik situasiyalarda fikir verəsən. Məxməri inqilabları ilə dünyanı qan çanağında boğan Sorosun (hələlik) sonuncu "övlad"ı Paşinyanın qeyri-adekvat hərəkətləri bir atalar sözünü yada salır: "Sonbeşik ya gic olar, ya bic". Nikolun son günlərdəki bəyanat və çıxışlarını xəlbirləyəndə onun lider kimi keyfiyyətsiz, vassal kimi manqurt, insan kimi simasız olduğu üzə çıxır.

Sorosun məxməri inqilablarının bətnində mayalanıb, Yerevanda beysbol kepkasında pırtlayıb meydana çıxan bu müəmmalı "lider"in erməni xalqına sanki heç bir dəxli yoxdur. O, bəyanatları ilə dövlət başçısından daha çox ruhi xəstəliklərin buketindən əziyyət çəkən ümidsiz zavallıya bənzəyir.

Paşinyanın davranışlarında bu anormallıqları üzə çıxarmaq üçün baş nazirin BBC-nin əməkdaşı Con Fişerə erməni dilində verdiyi müsahibəni ötəri nəzərdən keçirmək bəs edir. Əvvəlki müsahibəsində ingilis dilini zəif bildiyindən baş nazir demişdi ki, Qarabağ əhalisinin 18 faizi ermənidir.

BBC yazır ki, bu dəfə döyüş meydanındakı gərginliyin fonunda işğalçı qoşunların strateji geriləməsi baş nazirə imkan vermədi ki, heç olmasa ana dilində ingiliscə olduğundan yaxşı danışsın, çıxış etsin. Bir də əgər adamın beyni boşdursa, onu heç bir dildə danışmaq xilas etməz.

BBC-nin dərc etdiyi yazı müsahibədən daha çox savadsız beşinci sinif şagirdinə keçilən dərsə bənzəyir. Jurnalist əvvəldən axıra kimi Paşinyanı başa salmağa çalışır ki, o, reallıqları görmək iqtidarında deyil. Baş nazir isə israrla bir il əvvəl dediyi "Qarabağ Ermənistandır, ermənilərin torpağıdır" ifadəsini tutuquşu kimi yenidən təkrarlayır və uydurur ki, "regionda əhalinin 80 faizindən çoxu həmişə ermənilərdən ibarət olub".

Con Fişer izah edir ki, Azərbaycan torpaqlarının işğalının yeni ideoloqu nəinki azərbaycanlıların öz torpaqlarında yaşamaq hüququnu, hətta onların bu ərazilərdə mövcudluğunu inkar edir. "Qarabağın yalnız erməni torpağı olmasını tələb edən Paşinyan irqi təmizlik haqqında faşist şüarlarını səsləndirir. O, "məhz bu, Qarabağ münaqişəsinin mahiyyətini təşkil edir" deyəndə özünə görə haqlıdır. Bu, işğal edilmiş ərazilərdə etnik təmizləmələr aparan işğalçıların radikal millətçiliyi ilə Qarabağda yalnız bir millətin yaşamasını tələb etməyən normal insanlığın münaqişəsidir".

Paşinyan ilkin bəyanatının nasist mahiyyətini gizlətmək üçün anındaca uydurur: "Azərbaycan istəmir ki, orada ermənilər yaşasın". Əslində, Azərbaycan Ermənistanın işğalı altındakı Qarabağın bütün sakinlərini tamhüquqlu vətəndaşları sayır və çalışır ki, bu ərazilərdə sonsuz müharibələr bitsin və onun bütün sakinləri - azərbaycanlılar, ermənilər, ruslar və digərləri sülh və əmin-amanlıq şəraitində yaşasınlar. Bu isə Nikol Paşinyanı qane etmir. Çünki onun üçün "Qarabağ ermənilərin torpağıdır". C.Fişer Paşinyanın uzun zənguləsinə qulaq asıb soruşur: "Belə çıxır ki, Ermənistan heç bir kompromisə hazır deyil?" Paşinyan onun sözünü ağzında qoyur: "Yox, biz kompromisə hazırıq". Amma konkret heç nə demir, çünki bu, onun siyasətdə fərqli gedişləridir - vəd ver, amma konkret heç nə demə. C.Fişer baş nazirin yadına salır ki, beynəlxalq hüququn tələblərinə görə, Ermənistan Dağlıq Qarabağı və onun ətrafındakı rayonları zəbt edərək 25 ildən çoxdur işğal altında saxlayır. İşğalçı dövlətin baş nazirinin cavabı bütün dünyanı heyrətə sala bilər. O, "üzr istəyirəm, bu, həqiqət deyil" deyərək Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını danır.

Fişer Paşinyana izah edəndə ki, Ermənistanın Azərbaycan torpaqlarını işğalı faktı BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində əksini tapmışdır, Nikol rayon qəzetinin müxbirinin ağzından vuran keçmiş raykom katibləri kimi dirənir ki, "Sizin istinad etdiyiniz elə bir beynəlxalq sənəd yoxdur: "Siz BMT-nin Təhlükəsizlik Şurasının qətnaməsinə istinad edirsiniz, təəssüf ki, onu da çoxları oxumayıb. Orada bir kəlmə də yazılmayıb ki, Ermənistan nəyisə işğal edib".

Britaniyalı jurnalist israrla deyir: "Qətnamələrdə göstərilir ki, işğal edilmiş torpaqlar Azərbaycana məxsusdur və bu torpaqlar boşaldılmalıdır, gəlin bunu açıq etiraf edək". Cavab əvəzinə baş nazir uzunqulağı tərsinə minən çoban kimi jurnalistə sayaqlayır ki, Azərbaycan Qarabağ ermənilərinin genosidini törətmək istəyir. "Bu gün Qarabağ erməniləri həyatlarını itirmək təhlükəsi ilə üzləşirlər. Bütün problem ondadır ki, əgər Azərbaycan silahlı qüvvələri istədiklərinə çatsalar, bu, Qarabağ ermənilərinin qenosidi anlamına gələcək". Paşinyan bununla da bir yalan uydurur.

Britaniyalı jurnalist yenə də etiraz edir ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə etnik təmizləmələri planlaşdırmır. Bakının multikultural və çoxmillətli siyasəti belə bir proqramın reallaşmasını ehtimal etməyə yol vermir. Bu gün ermənilər Azərbaycanda tam azad yaşayırlar (ermənilər bu faktı da israrla danırlar) və azərbaycanlılarla birlikdə erməni işğalından əziyyət çəkirlər.

Müsahibənin sonunda Con Fişer sadəcə aydınlaşdırmaq istəyir ki, nə üçün Paşinyan döyüş əməliyyatları zamanı aramsız olaraq Putinə zəng vururdu? Onun nə cavab verdiyini deməyə ehtiyac yoxdur.

Con Fişer kiçik bir müsahibədə məxməri inqilabın İrəvana emissar təyin etdiyi tiranın mükəmməl surətini yarada bilib. Tarixi geri vərəqləsək, bu tiranın qəddarlıqda və vəhşilikdə Şaumyandan seçilmədiyini görəcəyik. Amma təəccüb doğuran odur ki, bir ingilis jurnalistinin gördüyü həqiqəti özlərini demokratik dəyərlərin qoruyucusu elan edən böyük güclər görməkdə çətinlik çəkirlər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir




Ermənistan ordusunun Azərbaycanda dinc əhalini hədəfə alması, o cümlədən oktyabrın 11-də Gəncədə yaşayış binasının ballistik raket zərbəsi ilə vurulması nəticəsində çox sayda insan tələfatı və dağıntılara səbəb olması qardaş Türkiyədə böyük hiddətlə qarşılanıb. AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri, eləcə də nüfuzlu şəxslər, sadə insanlar Ermənistanın törətdiyi müharibə cinayətlərinə bu və ya digər formada kəskin etirazlarını ifadə edirlər. Aksiya və yürüşlər keçirilir, sosial şəbəkə üzərindən təcavüzkar Ermənistanın bu cinayətkar əməllərinə son qoyulması tələb edilir. Konfrans və toplantılarda Azərbaycana dəstək çağırışları, şüarları səslənir.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop sosial şəbəkədə, Xarici İşlər Nazirliyi isə açıqlama ilə Gəncədə törədilən qanlı terror aktını kəskin şəkildə qınayıblar. Onlardan bəzilərini təqdim edirik - Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay özünün "Twitter" hesabından yazıb: "Atəşkəs razılaşmasının üstündən 24 saat keçməmiş yenə də dinc əhalini hədəfə alan Ermənistan insanlıq əleyhinə cinayət törədib. Dünya ictimaiyyəti bu ikiüzlü hərəkətləri görməməzliyə vuraraq Ermənistanın cinayətlərinə ortaq olmaqdadır. Şəhid olan qardaşlarımıza Allahdan rəhmət diləyirəm".

Ədliyyə naziri Abdulhamit Gül Gaziantəpdə Ədalət və İnkişaf Partiyasının (AKP) konfransındakı çıxışında deyib: "Haqlı mübarizələrində sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq. Qarabağ işğaldan azad edilənədək, Azərbaycan istədiyi nəticəni alanadək daim onların yanında olacağıq".

Türkiyənin Xarici İşlər nazirinin müavini Yavuz Selim Kıran sosial şəbəkə hesabında qanlı terror aktı ilə bağlı bu sözləri yazıb: "Ermənistanın Gəncəyə hücumu onun qanunsuz işğal siyasətini davam etdirmək üçün beynəlxalq humanitar hüququ pozduğunu və atəşkəs dilində danışmağı bacarmadığını göstərdi".

❖ ❖ ❖



"Ermənistanın cinayətkar əməlləri yeni deyil. Bu dövlət hər zaman son dərəcə təcavüzkar davranıb, müharibə cinayətləri törədib. Bu cür fəaliyyətlərə adətkar da olublar. Ermənistan rəhbərliyi Dağlıq Qarabağ məsələsində son dərəcə məsuliyyətsiz davranır. Göstərilən himayədarlıq onları çox həvəsləndirib. Onlar nə beynəlxalq hüquqa, nə də insani dəyərlərə hörmət qoymur". AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar söyləyib.

Nazir deyib: "Ermənilər məsələlərə əxlaq prizmasından yanaşmaqdan çox uzaqdırlar. Gəncə və bir çox yaşayış məntəqələrinə amansız hücumlar etdilər və bunu davam etdirirlər. Bütün bunlar atəşkəsin pozulması anlamına gəlir. Dinc insanlara qarşı amansız hücumlar edilir. Gün gələcək və Ermənistan həm tarix, həm də beynəlxalq hüquq qarşısında cinayətlərinin hesabını verəcək".

❖ ❖ ❖



İtaliya parlamentində İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü, senator Stefano Luçidi Ermənistan hərbi qüvvələrinin atəşkəs rejimini pozaraq Gəncə şəhərini və oradakı mülki əhalini raket hücumuna məruz qoymasını pisləyən açıqlama verib. AZƏRTAC xəbər verir ki, italyan senator Azərbaycan və Ermənistanın Moskvada Rusiya tərəfindən təşkil edilmiş üçtərəfli görüşdə oktyabrın 10-u saat 12.00-dan etibarən atəşkəslə bağlı razılaşdığını və həmin görüşdə tərəflərin eyni zamanda ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin sülh yolu ilə həlli üçün danışıqların bərpa edilməsi ilə bağlı qərar verdiyini diqqətə çatdırıb.

Ermənistan tərəfindən atəşkəsin pozulması və Azərbaycan şəhərlərinə qarşı kaset bombalardan hücumlar etməsi ilə bağlı xəbərlərin daxil olduğunu bildirən senator Luçidi qeyd edib ki, Ermənistan silahlı qüvvələri oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri olan və təmas xəttindən uzaqda yerləşən Gəncə şəhərinə raket hücumları edib, nəticədə 10 nəfər mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanıb.

Senator İtaliya hökumətinin Moskvada əldə olunan atəşkəsin pozulmasını qəti şəkildə pisləməli olduğunu deyib, bu bölgədə sabitliyin təmin edilməsinin istər əhalinin təhlükəsizliyi, istərsə də İtaliyanın maraqları baxımdan çox vacib olduğunu vurğulayıb.

❖ ❖ ❖



İtaliya Senatında "İrəli İtaliya" partiyası siyasi qrupunun sədr müavini, İtaliya Parlamentində İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədr müavini, senator Maria Rizzotti Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozması və çoxsaylı mülki şəxslərin həlak olması və yaralanması ilə nəticələnmiş Azərbaycanın müxtəlif yaşayış məntəqələrini raket atəşinə tutmasını qəti şəkildə pisləyən bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, beynəlxalq diplomatiyanın ən qısa zamanda Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün müdaxilə etməli olduğunu deyən senator Maria Rizzotti vurğulayıb: "Azərbaycan hərbi təcavüzə məruz qalmış ölkə olmasına baxmayaraq, beynəlxalq ictimaiyyətin atəşkəslə bağlı çağırışlarını qəbul etdi. Son 24 saat ərazində baş verənlər Ermənistanın atəşkəsi kobud şəkildə pozaraq toqquşmaları gərginləşdirməsinə növbəti bir sübutdur. Ermənistanın raket hücumları nəticəsində 10 mülki şəxs həlak olmuş və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanmışdır".

İtalyan senator qeyd edib ki, Azərbaycan əhalisinə qarşı soyqırımı və müharibə cinayətləri törədən Ermənistan silahlı qüvvələrini dərhal dayandırmaq mənəvi öhdəlikdir.

Bəyanatının sonunda senator M.Rizzotti beynəlxalq ictimaiyyətdən və İtaliya hökumətindən gözləntilərinin Azərbaycan xalqına qarşı bu vəhşi hərəkətləri qəti şəkildə pisləmələri, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Ermənistandan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmağı tələb etməli olduğunu deyib.

İtalyan senatorunun bəyanatı İtaliyanın Agenzia Nova xəbər agentliyi tərəfindən yayılıb.

❖ ❖ ❖



Aşkardır ki, Dağlıq Qarabağ münaqişəsinin "qaynar mərhələ"yə keçməsi danışıqlar prosesini pozmuş Ermənistanın rəsmi hakimiyyət orqanlarının əməllərinin nəticəsidir.

RF Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində bu barədə danışıb.

Deputat qeyd edib ki, bütün dünya birliyi bu münaqişənin hərbi mərhələdən diplomatik müstəviyə keçməsini, qan tökülməsinə son qoyulmasını səbirsizliklə gözləyirdi. Siyasətçi deyib: "Nəhayət, Moskvada atəşkəs barədə razılığa gəlmək mümkün oldu. Bütün dünya birliyi bu diplomatik irəliləyişi ürəkdən alqışlayırdı, belə bir ümid yaranmışdı ki, Azərbaycanın haqlı tələbləri, nəhayət, təmin ediləcək, işğal altında olan torpaqlar azad ediləcək, qaçqınlar öz evlərinə qayıdacaq və Dağlıq Qarabağın statusunun müəyyən edilməsi üzrə dinc referendum prosesi başlanacaq".

D.Savelyev bu ümidlərin doğrulmamasına görə təəssüfləndiyini bildirib. Rusiyalı deputat vurğulayıb: "Səmimi, istiqanlı insanların yaşadığı gözəl Gəncə şəhərinin atəşə tutulması, bu zaman 9 nəfərin həlak olması, daha 34 nəfərin yaralanması rəsmi Ermənistanın günahı kimi qalacaq. Şəhərin atəşə tutulmasından sonra sosial şəbəkələrdə yerləşdirilmiş kadrlarda dağıdılmış evləri görəndə insanın ürəyi sıxılır. Dinc şəhərlərin və onların sakinlərinin hücum obyektlərinə çevrilməsi yolverilməzdir. Bu cür hərəkətlər dünya birliyi tərəfindən qətiyyətlə pislənməlidir. Başı çox bəlalar görmüş Azərbaycan torpağı sülhün bərqərar olmasını gözləyir, bu sülhə nail olmaq üçün bütün diplomatik səylər tətbiq edilməlidir".

❖ ❖ ❖



Vaşinqtondakı Xəzər Siyasi Mərkəzi ilə əməkdaşlıq edən beynəlxalq münasibətlər sahəsində amerikalı ekspertlər erməni təcavüzünün davam etməsi, Qarabağ münaqişəsində qısamüddətli atəşkəs və Gəncənin raket atəşinə tutulması barədə rəylərini bildiriblər. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda Ermənistanla Azərbaycan arasında döyüş əməliyyatları yenidən başlanandan sonra silahlı münaqişə geniş miqyas alıb, Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və işğal edilmiş daha yeddi rayonun hüdudlarından kənarda yerləşən yaşayış məntəqələrinə çoxsaylı hücumlar ediblər.

Məlum olduğu kimi, oktyabrın 4-də Ermənistan işğal edilmiş ərazilərdən kənarda yerləşən Azərbaycan şəhərlərinə hücuma başlayıb, Dağlıq Qarabağdan 100 kilometrdən artıq məsafədə yerləşən, əhalisinin sayına görə Azərbaycanın ikinci şəhəri olan Gəncəyə raketlər atıb.

Ermənistan silahlı qüvvələri Azərbaycanın Yevlax rayonu ərazisində Bakı-Tbilisi-Ceyhan boru kəmərinə də zərbə endiriblər. Boru kəmərindən 10 metrə qədər aralıda 300-dən çox kaset bombası düşüb. Bu boru kəmərinin səhmdarları sırasına "BP", "ExxonMobil", "Equinor", "ENI", "Total" və "TPAO" şirkətləri daxildir. ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta qeyd edib ki, bu boru kəmərinin zədələnməsi həm strateji, həm də iqtisadi nəticələrə gətirib çıxara bilər.

ABŞ ordusunun istefada olan general-mayoru Maykl Repass qeyd edib ki, Ermənistan tərəfindən Azərbaycanın şəhərlərinə raketlər atılması regionda güc tətbiqinin əhəmiyyətli dərəcədə genişlənməsi deməkdir. Məsələn, Ermənistanın münaqişə zonasından kənarda yerləşən şəhərləri bilərəkdən hədəfə almaqla bağlı hərəkətləri döyüş əməliyyatlarının intensivliyinin və miqyasının artması deməkdir. Bu, Ermənistanın mülki obyektlərə zərbələr endirməyə, habelə əhali arasında çoxsaylı tələfata potensial baxımdan hazır olmasını nümayiş etdirir. Münaqişənin şaquli intensivliyinin eskalasiyası ilə əlaqədar Ermənistan yeni və əsasən qeyri-hərbi hədəflərə hücum edib və bu məqsədlə ölümsaçan silahlardan istifadə edib.

Sentyabrın 27-nə qədər mövcud olmuş status-kvo vəziyyətinə qayıtma ehtimalı azdır. ATƏT-in Minsk qrupunun ABŞ-dan olan keçmiş həmsədri, istefada olan səfir Riçard Hoqlandın fikrincə, beynəlxalq birliyin vasitəçiliyi ilə atəşkəs barədə razılığa gəlmək və razılaşdırılmış nizamlamaya nail olmaq məqsədilə yenə də beynəlxalq birliyin dəstəyi ilə ciddi danışıqlara başlamaq ideal olardı. Lakin bu halda beynəlxalq birlik təkidlə tələb etməli olacaq ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının Yerevanı işğal edilmiş ərazilərdən getməyə çağıran 4 qətnaməsini yerinə yetirməyi öhdəyə götürsün. Bundan əlavə, beynəlxalq birlik yekdillikdə təsdiq etməlidir ki, Azərbaycanın suveren ərazisinə soxulmuş və onu işğal etmiş Ermənistan postsovet məkanında ən sərt beynəlxalq standartlardan birini - dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı prinsipini pozub. Nəhayət, bu məqam Avropada və dünyanın digər hissələrində sülhün bərqərar olmasına və qorunub saxlanmasına kömək etmiş qaydalara əsaslanan beynəlxalq münasibətlər sistemi üçün çox vacibdir. ABŞ-ın postsovet məkanında əsas siyasəti keçmiş Sovet İttifaqı respublikaları müstəqillik əldə etdiyi andan etibarən heç vaxt dəyişməyib - Birləşmiş Ştatlar həmin ölkələrin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və müdafiə edir. Eyni prinsiplər həm Ermənistanın, həm də Azərbaycanın müdafiəsi üçün tətbiq edilməlidir.

İstefada olan kontr-admiral Ron Maklaren qeyd edib ki, Birləşmiş Ştatlar bu böhranın həllində fəal rol oynamalıdır. Ona görə ki, söhbət həm ABŞ-ın iqtisadi maraqlarından, həm də onun dünya miqyasında reputasiyasından gedir. Bu səbəbdən belə mübahisələrin həllinə kömək göstərmək üçün ABŞ-ın öz siyasəti olmalıdır.

❖ ❖ ❖



"Azərbaycan Respublikasının cəbhəyanı zona hüdudlarından kənarda yerləşən Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşlərinə tutulması nəticəsində 9 nəfər, o cümlədən 3 qadın həlak olub, daha 34 nəfər, o cümlədən 16 qadın və 6 azyaşlı uşaq həlak olub. Uşaqlar... Bu, dəhşətdir!"

Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

L.Marçenko deyib: "Ermənistan beynəlxalq hüququn normalarını və humanitar atəşkəs rejiminin tələblərini pozub. Mən öz vədlərini pozan hökuməti, xüsusən bu vədlər insan həyatı, dinc vətəndaşların həyatı ilə bağlı olduqda, anlaya bilmirəm! Həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verirəm".

❖ ❖ ❖



"Dağlıq Qarabağda baş verən hadisələrin gedişatını Ukraynada diqqətlə izləyirlər və biz olduqca narahatıq ki, elan olunan atəşkəs hətta bir sutka davam etmədi. Lakin Gəncədə baş verənlər barədə eşitmək çox ağır və həddən artıq xoşagəlməzdir. Mən həlak olanların ailələrinə və yaxınlarına başsağlığı vermək, həmçinin yaralananlara tezliklə sağalmalarını arzulamaq istərdim. Gəncənin cəbhə xəttindən azı 100 kilometr uzaqlıqda yerləşməsi öz yerində, üstəlik, mülki əhali hərbi münaqişənin iştirakçısı deyil, bu insanlar IV Cenevrə Konvensiyası ilə müdafiə olunub".

Bu barədə AZƏRTAC-a Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeri Kolyux deyib.

Onun sözlərinə görə, başa düşmək lazımdır ki, indi zərər çəkənləri onlar üçün zəruri olan hər şeylə təmin etmək və buna bənzər halların təkrarlanmasına yol verməmək çox vacibdir. "İndiki mərhələdə, çox təəssüf ki, tərəflər hərtərəfli atəşkəs əldə etməyiblər. Amma hər halda münaqişə beynəlxalq hüquq çərçivəsindən kənara çıxmamalıdır. Dinc əhaliyə hər hansı təhdidləri tamamilə istisna etmək lazımdır", - deyə Valeri Kolyux əlavə edib.

❖ ❖ ❖




Qərargahı Qətərin paytaxtı Doha şəhərində yerləşən, özündə 93 ölkədən on minlərlə müsəlman alimi və onlarca İslam alimləri birliklərini cəmləşdirən "Müsəlman Alimlərinin Beynəlxalq Birliyi" təşkilatı oktyabrın 10-da Ermənistanın təcavüzkar əməllərini qınayan və onu Azərbaycanın işğal edilmiş ərazilərindən geri çəkilməyə çağıran bəyanat qəbul edib.

Ölkəmizin Qətərdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda təşkilat Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini və hərbi təcavüzünü qınayaraq, zülm və işğalın məhvə məhkum olduğunu, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu və heç vaxt Ermənistan ərazisi olmadığını vurğulayıb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin Ermənistanı işğal etdiyi ərazilərdən çəkilməyə çağırdığı qeyd olunub.

Diqqətə çatdırılıb ki, BMT, Avropa Şurası, İslam Əməkdaşlığı Təşkilatı və sair beynəlxalq qurumların oxşar qərarlarına, eləcə də beynəlxalq hüquqa istinad edilərək, Ermənistan işğalçı və təcavüzkar dövlət hesab olunur.

Təşkilat Ermənistanı işğal etdiyi ərazilərdən dərhal geri çəkilməyə, Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu etiraf etməyə və bu istiqamətdə danışıqlara başlamağa çağırıb. Həmçinin sülhün və əmin-amanlığın bərqərar olması üçün tərəflər döyüşləri dayandırmağa çağırılıb.

❖ ❖ ❖

TÜRK KENEŞİ TURKIC COUNCIL

Türk Şurası Azərbaycanın Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulmasını pisləyən bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda Türk Şurasının Azərbaycan şəhərlərinin və mülki əhalisinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulmasını qətiyyətlə pislədiyi və bunun beynəlxalq hüquqa zidd olduğu bildirilir: "Bu cür hücumlar dayandırılmalı və işğalçı qüvvələr Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxmalıdır".

❖ ❖ ❖



Amerikanın paytaxtında böyük nüfuza malik Amerika Milli Təhlükəsizlik Yəhudi İnstitutu (Jewish Institute for National Security of America - JINSA) tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair vebinar keçirilib. Görüşün iştirakçıları JİNSA-nın İcraçı direktoru Maykl Makovski, Mərkəzi Asiya, Qafqaz və Türkiyə ölkələri üzrə tədqiqatçı Svante Kornel və Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov olub. AZƏRTAC xəbər verir ki, Mayk Makovski son günlər Ermənistan və Azərbaycan arasında gərginliyin artmasından danışıb. Səfir Elin Süleymanov hazırkı döyüşlərin Azərbaycan ərazisində baş verdiyi və Azərbaycanın torpaqlarının işğalını təsdiq edən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin tələblərinə əməl edərək, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını təmin etməli olduğunu diqqətə çatdırıb.

Səfir bildirib ki, cari ilin iyul ayında təmas xəttindən kənarda Ermənistanın Azərbaycana Tovuz rayonu istiqamətində hücumu Azərbaycanın enerji layihələrinə zərbə vurmaq məqsədini daşıyırdı. Sentyabrın 27-də Ermənistan yenidən Azərbaycana hücum edərək növbəti təxribat törədib. Hücumlar zamanı Ermənistan mülki əhalinin yaşadığı Azərbaycanın ikinci böyük şəhəri Gəncə və elektrik stansiyanın yerləşdiyi Mingəçevir şəhəri, Bərdə rayonunu artilleriya atəşinə tutaraq dinc əhalini hədəfə alıb. Regionda sülhün bərqərar olması üçün Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən silahlı qüvvələrini çıxarmasının vacib şərt olduğu diqqətə çatdırılıb. Eyni zamanda Azərbaycanla İsrail arasında yaxın əməkdaşlıq və tərəfdaşlıq olduğunu, əlaqələrin çoxsaylı və uğurlu olmasını vurğulayan səfir E.Süleymanov deyib ki, Ermənistanın məqsədi məhz bu uğurlara zərər yetirməkdir. Halbuki Azərbaycan İsrail ilə müsəlman dövlətlər arasında münasibətlər üçün nümunədir. Səfir eyni zamanda təəssüf hissi ilə qeyd edib ki, hərbi təxribatlar və hücumlarla yanaşı, hazırda Ermənistan tərəfindən geniş dezinformasiya kampaniyası aparılmaqdadır. Bu dezinformasiya sovet zamanı klassik propoqandanın və əsası olmayan yalan məlumatların yayılmasından ibarətdir. Təəccübedici hal odur ki, özlərini peşəkar politoloq və jurnalist hesab edən şəxslər heç bir faktoloji yoxlama aparmadan bu kimi yalan məlumatı xəbər kimi təqdim etməkdədir. Belə bir dezinformasiyanın məqsədi Azərbaycan torpaqlarının işğal edilməsi, mülki əhaliyə hücumları və bölgəyə terrorist qrupların cəlb olunması barədə məlumatlar yaymaqdır.

Svante Kornell Azərbaycanın strateji əhəmiyyətini vurğulayıb, regionda vacib rolunu nəzərə çatdırıb. Həmçinin NATO-nun Əfqanıstandakı kontingentini də bu tranzit bölgə vasitəsilə təchiz etdiyi bildirilib. Diqqətə çatdırılıb ki, bu münaqişəni davam etdirdikcə Ermənistan özünü regionda təcrid edir. Daha sonra Kornell bu münaqişədə Rusiya və Türkiyənin təsiri barədə fikirlər səsləndirib və ATƏT-in Minsk qrupunun fəaliyyətini Qərb diplomatiyasının uğursuzluğu kimi dəyərləndirib.

❖ ❖ ❖




Cakartada İndoneziya İslam Əməkdaşlıq Təşkilatı Gənclər Təşkilatının (İndoneziya İƏT GT) təşəbbüsü və Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, xüsusilə son günlər Ermənistanın cəbhədə son təxribatlarına həsr olunmuş beynəlxalq vebinar keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirin təşkilində əsas məqsəd İndoneziya ictimaiyyətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə daha ətraflı məlumatlandırmaqdan və bu münaqişə zəminində hazırda cərəyan edən proseslərin daha geniş kütləyə çatdırılmasından ibarət olub.

Vebinarda İndoneziya İƏT Gənclər Təşkilatının baş katibi xanım Astrid Nadya Rizgita, İƏT Gənclər Forumunun sabiq vitse-prezidenti Tantan Taufiq Lubis, Azərbaycanın İndoneziyadakı səfirliyinin ikinci katibi İntiqam Hüseynov, Bakı Dövlət Universitetinin müəllim-doktorantı Sultan Zahidov və Kəşmir Gənclər Forumunun icraçı direktoru Əhməd Qureyşi əsas məruzəçi qismində çıxış ediblər.

Əvvəlcə İndoneziya İƏT Gənclər Təşkilatının prezidenti Şafi Əfəndinin Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə bağlı bəyanatı səsləndirilib.

Tədbiri giriş nitqi ilə açan İƏT Gənclər Forumunun sabiq vitse-prezidenti Tantan Taufiq Lubis sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təxribatı, Azərbaycanın haqq işinin İndoneziya ictimaiyyətinə çatdırılması, eyni zamanda erməni vandalizminin indoneziyalı rəsmilər tərəfindən qınanması istiqamətində təşkilatın əməli fəaliyyətini diqqətə çatdırıb. O, Ermənistan tərəfinin humanitar atəşkəs barədə razılaşmanı kobud şəkildə pozaraq, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni və digər şəhərləri raket zərbələrinə məruz qoyması nəticəsində həyatını itirənlərin və yaralananların olmasından təəssüf hissi keçirdiyini bildirib. Erməni vandalizminin İndoneziya ictimaiyyətinə çatdırılması məqsədilə zəruri tədbirlər görüldüyünü qeyd edib.

Dağlıq Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu vurğulayan İndoneziya İƏT Gənclər Təşkilatının baş katibi A.Rizgita İndoneziya hökumətinin bu münaqişəyə lazımi diqqət göstərməməsindən təəssüfləndiyini ifadə edib. O, Ermənistanın işğalçı dövlət olduğunu bəyan edərək, bu faktın BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi müvafiq qətnamələri ilə də təsdiqləndiyini diqqətə çatdırıb. İndoneziyanın Ermənistan ilə diplomatik münasibətlərə malik olduğunu qeyd edən baş katib, ölkə rəhbərliyinin Azərbaycanın son addımlarının ərazi bütövlüyünü bərpa etmək üçün atdığını Ermənistan tərəfinə çatdırmalı olduğunu qeyd edib. A.Rizgita İndoneziya XİN-in "Twitter" üzərindən oktyabrın 1-də yaydığı bəyanata toxunaraq, bu xüsusda İndoneziya Prezidenti Coko Vidododan, Xarici İşlər naziri xanım Retno Marsudidən Azərbaycana daha açıq dəstək göstərmələrini xahiş edib. Ermənistan tərəfinin humanitar atəşkəsi pozaraq Gəncədə və digər şəhərlərdə yaşayan mülki şəxslərə qarşı hücumlarını pisləyən A.Rizgita İndoneziya ictimaiyyətinin buna layiqli hüquqi qiymət verməli olduğunu deyib.

Çıxış edən İntiqam Hüseynov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin siyasi və hüquqi aspektləri barəsində geniş məlumat verib. Ermənistanın baş naziri Nikol Paşinyanın və digər rəsmilərin son illərdə səsləndirdiyi absurd bəyanatlar, xüsusən Ermənistanın "yeni ərazilər üçün yeni müharibə" taktikası, iyul təxribatı və son olaraq sentyabrın 27-də Azərbaycana qarşı hücum cəhdi haqqında ətraflı danışıb. Hazırda baş verənlərin bütün məsuliyyətinin Ermənistanın hərbi və siyasi hakimiyyətinin üzərinə düşdüyünü diqqətə çatdırıb.

Bakı Dövlət Universitetinin müəllim-doktorantı Sultan Zahidov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi aspektləri, ermənilərin tarixi Azərbaycan torpaqlarına yerləşdirilməsi, münaqişənin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqların tarixi və mahiyyəti, eləcə də Ermənistan tərəfinin danışıqlar prosesində tutduğu qeyri-konstruktiv mövqe barədə təqdimatla çıxış edib.

Kəşmir Gənclər Forumunun icraçı direktoru Əhməd Qureyşi də öz növbəsində Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırılmasının vacibliyini qeyd edib. Azərbaycan diplomatiyasının bu istiqamətdə apardığı uğurlu fəaliyyəti yaxından izlədiyini vurğulayıb. Pakistan dövlətinin və xalqının qardaş Azərbaycanın yanında olduğunu bəyan etməkdən məmnunluq duyduğunu bildirib. Natiq Ermənistanın humanitar atəşkəs razılaşmasına əməl etməyərək Azərbaycanın mülki yaşayış obyektlərini atəşə tutması nəticəsində həlak olan şəxslərin ailələrinə başsağlığı verdiyini, yaralananlara şəfa dilədiyini söyləyərək, bu addımın terrorçu mahiyyət daşıdığını və dünya ictimaiyyəti tərəfindən qınanmalı olduğunu bildirib.

Sonda tədbir iştirakçılarının mövzu üzrə sualları cavablandırılıb, eyni zamanda #KarabakhIsAzerbaijan və #WeStandWithAzerbaijan şüarları səsləndirilib. Bundan əlavə, sözləri və musiqisi T.Lubisə məxsus mahnı səsləndirilib.

❖ ❖ ❖

nizami

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaxın tərəfdaşları olan tanınmış akademiklər Gəncə şəhərinin mülki əhalisinə və mədəni irsinə qarşı Ermənistan ordusunun təcavüzü ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar. AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir: "Hər zaman ədalət, mərhəmət, harmoniya və ümumdünya qardaşlıq tərəfdaşlığını təbliğ edən Nizami Gəncəvinin vətəni olan Gəncənin mülki əhalisinə qarşı Ermənistan silahlı qüvvələrinin hücumlarını kəskin şəkildə qınayırıq. İnsanlardakı fərqliliklərə baxmayaraq, Gəncə şəhəri və Nizaminin məqbərəsi ümumdünya irsinə aid önəmli abidələrdəndir. Bir millətin mədəni irsini hədəfə almaq heç bir şəkildə bəraət qazana bilməz. Ermənistanın zorakılığını kəskin şəkildə qınayırıq, eyni zamanda Birləşmiş Millətlər Təşkilatını və UNESKO-nu öz rollarını oynamağa, bəşəriyyətin irsini xilas etmək üçün tez bir zamanda məsələyə müdaxilə etməyə, Ermənistanı Azərbaycana qarşı təcavüzünü dayandırmaq üçün fəal iştiraka çağırırıq".

❖ ❖ ❖



İranın nüfuzlu din xadimi Ayətullah Nuri Həmədani Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirib. AZƏRTAC xəbər verir ki, yazılı açıqlama yayan Ayətullah Azərbaycan Respublikasında səfərdə olduğunu, xalqları və bölgəni yaxından tanıdığını diqqətə çatdırıb. Qeyd edib ki, Dağlıq Qarabağ İslam dünyasının bir parçasıdır və işğaldan azad olunmalıdır.

Ayətullah vurğulayıb ki, İran ilə Azərbaycan arasındakı xoş və mehriban münasibətlər bəzi qüvvələri narahat edir. Bu münasibətləri korlamağa cəhd edirlər. Xalqlarımız ayıq olmalı, təxribatlara uymamalıdır.

❖ ❖ ❖



Atəşkəs rejiminin Ermənistan tərəfindən pozulması əvvəl əldə edilmiş razılaşmaları düyünə salır. Ermənistan bundan əvvəl də razılaşmaları dəfələrlə pozub, lakin indi belə təsəvvür yaranır ki, o, belə hərəkətləri qəsdən edir, Azərbaycanın Gəncə şəhərinə zərbə endirir. Bu zərbə dinc əhali arasında insan tələfatına səbəb olub, Azərbaycan buna sakit münasibət bəsləyə bilməyəcək. AZƏRTAC-a bu fikirləri Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsova söyləyib.

Onun fikrincə, Ermənistan, çox ehtimal ki, cavab reaksiyası gözləyir. O istəyir ki, Bakı da Ermənistan şəhərinə zərbə endirilməsi barədə komanda versin, axı bu halda Paşinyan müdafiə olunmaq üçün tam əsasla KTMT-yə müraciət edə bilər, çünki müharibə həm də Ermənistan ərazisinə aid olacaq.

Politoloq deyib: "Belə aktı məqsədyönlü təxribat adlandırmaq olar. İndi çox şey rəsmi Bakının necə qərar qəbul edəcəyindən asılıdır. Vəziyyət isə mürəkkəbdir, ona görə ki, münaqişənin strateji inkişafı müəyyən ediləcək. Digər tərəfdən başqa bir versiyanı da nəzərdən keçirmək olar: erməni hərbi sərkərdələri Paşinyana tabe olmur və onlar Paşinyanı aradan götürmək üçün bu qərarı qəbul edirlər. Biz bilirik ki, həmin hərbçilər Respublikaçılar partiyasının Qarabağ klanına aid olan üzvləridir və onlar hakimiyyəti özlərinə qaytarmaq istəyirlər. Bundan ötrü Paşinyanı "ilişdirmək", onun bu münaqişəni həll etməyə qabil olmadığını göstərmək lazımdır. Sonra isə onu devirmək asan olacaq".

D.Qrevtsova vurğulayıb ki, beynəlxalq ictimaiyyət Ermənistanı məsuliyyətə çağırmalı və münaqişənin diplomatik həllini pozduğuna görə ona təzyiq göstərməlidir. O deyib: "Dinc əhaliyə və mülki obyektlərə hücumlar ATƏT-in həmsədrlərinə, o cümlədən münaqişənin həlli üçün hər cür səy göstərən Rusiyaya açıq-aşkar hörmətsizlikdir".

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Oktyabrın 11-də Ermənistan hərbi qüvvələri tərəfindən Gəncə şəhərinə raket atılması və nəticədə 9 mülki şəxsin həlak olması, eləcə də 35 şəxsin, o cümlədən azyaşlıların yaralanması ilə bağlı Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyi tərəfindən Niderland Xarici İşlər Nazirliyinə, parlamentə, siyasi partiyalara, ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatlara, insan hüquqları sahəsində fəaliyyət göstərən QHT, KİV-ə və Azərbaycan icmasına məlumat verilib. AZƏRTAC-a bu barədə Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, eyni zamanda səfirliyin internet səhifəsində və sosial şəbəkələrdə bu barədə məlumatlar yerləşdirilib.

Nəticə olaraq ölkənin artıq bir sıra KİV-ində Gəncədə baş vermiş erməni terroru haqqında məlumatlar yayımlanıb. "RTL Nieuws" televiziya kanalının rəsmi səhifəsində "Ermənistan və Azərbaycan arasında, nəhayət, atəşkəsin əldə edildiyi, lakin Ermənistan tərəfindən Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə raketin atılması nəticəsində atəşkəsin qısa müddətdə pozulduğu", eləcə də Ermənistan tərəfindən bunun inkar edildiyi bildirilib.

Ölkənin nüfuzlu "Teleqraf", o cümlədən "Trouw" və "Reformatische Dagblad" qəzetlərində dərc edilmiş "Ermənistan tərəfindən atılan raket atəşi nəticəsində Azərbaycanda ölənlər var" kimi məqalələrdə Ermənistan tərəfindən atılmış raket nəticəsində baş vermiş dağıntıların şəkli yerləşdirilib, eyni zamanda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatına istinad edilib və hadisə nəticəsində zərər görmüş insanların arasında uşaqların da olduğu qeyd edilib.

"NRC" qəzetində yerləşdirilmiş məlumatda Gəncənin münaqişə zonasından uzaq olduğu vurğulanıb və baş vermiş bu hadisənin münaqişədə yeni gərginliyə səbəb olacağı göstərilib.

❖ ❖ ❖




Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raketlə vurulması xəbəri Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan nüfuzlu "Arabnews" qəzetinin baş məqaləsi kimi dərc edilib. AZƏRTAC xəbər verir ki, Ermənistanın dinc sakinlərə qarşı vəhşiliyini əks etdirən fotoşəkillərin, Gəncə sakinləri ilə müsahibələrin və Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatının da yer aldığı məqalədə Azərbaycanın beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırdığı qeyd olunub.

"Rəsmi Bakı bəyan edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir", - deyə baş məqalədə vurğulanıb.

❖ ❖ ❖




Fransa mediasında "Le Dauphine", "Le Monde", "Ouest France" kimi portallar "Dağlıq Qarabağ: gecə erməni bombardmanı nəticəsində 9 azərbaycanlı həlak olub" adlı məqalələr dərc edib. AZƏRTAC xəbər verir ki, Fransa mətbuatı ermənilərin gecə mülki yaşayış zonası olan Gəncəni bombalaması nəticəsində 9 nəfərin öldüyünü və 30-dan çox yaralının olduğunu qeyd edib.

Bildirilib ki, humanitar məqsədlər üçün razılaşdırılmış atəşkəs rejiminə riayət olunmayıb və Ermənistan gecə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin dinc sakinlərini bombardman edib.

Məlumat Azərbaycan Xarici İşlər nazirinin "Twitter" hesabına istinadən dərc edilib.

❖ ❖ ❖



BBC telekanalı Ermənistanın Gəncə şəhərini raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin dağıntılar içində olduğu bildirilir. Bu görüntülərin Ermənistan tərəfindən atılan ballistik raketin qalıqları olduğu qeyd edilir. Vurğulanır ki, Azərbaycan Ermənistanı müharibə cinayəti törətməkdə ittiham edir.

Reportajda deyilir: "Aydın görünür ki, insanların məskunlaşdığı binaların, mənzillərin yerləşdiyi bu ərazi mülki hədəf olub. Dağıntılar arasında ətrafa səpələnmiş yataq dəstləri, döşəklər, örtüklər var. Hücum gecə saat 2 radələrində baş verib. Atəşkəs rejimi tətbiq olunmalı idi. Ancaq bu, daha çox total müharibəyə oxşayır".

Bəs sonra nə olacaq? Müxbir bu sualla Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə müraciət edib. Hikmət Hacıyev bildirib ki, indiki mərhələdə biz atəşkəs mərhələsinə əməl etməyə çalışırıq. Ancaq əlbəttə ki, ermənilər bizim mülki vətəndaşlarımıza qarşı hücumları davam etdirsələr, hər bir ölkənin olduğu kimi, bizim də özümüzü müdafiə hüququmuz var. Əgər Ermənistan Azərbaycanın mülki obyektlərinə hücumu davam etdirsə, o zaman Azərbaycan legitim hərbi hədəflərə qarşı lazımi tədbirləri görmək məcburiyyətində qalacaq.

❖ ❖ ❖




Malayziyanın BERNAMA dövlət informasiya agentliyi Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə və obyektlərə raket zərbələri endirməsinə dair növbəti məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, agentlik ölkəmizin Malayziyadakı səfirliyinə istinad edərək, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bu barədə kəskin mövqe ifadə edən 11 oktyabr tarixli bəyanatına geniş yer verib. Qeyd edilib ki, Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında əldə olunmuş humanitar atəşkəs razılaşmasına baxmayaraq, Ermənistanın silahlı qüvvələri həmin razılaşmanı kobud şəkildə pozub.

Hücum zamanı mülki vətəndaşların həlak olduğu və yaralandığı bildirilib, Ermənistan silahlı qüvvələrinin bundan əvvəl oktyabrın 4-də də Gəncəyə hücum etdiyi xatırladılıb.

Xəbərin sonunda malayziyalı oxuculara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə qısa məlumat da verilib. Dağlıq Qarabağ regionunun və ətraf 7 rayonun beynəlxalq səviyyədə Azərbaycanın tərkib hissəsi kimi tanındığı vurğulanıb. Həmçinin Malayziyanın münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində sülh yolu ilə nizamlama cəhdlərinə dəstək verdiyi bildirilib.

❖ ❖ ❖



Özbəkistanın "Interpress.uz", "tnews.uz", "fikr.uz","human.uz", "interfax.uz", "islamonline.uz" portalları Ermənistanın Gəncəni və Mingəçeviri raket atəşinə tutması ilə əlaqədar özbək və rus dillərində materiallar çap edib.

"Interpress.uz" portalı bildirir ki, Azərbaycan Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində yazır ki, Gəncə şəhəri humanitar atəşkəs rejimini pozan Ermənistanın Vardenis rayonundan raket atəşinə tutulub. Bu, hərbi cinayətdir və Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır. Erməni tərəfinin məqsədi Azərbaycan ərazilərini yenidən işğal etməkdir.

"tnews.uz" portalı Azərbaycan Xarici İşlər Nazirliyinin Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı bəyanatından sitat gətirir: "Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarlığın növbəti bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığını göstərir".

"islamonline.uz" portalı isə bəyanata istinadla bildirir ki, humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Vurğulanır ki, bir neçə saat sonra isə Ermənistan silahlı qüvvələri cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücum cəhdi göstərib.

Portalda Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir, ermənilərin zaman-zaman təxribatlar törətdiyi diqqətə çatdırılır.

"fikr.uz" və "interfax.uz" saytları yazır ki, humanitar atəşkəsi pozan Ermənistanın Gəncə şəhərini raket atəşinə tutması cəzasız qalmağın nəticəsidir. Belə ki, cəzasız qalmaq Ermənistanı gələcək hərbi cinayətlərə sürükləyir.

Portallar humanitar atəşkəs rejimi ilə bağlı Moskvada imzalanan üçtərəfli sənədin mətnini də çap edib.

"islamonline.uz" portalı bu gün də Rusiyadan Ermənistana silah və sursat daşındığını bildirir. Qeyd olunur ki, "Armenia-avia", "Nord-star" və "Atlantis Armenian Airlines" aviaşirkətlərinin mülki təyyarələri Ermənistana silah və sursat daşınması kampaniyasında iştirak edirlər.

❖ ❖ ❖




Gürcüstanın aparıcı informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsindən materiallar yayıb. AZƏRTAC xəbər verir ki, report.ge, pia.ge, 24news.ge, interpressnews.ge və digər portallarda materiallar oxuculara Azərbaycan, rus, gürcü və ingilis dillərində çatdırılır.

Azərbaycan Prezidentinin fikirlərinə istinadla verilən xəbərlərdə Azərbaycan Ordusunun daha bir neçə yaşayış məntəqəsinin erməni işğalından azad olunduğu, Türkiyənin ATƏT-in Minsk qrupuna üzv olmasının vacibliyi, Gəncə şəhərinin raket atəşinə tutulması barədə əmrin şəxsən Ermənistan baş naziri Nikol Paşinyan tərəfindən verildiyi və sair məsələlər əksini tapıb.

❖ ❖ ❖




Türkiyənin kütləvi informasiya vasitələri Prezident İlham Əliyevin oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına müsahibəsində səsləndirdiyi fikirlərinə, həmçinin Ermənistan ordusunun Gəncə şəhərində çoxmərtəbəli yaşayış binasının ballistik raketlə vurulmasına, eləcə də cəbhədəki vəziyyətə dair məlumatları geniş şəkildə yaymaqda davam edir. Anadolu agentliyi və TRT-nin bütün qurumları Azərbaycanla bağlı mövzunu əsas məsələ kimi gündəmdə saxlayır. AZƏRTAC xəbər verir ki, qardaş ölkə KİV-i döyüş meydanında aldığı məğlubiyyətlə barışmayan düşmən ordusunun azğınlıq edərək günahsız insanları hədəfə aldığı diqqətə çatdırılır. Telekanallar Ermənistanın Azərbaycana qarşı törətdiyi davamlı təxribatlarla bağlı xüsusi reportajları yayımlayır, münaqişə ilə bağlı ekspert rəyləri təqdim edir, cəbhə bölgəsindən birbaşa xəbərlər verir, Türkiyədə keçirilən dəstək aksiyalarını geniş işıqlandırır.

Məlumatlarla Anadolu, İHA, DHA agentlikləri, "TRT Haber", "Haber Türk", TGRT, "A Haber", "Haber Global", "Büngü TV", "CNN türk" telekanallarının, habelə "Akşam", "Milliyət", "Sabah", "Sözçü", "Yeni çağ" və sair nüfuzlu qəzetlərin, həmçinin yerli bölgə saytlarında tanış olmaq mümkündür.

❖ ❖ ❖



Qazaxıstanın kütləvi informasiya vasitələrində Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raket hücumları barədə məlumatlar dərc edilib. AZƏRTAC xəbər verir ki, ölkənin "newsroom.kz" "zakon.kz" "ainews.kz", "qamshy.kz" "adyrna.kz" , "abai.kz", "regtv.kz", "qazaqtimes.kz", "kursiv.kz", "mail.kz", "ea-news.kz" xəbər portallarında yayılan informasiyalarda Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzindəki yaşayış binasını gecə saatlarında raket hücumuna məruz qoyduğu bildirilir.

Qeyd olunur ki, humanitar atəşkəs haqqında razılaşmanın əldə edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılaşmanı kobudcasına pozmaqda davam edir.

Məqalələrdə atəşkəs rejimi qüvvəyə mindikdən dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonlarının artilleriya atəşinə tutulduğu diqqətə çatdırılıb. Bildirilib ki, bir neçə saat sonra Ermənistan silahlı qüvvələri Hadrut və Cəbrayıl istiqamətində hücuma cəhd göstəriblər.

Həmçinin vurğulanıb ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə Gəncənin raket atəşinə tutulması ilə əlaqədar cinayət işi başlanıb.

❖ ❖ ❖




"Euronews" saytında "Dağlıq Qarabağ: gərginliyin yeni mərhələsi" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Aİ üzvü olan ölkələrin xarici siyasət idarələrinin rəhbərlərinin oktyabrın 12-də keçirilməsi nəzərdə tutulan görüşündən bəhs edilir. Həmin görüşdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycan XİN başçılarının Moskvada keçirilmiş söhbətlərinin yekunlarına əsasən, humanitar atəşkəs haqqında bağlanmış saziş nəzərə alınmaqla müzakirə edilməsi nəzərdə tutulur.

Məqalədə vurğulanır ki, qarşıdurma vəziyyətində olan tərəflər həmin razılaşmanın pozulmasına görə bir-birini ittiham edir. Materialda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bəyanatına xüsusi yer ayrılıb. Həmin bəyanatda deyilir: "Bu, ermənilərin siyasi liderləri tərəfindən azərbaycanlılara qarşı soyqırımı aktıdır. Humanitar atəşkəs haqqında sənəd var. Lakin erməni silahlı qüvvələri elə ertəsi gün Gəncə şəhərinin əhalisi sıx olan rayonuna raket hücumu ediblər. Bu, müharibə cinayətidir. Bu, erməni tərəfin riyakarlığını bir daha nümayiş etdirir".

❖ ❖ ❖


AZERBAIYÁN ARMENIA NACIONALISMO (CRÓNICA)

"Karabaj es Azerbaiyán", el grito de guerra en Bakú

REDACCIÓN

Farid Gajramánov

Bakú, 12 oct (EFE).- "Karabaj es Azerbaiyán" se ha convertido en un mantra en Bakú, sea en las redes sociales, en la televisión, en las

İspaniyanın "La Vanguardia" qəzetində "Bakıda döyüş çağırışı: "Qarabağ Azərbaycandır!" adlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə "Qarabağ Azərbaycandır!" kəlamının Bakıda istər sosial mediada, istər televiziyada, dükanlarda və ya dayanacaqlarda şüara çevrildiyi diqqətə çatdırılır. Hər kəs doğma torpaqlarının geri qaytarılması arzusu ilə yaşayır.

İspan nəşri doğma kəndləri erməni işğalından azad edilmiş dinc sakinlərin səmimi sevinc sözlərinə də yer verir: "Vətənimizin bütövlüyünün bərpa edilməsi çox vacibdir. Qoşunlarımızın hücumu bizi qanadlandırır və torpaqlarımızın azad edilməsinə ümid verir. Müharibə son düşmən əsgəri ərazimizi tərk edənə qədər davam etməlidir. Ermənistan yeni reallığı nəzərə almalı və qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə həmişəlik barışmalıdır".

"La Vanguardia" Şuşa şəhərində musiqi məktəbi açmağı planlaşdıran Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəylidən sitat gətirir: "Şuşaya Qafqazın Konservatoriyası deyilir. Bura müsəlman dünyasında ilk opera olan "Leyli və Məcnun"un müəllifi Üzeyir Hacıbəylinin vətənidir. Şuşa Qarabağın ürəyidir".

"Qarabağ!" - bu, artıq onun adını daşıyan yerli futbol komandasının azarkeşlərinin çağırışı deyil, bütün xalqın sevinc çağırışıdır", - deyə qəzetdə vurğulanır.

❖ ❖ ❖




Rusiyanın "Kommersant" qəzetinin müxbiri Kiril Krivoşeyevin Qarabağda münaqişə zonasından və Gəncədən hazırladığı məqalə "Atəşkəsə "Toçka" qoyulur. Azərbaycana yenidən raketlər uçur" sərlövhəsi ilə dərc edilib. AZƏRTAC xəbər verir ki, müxbir əvvəlcə Tərtər rayonundan, burada Ermənistan ordusunun atdığı mərmilər nəticəsində dağılmış evlərin, yerli əhalinin zirzəmilərdə daldalanmasının şahidi olduğunu yazır. Müəllif bildirir ki, Bakıda Rusiya jurnalistləri üçün təşkil edilmiş brifinqdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Fuad Axundov, deputat Nizami Səfərov və "Bakinski raboçi" qəzetinin baş redaktoru Rəhman Hacıyev onları münaqişə zonasında baş verənlər barədə məlumatlandırıblar.

Oktyabrın 11-də səhər Ermənistan ordusunun Gəncəyə raket atmasını eşidərək şəhərə gələn rusiyalı müxbir raketin yaşayış binasına düşməsi nəticəsində dinc sakinlər arasında ölənlərin və yaralananların olduğunu, su anbarı və su elektrik stansiyasının yerləşdiyi Mingəçevirin də atəşə tutulduğunu yazır. Gəncədə yaşayış evinin tamamilə dağıldığı, ətraf tikililərə də ciddi ziyan dəydiyi bildirilir.

Məqalədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin brifinqdə Ermənistan tərəfinin atəşkəsi pozması, işğaldan azad edilmiş Cəbrayıl və Hadrutu geri qaytarmaq cəhdləri, Ağdamı atəşə tutması barədə fikirləri yer alıb.

❖ ❖ ❖




Çilinin "Infogate" xəbər agentliyində "Azərbaycan XİN Ermənistanın Ağdam və Tərtər rayonlarına atəşkəs şəraitində hücumlarını pisləyib" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə diqqətə çatdırılır ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün nəticəsi olaraq Moskvada əldə edilmiş humanitar atəşkəs rejiminə baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılaşmanı ciddi şəkildə pozmaqda davam edir. Qeyd olunur ki, Azərbaycanın Ağdam və Tərtər rayonları Ermənistan silahlı qüvvələrinin artilleriya atəşinə tutulmuş, bir neçə saatdan sonra isə Ermənistan Hadrut və Cəbrayıl rayonlarına hücum etməyə cəhd göstərmişdir.

Məqalədə bildirilir ki, oktyabrın 11-nə keçən gecə Ermənistan silahlı qüvvələri cəbhə xəttindən xeyli uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncəni atəşə tutub. Bu hücum nəticəsində 9 mülki şəxs öldürülüb, uşaqlar da daxil olmaqla 34 nəfər müxtəlif dərəcəli ağır yaralanıb.

Çili xəbər agentliyi Ermənistan silahlı qüvvələri tərəfindən dinc əhalinin və kəndlərin atəşə tutulmasını vandalizmin daha bir açıq əlaməti olduğunu və Ermənistan rəhbərliyi tərəfindən atəşkəs çağırışlarının ikiüzlülükdən başqa bir şey olmadığını yazır.

"Infogate" Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan tərəfindən edilən bu təcavüz aktlarını kəskin şəkildə pisləyən və beynəlxalq ictimaiyyəti təcavüzkar Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərə riayət etməyə məcbur etmək üçün qəti addımlar atmağa çağıran bəyanatına da istinad edir. Bəyanatda deyilir: "Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində mülki şəxslərin, evlərin, mülki obyektlərin və tibb işçilərinin məqsədyönlü bombardman edilməsi bir daha göstərir ki, bu ölkə beynəlxalq hüququn əsas normalarına və Cenevrə konvensiyalarına məhəl qoymur, öhdəliklərini açıq şəkildə pozur və humanizm prinsiplərindən çox uzaqdır".

❖ ❖ ❖




Azərbaycan beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırır. AZƏRTAC xəbər verir ki, Misirin "Aldiplomasy" nəşri bu sərlövhə ilə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatını yayıb.

Xəbərdə qeyd olunur ki, humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Bir neçə saat sonra isə Ermənistan silahlı qüvvələri cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma cəhd göstərib. Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu ağır yaralanıb. Bundan başqa, oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Bu hücum nəticəsində 9 mülki şəxs həlak olub, aralarında azyaşlılar olmaqla 34 nəfər yaralanıb.

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir.

❖ ❖ ❖




Almaniyanın daha bir nəşri - "WAZ" Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən gecənin bir aləmində barbarcasına atəşə tutulması barədə öz oxucularını məlumatlandırıb (bax: https://www.waz.de/politik/toedliche-gefechte-trotz-einigung-auf-waffenruhe-in-berg-karabach-id230642092.html). AZƏRTAC xəbər verir ki, materialda gəncəlilərin yuxuda ikən raket zərbələrinə məruz qalmaları barədə danışılır. Ölənlər və yaralananların sayı haqqında məlumat təqdim ediləndən sonra bir fakt da qeyd olunur ki, hücum tərəflərin atəşkəs barədə Moskvada əldə etdikləri razılaşmaya riayət olunması nəzərdə tutulan saatlarda törədilib.

❖ ❖ ❖




Oktyabrın 12-də Avstraliyanın SBS telekanalı Ermənistan ordusunun Gəncəyə raket hücumu barədə kadrlar yayıb. AZƏRTAC xəbər verir ki, kadrlarda Türkiyənin "TRT Haber" dövlət televiziya şirkəti tərəfindən təqdim edilən videomüşahidə kamerasından görüntülər yer alıb. Bildirilib ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə hücum nəticəsində 9 nəfər həyatını itirib, 34 nəfər yaralanıb.

Ermənistan ordusu tərəfindən həyata keçirilən bu raket hücumunun tərəflər arasında Rusiyanın iştirakı ilə əldə edilən humanitar atəşkəs barədə razılaşmadan cəmi bir sutka sonra həyata keçirildiyi də vurğulanıb.

Süjetdə hadisə yerinə gələn Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsinə də yer verilib. Onun hadisə ilə əlaqədar səsləndirdiyi "Ermənistan tərəfindən törədilmiş cinayətlər hərbi və siyasi təxribat kimi qiymətləndirilməlidir" fikirləri də televiziya tamaşaçılarına təqdim olunub.

Gəncə şəhərinin dinc sakinlərinə hücumunu qəti şəkildə pisləyən Hikmət Hacıyev düşmənin məqsədinin əhali arasında təşviş və çaxnaşma yaratmaq olduğunu, lakin buna nail ola bilməyəcəyini vurğulayıb.

❖ ❖ ❖



Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyi bu ölkənin yerli ictimaiyyətinə və KİV-ə müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, müraciətdə Ermənistanın sentyabrın 27-də Azərbaycana qarşı törətdiyi təxribatdan sonra, həmçinin bu ölkənin təbliğat maşınının ölkəmizə qarşı qarayaxma kampaniyasına başladığı, ölkəmizlə bağlı saxta məlumatlar yaydığı qeyd olunur. Bildirilir ki, təəssüflər olsun, bəzi siyasətçilər və ya KİV bilərəkdən, yaxud bilməyərəkdən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasının qurbanına, bəzən də özləri bu kampaniyanın icraçısı və ya təbliğatçısına çevrilirlər.

Müraciətdə Ermənistanın qarayaxma kampaniyası konkret misallarla izah edilir və sübutlara əsaslanaraq təkzib olunur. Ermənistanın ölkəmizin guya "Dağlıq Qarabağa hücum etməsi", "döyüşlərə Yaxın Şərqdən muzdluları cəlb etməsi", "mülki əhali və ya mülki obyektləri hədəfə alması" kimi şər-böhtan dolu, əsassız və normal məntiqə sığmayan iddialarından bəhs edilir. Vurğulanır ki, əhalisi 10 milyon olan və modern orduya sahib ölkəmizin öz ərazisində sülhə məcburetmə və antiterror əməliyyatları aparması üçün heç bir xarici köməyə ehtiyacı yoxdur, ölkəmiz öz silahlı qüvvələri ilə ərazi bütövlüyünü və suverenliyini təmin etmək iqtidarındadır.

Müraciətdə Ermənistanın xarici ölkələrdən muzdluları cəlb etmək sahəsində "böyük" təcrübəyə malik olduğu, Monte Melkonyan kimi beynəlxalq səviyyədə tanınmış terrorçuları öz qəhrəmanına çevirdiyi xüsusi qeyd edilir. Bu ölkənin Azərbaycana qarşı hücumlarda mülki əhalini hədəfə aldığı bildirilir və bu əsnada Xocalı soyqırımı xatırladılır.

Səfirlik müraciətində Almaniya ictimaiyyətinin və KİV-in nümayəndələrini erməni qarayaxma təxribatının qurbanına çevrilməməyə, yanlış və əsası olmayan məlumat və xəbərləri tirajlamamağa çağırır.

❖ ❖ ❖




Almaniyanın "Wochenblatt" nəşri daha əvvəl atəşkəs rejimi əldə olunmasına baxmayaraq, gecə saatlarında Gəncə şəhərinin atəşə tutulması barədə yazır (bax: https://www.wochenblatt.de/news-stream/deutschland-welt/artikel/340559/sieben-tote-nach-bombenangriff-auf-wohngebiet-in-aserbaidschan). AZƏRTAC xəbər verir ki, məqalədə Gəncə şəhərinin dinc sakinlərinin həlak olmasından danışılır. Nəşr Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin yaşayış ərazilərinə bazar günü erməni hərbçilərinin endirdiyi zərbələr nəticəsində uşaqların, qadınların həlak olması, 30-dan artıq insanın yaralanması barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Twitter" səhifəsindəki məlumatını yayıb.

Nəşrdə qeyd olunur ki, 1991-ci ildə birtərəfli qaydada özünün "müstəqilliyini" elan edən Dağlıq Qarabağın ərazisi beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır.

❖ ❖ ❖




Yaponiya kütləvi-informasiya vasitələri Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raket hücumları barədə məlumatlar yaymaqda davam edir. AZƏRTAC xəbər verir ki, Yaponiyanın NHK telekanalı, "The Japan Times", "Asahi shimbun" qəzetləri, JIJI PRESS agentliyi, "Yahoo Japan", "newsweekjapan" portalları bu barədə ətraflı məlumatlar yayıblar.

Böyük oxucu auditoriyasına malik olan "Asahi shimbun" qəzetinin yaydığı "Terror aktı nəticəsində 9 nəfər həlak olub" sərlövhəli məqalədə Ermənistan ordusunun Gəncə şəhərinə gecə saatlarında raket hücumundan bəhs olunub. Azərbaycanın rəsmi mənbələrinə istinadla qeyd edilib ki, humanitar atəşkəs barədə razılaşmanın əldə edilməsindən bir sutka keçməmiş Ermənistan ordusu mülki əhalinin yaşadığı şəhərlərə terror hücumları təşkil edib. Qeyd edilir ki, bu aktı törədəcək tərəfin hər kəsə bəlli olmasına baxmayaraq, Ermənistan tərəfi bunu inkar edir.

Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin hadisə ilə əlaqədar bəyanatına istinadla bildirilir: "Şəhər sakinlərinə atəşkəs barədə razılaşmadan sonra baş verən hücum Ermənistan rəhbərliyinin döyüşlərin dayandırılması barədə çağırışının yalan olduğunu təsdiq edir".

Yaponiyanın digər KİV-in yaydığı xəbərlərdə ötən gecə baş verən döyüş əməliyyatları barədə məlumatlar da yer alıb. Azərbaycan Müdafiə Nazirliyinə istinadla qeyd edilib ki, həmin terror hücumlarına cavab olaraq, ordumuz düşmənin hərbi hədəflərinə zərbələr endirib.

❖ ❖ ❖




Nüfuzlu "Frankfurter Allgemeine" qəzetində Azərbaycanın Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması barədə videoreportaj yerləşdirilib. AZƏRTAC xəbər verir ki, kadrlarda Gəncə şəhərinin yaşayış məhəllələrinin gecənin bir aləmində erməni silahlı qüvvələri tərəfindən barbarcasına atəşə tutulması nəticəsində əmələ gələn dağıntılar əks olunur.

Videoreportajda bu hadisələr barədə danışan şahidlərin müsahibələri də yer alıb.

❖ ❖ ❖




"Atəşkəs dövründə Azərbaycanda yaşayış ərazisinin bombardman edilməsi". AZƏRTAC xəbər verir ki, Almaniyanın "Deutschelandfunk.de" nəşrində dərc olunan material bu sərlövhə ilə verilib (bax: www.deutschlandfunk.de/berg-karabach-trotz-waffenruhe-bombenangriff-auf-wohngebiet.2932.de.html?drn:news_id=-1182245).

Materialda Ermənistan silahlı qüvvələrinin atəşkəs saatlarında Gəncə şəhərinə qarşı hücumundan danışılır. Nəşr Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun öz "Twitter" səhifəsində yuxuda olan Gəncə şəhərinin hücuma məruz qalması barədə dünyaya verdiyi xəbərə istinad edir. Erməni silahlı qüvvələri tərəfindən yaşayış ərazisinə gecə hücumu nəticəsində 9 nəfər həlak olub və 30-dan artıq insan yaralanıb. Nəşrdə xatırladılır ki, həmin axşam münaqişə tərəfləri Rusiyanın vasitəçiliyi ilə atəşkəs barədə razılığa gəlmişdilər.

Məqalədə qeyd edilir ki, qondarma "Dağlıq Qarabağ respublikası" beynəlxalq səviyyədə tanınmayıb və beynəlxalq hüquqa müvafiq surətdə Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilir.

# Dastana çevriləcək sədaqət nümunəsi

Azərbaycan qadınının qəhrəmanlığı, cəsarəti, sədaqət və etibarı zaman-zaman əfsanələşib, nağıllaşıb, şeirə, nəğməyə çevrilib. Əsrlərdən-əsrlərə körpü salaraq qüdrətli bir millətin mənəvi-əxlaqi dəyərlərini, milli kimliyimizi formalaşdırıb. Nüşabələr, nigarlar, həcərlər haqlı olaraq ulu bir millətin qürur mənbəyinə çevrilib.



Yenicə aldığım bir xəbər varlığımda sarsıntı yaratsa da, Azərbaycan qadını haqqında onsuz da yüksək olan təsəvvürlərimi daha uca zirvələrə, əlçatmaz uca göylərə qaldırdı.

Tərtər rayonunun Sarıcalı kəndindən olan Məmmədov Mehdi Elçin oğlu Ağdərənin erməni işğalçılarından azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Vətən uğrunda şirin canından keçən igid əsgərimiz oktyabrın 13-də böyük ehtiramla torpağa tapşırıldı. Düşmənə sonsuz nifrətlə, intiqam harayı ilə məzarlıqdan qayıdan kənd camaatına son dərəcə daha acı bir xəbər verildi. Mehdinin ay-ulduzlu bayrağa bükülmüş cənazəsi doğulduğu evin həyətindən çıxandan sonra nişanlısı Mələk ondan sonra yaşaya bilməyəcəyinə qərar verib intihar etmişdir.

Mələyin ölümündən əvvəl əlləri titrəyə-titrəyə yazdığı məktub, heç şübhəsiz, Azərbaycan xanımının dünyada başqa heç bir millətin qadını ilə müqayisə edilməyəcək əxlaqına, sədaqətinə, etibarına həsr ediləcək yeni-yeni bədii əsərlərin, şeir və mahnıların mövzusuna çevriləcək. Qəribədir, Mələk yazdığı məktubu ona gələn nişan boğçasında daha çox xoşladığı ətir şüşəsinə bükmüşdü.

Bahar ətirli bir ömür yaşadın, qızım! Bütün varlığınla sevdiyin oğlana, döyüş meydanında şəhid olub əbədiyyətə qovuşan Azərbaycan əsgərinə sədaqətini ölümünlə təsdiq etdin! Bütün dünyanı heyrətləndirəcək bu sədaqəti yalnız Azərbaycan qadını göstərə bilərdi.

Bəzən insanlar adlarını həyatda öz əməlləri ilə təsdiq edirlər. Bunu sən bacardın, Mələk! İndi ruhun göydəki mələklərlə birgə qanadlanır.

Sarıcalı kənd qəbiristanlığında Mehdi və Mələyin qəbri qoşa qazılıb. Bu dünyada qovuşmalarına şeytan xislətli mənfur düşmən macal vermədi. Qoy, Allah dərgahında qovuşsunlar, qoşa uyusunlar.

Qəbriniz nurla dolsun, yeriniz cənnət olsun!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 30 sentyabr 2020-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "Avtovağzal" - "Xocasən" elektrik deposu mənzil tunellərində və 1A saylı Ventilyasiya şaxtasında yanğın-texniki su xəttinin çəkilməsi işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "TMS LTD" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.10.2020-ci il tarixdə ƏDV daxil 179.772.88 (yüz yetmiş doqquz min yeddi yüz yetmiş iki manat 88 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün
## *kotirovka sorğusu elan edir*

Dezinfeksiya işləri.

Kotirovka sorğusunun başlama tarixi: 14.10.2020-ci il

Kotirovka sorğusu üzrə müraciətlər 16.10.2020-ci il saat 12:00-dək qəbul edilir.

Zərflərin açılışı 16.10.2020-ci il saat 14:00-da olacaqdır.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12.**

**Telefon nömrəsi: +99455 500-45-99; +99455 204-15-20**

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC işıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **"Bakı Metropoliteni" QSC-də işıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 250 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03 noyabr 2020-ci il saat 15:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12 noyabr 2020-ci il saat 15:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **13 noyabr 2020-ci il saat 15:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Azərbaycanda koronavirus infeksiyasına 277 yoluxma faktı qeydə alınıb, daha 64 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 277 yeni yoluxma faktı qeydə alınıb, daha 64 nəfər sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 42 min 381 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 468 nəfər müalicə olunaraq sağalıb, 612 nəfər vəfat edib. Aktiv xəstə sayı 2301 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 187 min 136 test aparılıb. Dünənki test sayı isə 6865-dir.

# ÜST kütləvi yoluxma yolu ilə koronavirusa qarşı kollektiv immunitet strategiyasını tənqid edib

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində kütləvi yoluxma yolu ilə kollektiv immunitet strategiyasının yolverilməz olduğu barədə xəbərdarlıq edib.

AZƏRTAC xəbər verir ki, təşkilatın rəhbəri Tedros Qebreyesus Cenevrədə pandemiyanın lap əvvəlindən tez-tez gündəmə gələn bu mövzu barədə tənqidi fikirlər səsləndirib. O bildirib ki, dünya səhiyyəsi tarixində heç zaman kollektiv immunitet hansısa epidemiyanın qarşısının alınması üçün istifadə edilməyib və belə bir strategiyadan pandemiyaya qarşı istifadədən danışmağa belə dəyməz. Belə bir addım həm etik, həm də elmi nöqteyi-nəzərdən problemlidir. Kollektiv immunitetə qızılca və ya poliomelit viruslarında olduğu kimi, kütləvi yoluxma yolu ilə deyil, peyvəndləmə yolu ilə nail oluna bilər. Eyni zamanda elmə hələ tam olaraq məlum deyil ki, koronavirusa bir dəfə yoluxmaq insanı ikinci yoluxmadan nə dərəcədə qoruya bilər.

Dünyada koronavirusa yoluxma hallarının artmasına toxunan T. Qebreyesus diqqətə çatdırıb ki, infeksiyaya yeni yoluxmaların əsas hissəsi az sayda ölkələrin payına düşür. Bunlardan tam yarısı isə cəmi üç ölkədə qeydə alınıb. Bu da onu göstərir ki, virusa qarşı mübarizə tədbirlərinin təsir gücü yoluxmanın qarşısını almaq üçün əsas vasitədir. Pandemiyanın qeyri-bərabər şəkildə yayılması isə ona qarşı cavab tədbirlərini çətinləşdirir.


## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən Abadlaşdırma xidmətlərinin satın alınması məqsədilə keçirilən kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun yekun protokoluna əsasən fiziki şəxs Hüseynov İlham İdris oğlu qalib elan edilmişdir.

Həmin fiziki şəxslə 07.10.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə yağ transformatorlarının satın alınması üzrə ümumi dəyəri ƏDV daxil 2 095 586,00 (iki milyon doxsan beş min beş yüz səksən altı) manat məbləğində "ATEF Şirkətlər Qrupu" MMC ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

07.10.2020-ci il tarixdə Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Təsərrüfat mallarının satın alınması" üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "Koburq LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

07.10.2020-ci il tarixdə Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Dəftərxana ləvazimatlarının satın alınması" üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "Global Stationery Office" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun inzibati binasının birinci mərtəbəsində yerləşən holun interyer dizayn layihə işlərinin satın alınması məqsədilə www.etender.gov.az saytında 27.08.2020-ci il tarixdə "Azərbaycan" qəzetinin 28.08.2020-ci il tarixli nömrəsində elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"ZENON" MMC** qalib müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC 22 oktyabr 2020-ci il saat 15:00-da keçirilməsi nəzərdə tutulmuş "Metal paltar dolabının satın alınması" üzrə açıq tenderin vaxtı 13 noyabr 2020-ci il saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 noyabr 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 12 noyabr 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC abonent smart kartlarının (Çin sayğacı üçün) satın alınması üzrə
## *kotirovka sorğusu elan edir*

İddiaçılar təkliflərini möhürlənmiş qaydada ikiqat zərflərdə 20 oktyabr 2020-ci il saat 16:00-a qədər "Azərişıq" ASC-nin Tender komissiyasına təqdim etməlidirlər. Zərflər 21 oktyabr 2020-ci il saat 15:30-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqələndirici şəxs: Orxan İbrahimov

Telefon: (012) 440-39-93 (daxili 28-15)

Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 22 oktyabr 2020-ci il saat 14:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün müxtəlif ölçü və rəngdə kafel, metlax və keramoqranitin satın alınması üzrə açıq tenderin vaxtı 05 noyabr 2020-ci il saat 14:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 oktyabr 2020-ci il saat 14:00-a qədər, tender təklifi və bank təminatını isə 04 noyabr 2020-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Elnur Fəxrəddin oğlu Balakişizadənin adına verilmiş 2044 nömrəli Xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7455
Sifariş 2395
Qiyməti 40 qəpik